Xalqın qəzeti!

# Xalq qəzeti

№ 68 (31037) 22 aprel 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Azərbaycan Orta Dəhlizin qovşağı və mərkəzi ölkəsidir



**Azərbaycanın əlverişli coğrafi mövqeyi – iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Orta Dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Səhifə ⇨ 6

## "Qətnamə oyunu": Qarabağ amili və erməni iqtidarı üçün həssas məqam

***Roma Papasından daha çox katoliklik kimlərə sərfəlidir?***



**İt motaldan əl çəkdi, motal itdən əl çəkmir. Belçika və Niderland Nümayəndələr Palatasının ermənipərəst, anti-Azərbaycan mahiyyət daşıyan qətnamələrini yalnız belə qiymətləndirmək mümkündür. Ermənistan qondarma "soyqırımı" klişesindən uzaq durursa, hər iki ölkə parlamentinin mövzuya dair canfəşanlığını necə anlayasan? Amma məsələ yalnız bunda deyil, vurğulanmalı vacib və daha vacib məqamlar var.**

*(ardı 3-cü səhifədə)*

## "Asiya nəhəngi" "Odlar yurdu" ilə tərəfdaşlığa böyük önəm verir



Səhifə ⇨ 7

## "Azyaşlıları qoruma", yoxsa gizli nəzarət?



Səhifə ⇨ 4

## Cənubi Qafqazda sülh prosesinə daxildən dəstək




Səhifə ⇨ 3



## Yaxın Şərq böhranı qlobal sabitliyi sınağa çəkir

Səhifə ⇨ 11

## Bakıda yaranmış 1 əsrlik dil və kimlik strategiyası



Səhifə ⇨ 5

## Maskalı humanistlər

*BQXK-nın Azərbaycan obrazı məhz belədir*



**Ermənistan–Azərbaycan münaqişəsi tarixə çevrildi və ümid etmək olar ki, birinci tərəfin təqsiri ucbatından başlamış hərbi-siyasi qarşıdurmaya həmişəlik son qoyuldu. İki qonşu xalq öz seçimlərini sülhün lehinə etdi və keçən ilin avqustunda ölkə rəhbərləri Vaşinqtonda bir-birinin əlini sıxdılar. Qarşıdurma bitdi, amma onunla bağlı xoşagəlməz, ağrılı xatirələr hələ uzun müddət yaddaşlardan silinməyəcək.**

*(ardı 5-ci səhifədə)*

## Regional balans və Balkanlarda yeni dinamika



Səhifə ⇨ 5

## Paşinyan işğal xülyasının əsassızlığını anlatmağa çalışır



Səhifə ⇨ 4

## Ermənilər soyqırımına məruz qalmayıb, soyqırımı törədiblər



Səhifə ⇨ 9

## "Əsrin müqaviləsi"nin "Günəşli" töhfəsi



Səhifə ⇨ 7

## "Elektron resept" sisteminə keçid niyə ləngiyir?

Səhifə ⇨ 8

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 9, maddə 998; 2025, № 4 (I kitab), maddə 333, № 7, maddə 646, № 8, maddə 761) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na aşağıdakı məzmunda 3.2.5-1-ci yarımbənd əlavə edilsin:

"3.2.5-1. ən azı 3 il hakimlik stajı olan Azərbaycan Respublikası məhkəmələri hakimləri;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 aprel 2026-cı il**

## Latviya Prezidenti Edqars Rinkeviçs Azərbaycana rəsmi səfərə gəlib

**Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs aprelin 21-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Latviya Prezidenti Edqars Rinkeviçsi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

## Naxçıvan MR Ali Məclisinin iclası





**Aprelin 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.**

Bu barədə bölgə müxbirinə Ali Məclisin mətbuat xidmətindən məlumat verilib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ - üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin müzakirəsi zamanı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verib.

Müzakirə olunan məsələ ilə əlaqədar deputatlar fikirlərini bildirdikdən sonra qanun səsə qoyularaq qəbul olunub.

Ali Məclis sədrinin birinci müavini qeyd edib ki, növbəti məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir. Məsələ ilə bağlı Bəxtiyar Məmmədov vurğulayıb ki, qanun layihəsi Ali Məclisin aprelin 17-də keçirilən plenar iclasında birinci oxunuşda qəbul olunub.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Bununla da Ali Məclisin iclası başa çatıb.

**XQ**

## Gəncə heyəti Çinin Çindao şəhərində




**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasının Çindao şəhərinə səfəri davam edir.**



Səfər çərçivəsində nümayəndə heyəti aprelin 21-də şəhərin Fuşan parkında yerləşən beynəlxalq dostluq xiyabanında olub. Burada Gəncə şəhəri adından ağac əkilib.

Parkın inzibati heyəti ilə görüşdə Çindao şəhərində yaşıllaşdırma və meşə təsərrüfatı sahəsində görülən işlər və əldə olunan uğurlar barədə məlumat verilib. Bildirilib ki, bu xiyabanda əsasən qardaşlaşmış və əməkdaşlıq edən şəhərlərin adından rəmzi olaraq ağaclar əkilir. Bu təşəbbüs şəhərlərarası dostluq münasibətlərinin möhkəmləndirilməsi və ekoloji layihələrin təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.

Niyazi Bayramov bildirib ki, Gəncə şəhəri geniş yaşıllıq zolaqlarına, müasir park və istirahət məkanlarına malikdir. Gəncədə aparılan yaşıllaşdırma və abadlıq işləri şəhərin ümumi simasını daha da gözəlləşdirir və turizm potensialının artırılmasına ciddi töhfə verir.

Nümayəndə heyəti Çindaoda fəaliyyət göstərən bərk məişət tullantılarının emalı müəssisəsinə də baş çəkib. Burada müasir texnologiyalar əsasında qurulan müəssisənin fəaliyyəti barədə ətraflı məlumat verilib.

Xatırladaq ki, 2023-cü ildə Gəncə ilə Çindao şəhərləri arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalanıb. Bu səfər qardaşlaşmış şəhərlər münasibətlərinin qurulmasından sonra həyata keçirilən ilk rəsmi səfərdir.

**XQ**

## Daxili İşlər Nazirliyində I rübə yekun vurulub



**Dünən Daxili İşlər Nazirliyində onlayn formatda kollegiya iclası keçirilib.**

Mülkiyyət əleyhinə olan cinayətlərin qarşısının alınması və açılması, mühafizə-siqnalizasiya vasitələrinin tətbiqi sahəsində həyata keçirilən tədbirlər və bayır xidmətinin təşkilinin vəziyyətinə həsr olunmuş iclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2026-cı ilin birinci rübündə də məqsədyönlü şəkildə davam etdirilib. Cinayətlərin qarşısının alınması, açılması, istintaqı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən kompleks tədbirlər müsbət nəticələr verib, kriminogen durum nəzarətdə saxlanılıb.

Qeyd olunub ki, cari ilin 3 ayında əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə qeydə alınmış 7738 cinayətin 85,9 faizinin açılması təmin olunub. Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 90,1 faizi açılıb. 2025-ci ilin eyni dövrü ilə müqayisədə cinayətlərin dinamikasında 4,9 faiz azalma baş verib. Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların açılması yaxşılaşıb, qəsdən adam öldürmə və ona cəhdlərin, cibgirliklərin, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların açılması tam təmin olunub. Qeyri-leqal dövriyyədən 2 ton 310 kiloqram, ötən ilin analoji dövrü ilə müqayisədə isə 648 kiloqram çox narkotik vasitə çıxarılıb.

Ağır, xüsusilə ağır və qrup halında cinayətlərin, şəxsiyyət əleyhinə olanların, adam öldürməyə cəhdlərin, mülkiyyət əleyhinə olanların, onlardan oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların, informasiya texnologiyalarından istifadə edilməklə törədilənlərin, əvvəllər məhkum olunmuşlar, yetkinlik yaşına çatmayanlar tərəfindən və ailə münaqişəsi zəminində törədilən cinayətlərin sayı azalıb, eyni zamanda, yol-nəqliyyat hadisələrinin sayı 15 fakt, qəzalarda ölənlərin sayı 9 nəfər, xəsarət alanların sayı 44 nəfər az olub.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı Nazirliyin Baş idarə, idarə və ərazi polis orqanlarının rəislərinin görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqlar və onların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxışları dinlənilib.

İclasa yekun vuran daxili işlər naziri V.Eyvazov gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, bəzi ərazi orqanlarının fəaliyyətində müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu qeyd edərək onların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini, xüsusən yetkinlik yaşına çatmayanların hüquqazidd əməllərdən çəkindirilməsi üçün profilaktik işin gücləndirilməsini, onların sosial şəbəkələrin zərərli təsirlərindən qorunması məqsədilə aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə birgə maarifləndirmə tədbirlərinin daha məqsədyönlü davam etdirilməsini tələb edib. Eyni zamanda, əməliyyat-xidməti fəaliyyətin bir sıra vacib istiqamətləri və aktual məsələləri üzrə konkret tapşırıq və tövsiyələrini verib.

**XQ**

## Konstitusiya Məhkəməsi Baş Prokurorluğun sorğusunu cavablandırıb

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Konstitusiyanın 76-cı maddəsinin I hissəsi baxımından Cinayət Məcəlləsinin 321-ci maddəsinin "Qeyd" hissəsinin həmin Məcəllənin 321.1-ci maddəsi, İnzibati Xətalar Məcəlləsinin 606.3-cü maddəsi və 606-cı maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi, habelə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 45-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim X.Vəliyevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Daxili İşlər Nazirliyi, Bakı Apellyasiya Məhkəməsi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi və Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Konstitusiyanın 76-cı maddəsinin I hissəsi və 80-ci maddəsinin hüquqi təyinatından, o cümlədən hüquqi müəyyənlik və qanunçuluq prinsiplərindən, Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində ifadə olunmuş hüquqi mövqelərdən irəli gələrək Cinayət Məcəlləsinin 321-ci maddəsinin cinayət tərkibinin aydın və birmənalı şəkildə müəyyənləşdirilməsi istiqamətində təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

**XQ**

## Mərkəzi Bank Şəkidə qəbul keçirib

**Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən vətəndaş müraciətlərinin yerində araşdırılması, operativ həlli məqsədilə Şəki rayonunda səyyar görüş təşkil edilib.**

AMB-dən bildirilib ki, görüş zamanı vətəndaşlar tərəfindən əsasən kredit istəyi, kredit öhdəlikləri üzrə güzəşt istəyi, fişinq, ATM quraşdırılması və s. məsələlər ilə bağlı müraciətlər səsləndirilib. Müraciətlərin bir qismi yerində həllini tapıb, əlavə araşdırma tələb edən məsələlər isə aidiyyəti üzrə qeydiyyata alınaraq icraya götürülüb.

Səyyar görüş çərçivəsində vətəndaşlara onların hüquq və vəzifələri, mövcud qanunvericiliyin tələbləri barədə ətraflı izahat verilib.

Qeyd edək ki, Mərkəzi Bank vətəndaş məmnuniyyətinin artırılması, müraciətlərin operativ və şəffaf şəkildə araşdırılması istiqamətində bu cür səyyar görüşlərin mütəmadi olaraq keçirilməsini davam etdirəcək.

**XQ**

# "Qətnamə oyunu": Qarabağ amili və erməni iqtidarı üçün həssas məqam



*(əvvəli 1-ci səhifədə)*

Məlum olduğu kimi, Belçikanın Azərbaycandakı səfiri Julyen de Frepon və Niderlandın Azərbaycandakı səfiri Marian de Yonq ayrı-ayrılıqda ölkəmizin Xarici İşlər Nazirliyinə çağırılıb və onlarla görüşlərdə hər iki ölkə parlamentinin qəbul etdiyi qətnamələrin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, həmçinin Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesini sarsıtmaq məqsədi daşıdığı bildirilib, növbəti dəfə özünü göstərən bu cür məsuliyyətsiz cəhdlərə qarşı kəskin etiraz ifadə olunub.

Səfirlərlə görüşdə, həmçinin, bildirilib ki, hər iki sənəd yalan və əsassız qiymətləndirmələrlə doludur. Bu hal isə həmin sənədləri qəbul etmiş qurumların daxilinə kök salmış Azərbaycan əleyhinə qərəz motivlərinə söykənir. Habelə, parlament qərarlarında yer alan qəbuledilməz iddiaların beynəlxalq hüququn kobud şəkildə pozulması və qanunun aliliyinə açıq müdaxilə mahiyyəti daşıdığı vurğulanıb.

***

Bəli, Ermənistanın baş naziri Nikol Paşinyan və ölkənin digər rəsmiləri ölkələri ilə Azərbaycan arasında sülh mühitinin qərarlaşdığını bildirir, barış ritorikasını özlərinin seçkiqabağı təbliğat platformalarının vacib tezisinə çevirir, Niderland və Belçika Parlamentinin üzvləri isə müharibə təhlükəsindən dəm vururlar. Görəsən, onlar nə yeyib, nə içirlər ki, bu qənaətə gəlirlər? Həqiqətən, bəzi durumlara izah tapmaq çox çətindir. Amma izah var və bu barədə sonda söz açacağıq.

Belə təəssürat yaranır ki, Belçika və Niderland ali qanunverici orqanlarının təmsilçiləri ötən il avqustun 8-də "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş"in paraflanmasından da xəbərsizdirlər, hər iki ölkə liderinin imzaladıqları Birgə Bəyannamədən də. Yaxşı, başa düşdük ki, onlar Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyasının fəaliyyətini davam etdirməsi üçün əsas hazırlayırlar. Amma...

Digər tərəfdən, belə düşünmək də mümkündür ki, Niderland və Belçika parlamentariləri baş nazir N.Paşinyan və komandasının seçkidə qalib gəlməsini istəmirlər. İstəsəydilər, Ermənistandakı revanşist və şovinist kəsimin müharibə təhlükəsinin sovuşmadığına dair sərsəmləmələrini təkrarlamazdılar. Görəsən, avropalı deputatlar kimin sifarişlərini yerinə yetirirlər?

Nəzərə alaq ki, erməni iqtidarına əks mövqedə dayanmış müxalifət Rusiyadakı bəzi qüvvələr tərəfindən dəstəklənir. O qüvvələr ki, hələ də Qarabağ hərəkatının bitmədiyi iddiasındadırlar və çalışdıqları budur ki, revanşist kəsimin hakimiyyətə yiyələnməsi ilə Qarabağ kartını diri tutsunlar, beləliklə, Cənubi Qafqaz coğrafiyasında öz təsirlərini saxlasınlar. Bəlkə Niderlanda və Belçikaya bu lazımdır?

Əslində, sualımız ritorikdir. Bu "cırtdanlar" böyük siyasətdə heç nədirlər və şübhəsiz, dediyimiz kimi, konkret sifariş yerinə yetirirlər. O sifariş ki, onun ikibaşlı mahiyyət daşıdığını vurğuladıq. Yəni Niderland və Belçika parlamentinin üzvləri, obrazlı desək, qaş düzəltdikləri yerdə göz çıxarmaqla məşğuldurlar, durumun fərqində olmayacaq qədər miskin və rəzildirlər. Avropanın iki inkişaf etmiş ölkəsinin parlament üzvlərinin sərsəm oyunlarda alətə çevrilmələrinə başqa ad tapmaq çox çətindir. Ancaq onların davranışlarında müəyyən məntiq, səbəb-nəticə əlaqələri tapmaq mümkündür. Elə isə keçək anonsunu etdiyimiz daha vacib məqamlara.

***

Bəli, sözügedən qətnamələrdə "Azərbaycanda saxlanılan hərbi əsirlər" məsələsi də gündəmə gətirilir. Hesab edirik ki, yalnız bu element hay hakim komandasının baxışlarını əks etdirir. Yeri gəlmişkən, Ermənistan parlamentinin spikeri Alen Simonyan Parlamentlərarası İttifaqın 152-ci Assambleyasının bir neçə gün əvvəl İstanbulda keçirilmiş iclasındakı çıxışı zamanı mövzuya yer vermiş, "erməni əsirlərin" buraxılmasına sülh və etimad mühiti kontekstində aydınlıq gətirməyə çalışmışdı. Görəsən nə üçün? Axı ortada böyük ziddiyyət və məntiqsizlik var.

Erməni iqtidarı "Qarabağ hərəkatı"ndan imtina etdiyini bildirirsə, o zaman nəzərə almalıdır ki, Bakı həbsxanalarında məhkumluq həyatı yaşayanlar hərbi əsir yox, məhz həmin "hərəkatın", daha doğrusu, avantüranın daşıyıcıları olmuş şəxslərdir. Axı Araik Arutyunyan, Arkadi Qukasyan, Bako Saakyan nə vaxtdan hərbi əsir olub? Yoxsa, qondarma rejimin "xarici işlər naziri" olmuş David Babayandır hərbi əsir? O Babayan ki, vaxtilə Azərbaycana ultimatumlar verirdi. Bəlkə hərbi əsir rejimdə oyuncaq "dövlət naziri" postunu tutmuş Ruben Vardanyandır? Vardanyan ölkəmizin suverenliyini və ərazi bütövlüyünü açıq şəkildə təhdid edirdi.

Yəni rəsmi İrəvan seçkiöncəsi bu şəxslərin azadlığa çıxmalarına səy göstərməklə, çox böyük paradoksa yol verdiyini düşünməlidir. Bu paradoks isə istər-istəməz başqa məqamlara yol açır. Müvafiq surətdə Belçika və Niderland parlamentinin üzvləri hesab edə bilərlər ki, Paşinyan və komandası Bakıda saxlanılan ermənilərin, yəni Qarabağ canilərinin, müharibə cinayətkarlarının sərbəst buraxılmalarını istəyirsə, avantüradan uzaqlaşmayıb. Deməli, avropalı deputatların keçmişin qondarma "soyqırımı" klişesi ilə "silahlanmalarında", habelə Azərbaycanla Ermənistan arasında müharibə təhlükəsi uydurmalarında da məntiq axtarmaq yerinə düşür.

Sözümüz ondadır ki, Ermənistan hakimiyyəti mövzunun həssaslığını nəzərə almalı, hansısa kənar dövlətin və ya dövlətlərin sərsəm qətnamələrinin yayılmasına icazə verməməlidir. Avropalılar fərqində olmaya bilərlər, amma rəsmi İrəvanın təmsilçiləri bu sayaq sənədlərin sülhə və etimad quruculuğuna zərbə vurduğunu ciddi şəkildə düşünməlidirlər. Habelə, Paşinyan iqtidarı səmimi davranıb Belçika və Niderland parlamentlərində qəbul edilmiş qətnamələrə bənzər sənədlərə sərt etirazını bildirməlidir.

***

Sonda ən vacib məqamı diqqətə çatdıraraq deyək ki, Cənubi Qafqazda sülh qlobal siyasətin məngənəsində sıxılıb qalmamalıdır. Niderland və Belçika parlamentinin qətnamələrində, daha doğrusu, Roma Papasından daha çox katolik olmaq cəhdlərində regiondakı barışı rəqabət müstəvisinə daşımaq motivləri hiss olunmaqdadır. Axı hazırkı sülh dinamikasında özünü göstərən ABŞ vasitəçilik xətti var. O xətt ki, Avropa İttifaqının timsalında Fransaya sərfəli deyil. Durum Rusiya üçün də məqbul sayılmırsa, deməli, Niderland və Belçika kimi "cırtdanların" ortaya düşmələrində planlılıq axtarmağa dəyər. Ermənistan hakimiyyətinin bu "cırtdanların" qətnamələrinə etiraz etməsinin vacibliyini vurğulayarkən, Paşinyan iqtidarının vəziyyətin məhz bu həssaslığı barədə də ciddi düşünməli olduğu qənaətindəyik.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yad torpaqlarda sönən talelər

**Rusiya–Ukrayna müharibəsi təkcə iki ölkə arasında hərbi qarşıdurma deyil. Bu münaqişə çoxdan coğrafi sərhədləri aşaraq ən ciddi geosiyasi böhranlarından birinə çevrilib. Müasir dövrdə yenidən aktuallaşan "muzdlu döyüşçülər" fenomeni müxtəlif ölkələrdən olan insanları müharibənin birbaşa iştirakçısına çevirib. Təəssüf ki, bu proses Azərbaycan vətəndaşlarından və azərbaycanəsilli şəxslərdən də yan keçməyib.**

Bu iştirakın nəticələri isə çox vaxt faciəvi olub. Statistik rəqəmlər bunu təsdiqləyir. Təkcə bu ilin fevral–mart aylarında Ukraynanın Zaporojye, Donetsk və Xarkov istiqamətlərində gedən döyüşlərdə Rusiya ordusunun tərkibində həlak olan 10 azərbaycanəsilli şəxsin kimliyi müəyyən edilib. Onlardan ikisi Azərbaycan Respublikasının, səkkizi isə



Rusiya Federasiyasının vətəndaşıdır. Ümumilikdə isə müharibə başlayandan yüzlərlə azərbaycanlının həyatını itirdiyi bildirilir. Bu rəqəmlər, sadəcə, statistika deyil, hər biri yarımçıq qalmış bir ömrün, dağılan bir ailənin, sönən ümidin ifadəsidir. Bəs azərbaycanlıların bizə yad müharibədə iştirakına səbəb nədir?

Bunun arxasında duran səbəblər sadə və birmənalı deyil. İlk baxışda ən güclü amil kimi iqtisadi motiv görünür. Müharibəyə cəlb olunanlara yüksək maaş, vətəndaşlıq, sosial təminat və müxtəlif imtiyazların vəd edilməsi məlumdur. Xüsusilə xaricdə yaşayan, qeyri-sabit gəlirə malik və ya miqrant statusunda olan şəxslər üçün bu cür təkliflər bəzən həyatlarını dəyişəcək nadir imkana çevrilir. Azərbaycanlının ailəsini dolandırmaq, borcları ödəmək və ya sosial vəziyyəti yaxşılaşdırmaq ümidi bu qərarın verilməsində mühüm rol oynayır. Amma reallıq çox vaxt bu vədlərlə uzlaşmır. Döyüş bölgələrinə göndərilən şəxslərin böyük qismi vəd edilən maliyyə təminatını tam ala bilmir, ödənişlərin gecikməsi, bəzi hallarda isə ümumiyyətlə



verilməməsi halları müşahidə olunur. Daha ağır tərəfi isə yaralanma və ya ölüm halında ailələrə vəd olunan kompensasiyaların ya verilməməsi, ya da uzunmüddətli bürokratik maneələrlə üzləşməsidir. Beləliklə, maddi qazanc ümidi ilə verilən qərar nəticədə ailənin daha ağır sosial problemlərlə üz-üzə qoyur.

Digər mühüm məqam risklərin düzgün qiymətləndirilməməsidir. Müharibənin qaçılmaz reallığı olan ölüm təhlükəsi, ağır xəsarətlər, psixoloji travmalar və hüquqi nəticələr çox vaxt ya kifayət qədər izah edilmir, ya da məqsədli şəkildə arxa plana keçirilir. **Hüquqşünas Samir Osmanlının** XQ-yə bildirdiyi kimi, iqtisadi motivlər əsas hərəkətverici qüvvələrdən biri olsa da, onların arxasında çox vaxt sosial həssaslıq, informasiya çatışmazlığı və manipulyativ cəlbetmə mexanizmləri dayanır. Bu isə insanın qısamüddətli qazancı önə çəkərək uzunmüddətli nəticələri nəzərdən qaçırmasına səbəb olur: "Azərbaycanlıların müharibəyə cəlb olunmasında hüquqi və sosial status mühüm rol oynayır. Xarici ölkələrdə yaşayan bəzi şəxslər, xüsusilə miqrantlar və qeyri-leqal əmək bazarında çalışanlar daha həssas vəziyyətdədir. Onların seçim imkanları məhdud olur. Deportasiya riski, iş icazəsi problemləri və hüquqi qeyri-müəyyənlik kimi amillər onları müxtəlif təzyiq mexanizmlərinə açıq edir. Bəzi hallarda isə seçim açıq şəkildə təqdim olunur: ya ölkəni tərk etmək, ya da müəyyən şərtlərlə hərbi əməliyyatlara qoşulmaq. Bu, formal olaraq "könüllülük" kimi təqdim edilsə də, mahiyyət etibarilə məcburiyyətə yaxın bir vəziyyətdir".

Sosial faktorlar da qərar qəbulunda az rol oynamır. İqtisadçı Kamran Abdullayevin fikrincə, Rusiyada və ya Ukraynada yaşayan bəzi azərbaycanlılar stabit iş imkanlarının olmaması, sosial təminatın zəifliyi və ailə qarşısında maddi məsuliyyət kimi problemlərlə üzləşirlər: "Bu şəraitdə yüksək gəlir vədi və "sabit müqavilə" kimi təqdim olunan təkliflər cəlbedici görünür. Lakin bu seçim çox vaxt real risklər nəzərə alınmadan edilir".

Deyilənlərə əlavə olaraq, informasiya mühiti və sosial şəbəkələr də bu prosesdə mühüm rol oynayır. Müasir dövrdə münaqişə zonalarına cəlbetmə açıq çağırışlardan daha çox gizli və manipulyativ üsullarla həyata keçirilir. "Müqaviləli iş", "təlim proqramı", "təhlükəsizlik xidməti" və ya "yüksək gəlirli xarici iş" kimi edilən təkliflər ilkin mərhələdə insanlarda təhlükəsiz və legitim fəaliyyət təəssüratı yaradır. Sonrakı mərhələdə bu şəxslər müharibə zonalarına yönləndirilir.

Döyüşə cəlbedilmədə psixoloji təsir üsullarından da geniş istifadə edilir. İnformasiya mühiti, sadəcə, məlumat ötürən platforma deyil, həm də insan resurslarının yönləndirildiyi alətdir. Ümumi mənzərənin içində isə fərdi talelər daha kəskin görünür.

**HAŞİYƏ:** Hüseyn İsayevin hekayəsi bu baxımdan ibrətamizdir. O, atasının Rusiyanın Tula vilayətindəki obyektlərinə nəzarət edir, adi həyat yaşayırdı. Lakin bir mübahisə faciə ilə nəticələnir və o, qətl törətdiyinə görə uzunmüddətli həbs cəzasına məhkum edilir. Həbsxanada olduğu müddətdə ona seçim təqdim olunur: müharibədə iştirak müqabilində azadlıq. Bu seçim zahirən çıxış yolu kimi görünsə də, əslində, həyatla ölüm arasında qurulmuş ağır tərəzi idi. Hüseyn bu yolu seçir: azadlığa qovuşmaq ümidi ilə müharibəyə yollanır. O, Rusiya ordusunun tərkibində qısamüddətli təlim keçsə də, taleyi döyüş meydanına çatmadan həll olunur. Luqansk vilayətinin Kremensk rayonunun Novolyubivka kəndində təlim zamanı Ukrayna ordusunun dron hücumu nəticəsində həyatını itirir. Onun ölümü nə mediada böyük başlıqlara çevrildi, nə də geniş müzakirə olundu. Sadəcə, daha bir həyat yad torpaqda sona çatdı.

Bu, yalnız dövlətlər arasında gedən mübarizə deyil, insan talelərinin səssiz şəkildə itirildiyi reallıqdır. Hər bir itki arxasında bir ailənin dağılması, onun gələcəyin yox olması dayanır. Hüseyn İsayevin həyatı kimi: arxada hüzün, kədər, valideynlərin əbədi oğul həsrəti qalır.

*

Bu müharibə təkcə hərbi itkilərlə yadda qalmır, eyni zamanda, gələcək təhlükəsizlik riskləri baxımından da dərin izlər buraxır. Bu səbəbdən Azərbaycan vətəndaşlarının xarici münaqişələrdə iştirakının qarşısını almaq üşün dövlət səviyyəsində tədbirlər görülür. Azərbaycan qanunvericiliyi bu məsələdə kifayət qədər qəti mövqe nümayiş etdirir. 29 dekabr 2025-ci ildə Azərbaycan Respublikasının Baş Prokurorluğu xüsusi bəyanat yayaraq, xarici silahlı münaqişələrdə iştirakın ağır cinayət olduğunu vurğulayıb. Bu yanaşma göstərir ki, dövlətin mövqeyi yalnız baş vermiş hallara reaksiya verməklə məhdudlaşmır. Eyni zamanda, burada preventiv və çəkindirici hüquqi siyasət açıq şəkildə hiss olunur. Məqsəd təkcə cəzalandırmaq deyil, vətəndaşların riskli münaqişə zonalarına cəlb olunmasının qarşısını almaqdır.

Hüquqşünas Samir Osmanlı bildirdi ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu sahə üzrə bir sıra mühüm müddəalar yer alır. Xüsusilə 114-cü maddə (muzdluluq) bu istiqamətdə əsas hüquqi mexanizmlərdən biridir. Həmin maddəyə əsasən, muzdluların yığılması, hazırlanması, maliyyələşdirilməsi və münaqişələrdə istifadəsi cinayət hesab edilir. Bu fəaliyyətlərdə birbaşa iştirak edən şəxslər də məsuliyyətə cəlb olunur. Maddənin üçüncü bəndinə görə, muzdlunun hərbi münaqişədə və ya hərbi əməliyyatlarda iştirakı beş ildən on bir ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Bundan əlavə, Cinayət Məcəlləsinin 283-1-ci maddəsi xarici münaqişələrlə bağlı hüquqi məsuliyyəti daha geniş şəkildə tənzimləyir. Bu maddə xarici dövlətlərin ərazisində silahlı münaqişələrdə iştirak məqsədilə qeyri-qanuni silahlı birləşmələrin yaradılması, onlara qoşulma və bu fəaliyyətlərin təşkili hallarını əhatə edir. Xüsusilə dini, ideoloji və digər motivlər əsasında belə qruplara qoşulma ağır cinayət kimi qiymətləndirilir. Bu məqsədlə döyüş təlimlərinin keçirilməsi, sabit qrupların yaradılması və ya bu qruplara rəhbərlik edilməsi doqquz ildən on iki ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Əgər bu əməllər yetkinlik yaşına çatmayan şəxslərin cəlb edilməsi ilə törədilərsə, cəza daha da sərtləşdirilərək on iki ildən on beş ilədək azadlıqdan məhrumetmə nəzərdə tutulur. Təlimlərdə və ya xarici silahlı münaqişələrdə iştirak edən şəxsləri də məsuliyyətə cəlb edir. Bu halda yeddi ildən on bir ilədək azadlıqdan məhrumetmə cəzası tətbiq olunur.

Yad torpaqlarda itən həyatların hər biri isə bizə eyni sualı xatırladır: bu müharibədə kim qalib gəlir? Cavab hüznlü sükutun içində itib gedir...

***P.ƏFƏNDİYEV***
***XQ***

# Cənubi Qafqazda sülh prosesinə daxildən dəstək

## *Rəsmi Bakının İrəvanla danışıqlarında struktur dəyişiklikləri*

**İllər boyu region daxilində davam edən qeyri-sabitlik, münaqişə mühiti artıq tamamilə fərqli, xüsusi praqmatik əməkdaşlıq müstəvisinə sürətli keçid alır. "Sülh tranziti" konsepti qeyd edilən keçid prosesinin əsas aparıcı qüvvəsi qismində çıxış edir. Əlaqələrin bu formada bərpası xalqlararası münasibətlər sistemində konseptual siyasi memarlığın sağlam təməllər üzərində qurulması mənasına gəlir. Qeyd edilən paradiqma dəyişikliyi xarici qüvvələrin bölgəyə yönəlik destruktiv müdaxilələrini əngəlləməklə yanaşı, tərəflərin qarşılıqlı hörmət çərçivəsində mövcudluğunu təmin edən əvəzsiz struktura çevrilir.**




Tarixi xronologiyaya nəzər saldıqda aydın görünür ki, yalnız diplomatik bəyanatlar vasitəsilə uzunmüddətli sülhə nail olmaq praktiki baxımdan imkansızdır. Real sülh əldə etmək üçün mütləq şəkildə qarşılıqlı etimad, ortaq maraqlar doğuran ardıcıl addımlar atılmalıdır. Məhz həmin məntiqə əsaslanaraq, cari mərhələdə rəsmi Bakının İrəvanla münasibətləri tənzimləmək məqsədilə həyata keçirdiyi fəaliyyət unikal xarakter daşıyır. Azərbaycan tərəfinin nümayiş etdirdiyi siyasi iradə, atılan təmkinli addımlar nəticəsində bölgədə təhlükəsizlik arxitekturasının yaradılması istiqamətində irəliləyiş müşahidə olunur.

Azərbaycandan Ermənistana növbəti yük – 16 vaqon dizel yanacağı yola salındı. Belə qərar zahirən ticarət, maddi mübadilə prosesini xatırlatsa da, məsələnin siyasi mahiyyəti tamamilə fərqlidir. Qeyd olunan yanacaq nəqli əməliyyatı qonşu dövlətin rəsmi institutlarına, həmçinin xalqına göndərilən aydın sülh mesajıdır. Enerji resurslarının təminatı bütövlükdə dövlətin təməl suverenlik göstəricilərindəndir. Həmin ehtiyacın məhz qalib tərəf Azərbaycan vasitəsilə ödənilməsi tarixi qələbənin humanizm, gələcəyə hesablanmış strateji düşüncə ilə idarə edildiyinin təsdiqidir.

İllərdir formalaşdırılan dezinformasiya mühiti, nifrət ritorikası Ermənistan daxilindəki radikal ünsürlərin mütəmadi istifadə etdiyi əsas təbliğat alətinə çevrilmişdi. Həmin qruplar cəmiyyətdə qorxu, xof yaradaraq daimi qapalılıq mühitini təşviq edirdilər. Lakin Bakının həyata keçirdiyi ardıcıl, təmkinli logistik təminat təşəbbüsləri həmin dezinformasiya şəbəkələrini zərərsizləşdirir. Radikal siyasi dairələrin anti-Azərbaycan təbliğatı mövcud gedişat fonunda öz əhəmiyyətini, inandırıcılıq qabiliyyətini itirir. Çünki ortada təkzibedilməz real fəaliyyət var.

Mütləq şəkildə nəzərə alınmalıdır ki, adi vətəndaşın düşüncə tərzi fəlsəfi, konseptual sənədlərdən daha çox gündəlik məişət şəraitinə, təminat imkanlarına əsaslanır. Hazırkı vaxtda Ermənistanın enerji bazarında ucuzlaşma erməni cəmiyyətinin həyatında bilavasitə hiss ediləcək, onların sosial rifahına müsbət təsir göstərəcək real nəticədir. Vətəndaş daxili bazarda məhsulların qiymətinin enməsini, logistik asanlığı gündəlik yaşamında hiss etdikdə siyasi xadimlərin illərdir beyninə yeritdiyi düşmənçilik hissləri təbii yolla sıradan çıxır. Erməni xalqı artıq başa düşür ki, təcrid olunma, münaqişə yalnız onların yaşayış standartlarını pisləşdirir. Əvəzində qonşu ilə normal kommunikasiya xətlərinin açılması siyasi-sosial əhəmiyyət daşıyaraq rifaha xidmət edir.

Sosial durumun ictimai şüurda yaratdığı dəyişiklik qonşuya inam və etimadı formalaşdırır. Əsas məsələ cəmiyyətin düşüncə tərzinin tam transformasiyasındadır. Əhali artıq uzun illər ərzində onlara aşılanan stereotiplərdən imtina etməyə, reallığı dərk edərək praqmatik mövqe tutmağa meyllənir. Yalnız xalqın etimadını qazanmış sülh prosesi uzunmüddətli, dayanıqlı ola bilər. Rəsmi idarəçilər tərəfindən imzalanan sənədlər hüquqi baza yaratsa da, həmin sənədlərin içərisindəki müddəaların reallığa çevrilməsi üçün ictimai dəstək, məhz xalqlararası barışıq ruhu zəruridir. Hazırda müşahidə etdiyimiz prosesə tam olaraq qeyd edilən qlobal məqsədə doğru yönəlib.

Bakının səmimiyyətinə dair şübhələrin aradan qalxması sülh sazişinin imzalanmasını şərtləndirən ən mühüm amildir. İkili standartlardan uzaq, şəffaf, anlaşıqlı niyyətlərlə çıxış edən dövlət siyasətimiz bütün qaranlıq məqamlara aydınlıq gətirir. Beynəlxalq təşkilatların onilliklər boyu yaratmağa çalışdığı, lakin daim uğursuzluqla nəticələnən barışıq mühitini bu xətt məhz real işlərlə qurmağı bacarır. Cəmiyyətdəki yersiz qorxular, uydurma fobiyalar zəiflədikcə sülh müqaviləsinin ictimai legitimliyi artır. Yalnız legitimliyə malik hüquqi sənəd tarixi əhəmiyyət kəsb edə bilər. Bütün manipulyasiyalara, xarici güclərin neqativ təsirlərinə baxmayaraq, xalqlar arasında etimad mühitinin yaradılması regionu gələcək faciələrdən sığortalayacaq təhlükəsizlik təminatına çevrilir. Həmin səbəbdən cari diplomatik fəaliyyətlər, sadəcə, qonşuluq əlaqəsi çərçivəsinə sığmır, regionun inkişaf modelini formalaşdırır.

Sülh sənədinin konturları məhz qeyd olunan praktiki zəminlər üzərində formalaşır. Nəzəri yanaşmalar mütəmadi qaydada pozula, şərtlər yenidən müzakirəyə çıxarıla bilər. Lakin infrastrukturların fəaliyyətə başlaması, humanitar, sosial-logistik xətlərin aktivləşməsi tərəfləri reallığa o dərəcədə bağlayır ki, geriyə addım atmaq, sadəcə, fəlakət anlama gəlir. Azərbaycan hakimiyyətinin apardığı yorulmaz fəaliyyət bu məqamın reallaşmasına yönəlib. Prosesin hər addımında riyazi dəqiqliklə hesablanmış strateji vizyon hiss olunur.

Aydın şəkildə vurğulanmalıdır ki, əldə olunan irəliləyişlər dərhal, asan şəkildə formalaşmayıb. Arxada olduqca mürəkkəb, yorucu diplomatik mübarizə, böyük güclərin təzyiqlərini dəf etmək qabiliyyəti dayanır. Dövlət liderinin nümayiş etdirdiyi uzaqgörən siyasət müvəqqəti emosiyalardan uzaq, tamamilə rasional hesablamalara söykənir. Tarix sübut edir ki, təfəkkürlə idarə olunan sistemlər xaos içərisindən asayiş yaratmağı bacarır. Cəmiyyətin diqqətini məişət, normal inkişaf ritminə kökləmək üçün edilən humanitar gedişlər qonşu ölkə daxilində rasionallığı oyadır. Əhalinin sağlam məntiqi bərpa olunduqca revanşizm ideologiyası sosial dəstək bazasından məhrum olur. İnsanlar sülhün faydasını anladıqdan sonra onlara müharibə təbliğatı satmaq praktiki baxımdan imkansızlaşır.

Qeyd olunan sülh diplomatiyası təcrübədə qarşısıalınmaz prosesə çevrilir. "Sülh tranziti" artıq mətbuat səhifələrində səslənən və tam təsdiqini tapmış real icra prosesidir. Ermənistan bazarında ucuzlaşma xalqın dövlətimizə yönəlik yanaşmasını müsbət yöndə dəyişdirən əsas amildir. Sosial durumun ictimai şüurda yaratdığı dəyişiklik isə qonşuya inam və etimadı formalaşdırır. Bakının səmimiyyətinə dair şübhələrin aradan qalxması sülh sazişinin imzalanmasını şərtləndirən mühüm amildir. Göstərilən faktorlar, o cümlədən logistik irəliləyişlər yeni tarixi mərhələnin geridönməz inkişaf xətləridir.

İndi Azərbaycan gələcək nəsillərin xarici müdaxilələrdən uzaq, əmin-amanlıq içində yaşaması üçün qurulan möhtəşəm regional siyasi arxitekturanın inşası ilə məşğuldur.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Dövlət büdcəsinə 170 milyon manat ziyanı kim vurub?

## *Hesablama Palatasının Milli Məclisə hesabatında bu suala cavab axtarıldı*



**Ötən gün Milli Məclisin növbəti plenar iclası keçrildi. İclas parlamentin spikeri Sahibə Qafarovanın ənənəvi hesabat nitqi ilə başladı. Sədr rəhbərlik etdiyi nümayəndə heyətinin 14–17 aprel tarixlərində İstanbulda keçirilən Parlamentlərarası İttifaqın 152-ci Assambleyasında və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransında uğurlu iştirakından və müxtəlif ölkələrin parlament rəhbərləri ilə keçirdiyi görüşlərdən bəhs etdi.**

Daha sonra Milli Məclisin deputatları cari məsələlər ətrafında çıxışlar etdilər. Çıxışçılar Belçika və Niderland parlamentlərinin 2026-cı il aprelin 16-da Azərbaycan–Ermənistan sülh prosesinə, hər iki ölkənin birgə səyləri ilə regionda sülh və əməkdaşlıq mühitinin formalaşmasına yönəlmiş addımlara zərbə vurmaq məqsədi daşıyan qətnamələrini qınadılar və qətiyyətlə rədd etdilər. Deputat Elçin Mirzəbəyli çıxışında bildirdi ki, hər iki ölkənin parlamentlərinin son qətnamələri nə hüquqi əsaslara, nə də regiondakı real vəziyyətə söykənir: "Bu sənədlər siyasi manipulyasiya nümunəsi olmaqla yanaşı, beynəlxalq hüququn prinsiplərinə selektiv və riyakar yanaşmanın, açıq qərəzin, siyasi aqressiyanın növbəti təzahürüdür. Xüsusilə, Avropa Şurası Parlament Assambleyasında Bekçikalı parlamentarilərin ölkəmizə qarşı həyata keçirilən qarayaxma kampaniyalarının ön sıralarında yer alması, ölkə parlamentində Azərbaycanla dostluq qrupunun fəaliyyəti dayandırılması da sübut edir ki, bu, ardıcıl və planlı şəkildə qurulan və siyasi motivlərə əsaslanan prosesdir. Bu səbəbdən təklif edirəm ki, Azərbaycan–Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyəti dayandırılsın".

Deputat Erkin Qədirli isə Belçika və Niderlandın parlamentarilərini savadsız adlandırdı. Onun sözlərinə görə, sözügedən qətnamələr hüquqi baxımdan, ilk növbədə, qeyri-peşəkar və qanuni əsaslardan uzaqdır: "Hazırda Azərbaycanda barələrində hələ qanuni qüvvəyə minmiş hökm olmasa da, birinci instansiya məhkəməsinin qərarı olan şəxslər var və proses hüquqi qaydada davam edir. Lakin həmin separatçı və terrorçu erməni şəxslər qətnamələrin bəzi yerlərində, "siyasi məhbus", digər hallarda isə "müharibə əsiri" kimi təqdim olunur. Bu isə onu göstərir ki, Belçika və Niderlandın deputatlarında siyasi savadsızlıq var".

***

Cari mövzularla bağlı çıxışlar bitdikdən sonra gündəmdə duran məsələlərin müzakirəsinə keçid edildi. İlk olaraq, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov palatanın 2025-ci ildə fəaliyyəti barədə məruzə etdi. O bildirdi ki, qanunçuluq, obyektivlik, şəffaflıq, peşəkarlıq və qanunvericilikdə təsbit edilmiş digər prinsiplərə əsaslanaraq, hesabat ilində həyata keçirilən bütün fəaliyyətlərin hesabatda əhatəli əks olunmasına çalışılıb: "2025-ci ildə audit və analitik fəaliyyət formasında 48 nəzarət tədbirinin keçirilməsi ilə bağlı qərar qəbul olunub, bunlardan birinin nəticələrinin rəsmiləşdirilməsi növbəti ilə keçirilib. Auditlərin əhatə dairəsinin əsas hissəsini icmal büdcənin müxtəlif elementləri təşkil edib. Müxtəlif illər üzrə dövlət büdcəsinin 6,7 milyard manatı, 2023-cü il üzrə Dövlət Neft Fondunun, 2023-2024-cü illər üzrə İcbari Tibbi Sığorta Fondunun büdcələri tam şəkildə, 2023-2025-ci illər üzrə Naxçıvan Muxtar Respublikasının büdcəsinin 101,3 milyon manatı, eləcə də qeyri-büdcə vəsaitlərindən 130,1 milyon manat dövlət auditi ilə əhatə edilib. Ötən ilin İş Planı üzrə 32 auditdə dövlət satınalmalarını tənzimləyən hüquqi aktların tələblərinin pozulması hallarına rast gəlinib".

Palata sədri bildirdi ki, büdcə qanunvericiliyi üzrə nöqsanlar yenə də ən yüksək paya malikdir. Onun sözlərinə görə, 2025-ci ilin İş Planı çərçivəsində kənar dövlət maliyyə nəzarəti (KDMN) tədbirləri ilə ümumilikdə 1,554 milyon manat məbləğində nöqsan aşkarlanıb. Sədr qeyd etdi ki, bu məbləğin 37,6 faizi və ya 584,8 milyon manatı uyğunsuzluq məbləğidir və qeyd olunan məbləğin 170,4 milyon manatını büdcəyə hesablanmış zərər təşkil edib: "Bunun 101,5 milyon manatı bərpa edilib, 40,2 milyon manatı üzrə materiallar prokurorluğa göndərilib, 28,7 milyon manatlıq sosial ödənişlər isə dayandırılıb. Ümumi nöqsanların 40,3 faizi (626,3 milyon manat) maliyyə təhrifləridir. Bunun 481,3 milyon manatı hesabatlarda məlumatların əks olunmaması, 145 milyon manatı isə digər təhriflərlə bağlıdır. Təhriflərin əsas səbəbi gəlir və xərclərin düzgün və vaxtında tanınmamasıdır. Nöqsanların 22,1 faizi (342,9 milyon manat) səmərəsiz xərclərdir və əsasən aktivlərin istifadəsiz qalması, qənaət imkanlarından yararlanmamaq və zəruri olmayan satınalmalarla əlaqəlidir".

Palata sədrinin çıxışından sonra deputat Razi Nurullayev büdcə zərərinə görə konkret məsuliyyətin açıqlanmamasını tənqid etdi: "Narahatedici məqam odur ki, 170,4 milyon manat birbaşa büdcəyə zərərdir və konkret məsuliyyət doğuran haldır. Bu rəqəmlərə görə cavabı kim verəcək? Hesabatlarda rəqəmlər var, amma konkret məsul şəxslərin adları və real hüquqi nəticələr cəmiyyətə açıq şəkildə təqdim olunmur. Mən bunu çox gözəl başa düşürəm və bilirəm ki, Bakı da bir günə tikilməyib. Zamanla hər şey düzələcək".

Edilən digər çıxışlardan sonra Milli Məclis Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabatını qəbul etdi.

***

Daha sonra digər qanun layihələri müzakirə edildi. Cinayət Məcəlləsinə təklif edilən dəyişikliklərə əsasən, dövlət büdcəsinə aid vəsaitlərdən təyinatı üzrə istifadə edilməməsinə görə cərimələrin tutulması qaydasının dəyişməsi son oxunuşda təsdiqləndi. Dəyişikliklə cərimə sabit məbləğ (9–13 min manat) əvəzinə, pozuntunun məbləğinin 100 faizi həcmində müəyyən ediləcək və əhatə dairəsi dövlətə məxsus hüquqi şəxslərin vəsaitlərini də daxil edəcək. Həmçinin külli miqdarda hallar üçün 3 ilədək azadlığın məhdudlaşdırılması cəzası əlavə olunur. İlk dəfə törədən şəxs ziyanı tam ödəyərsə, məsuliyyətdən azad ediləcək.

Cinayət və Cinayət-Prosessual məcəllələrə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara edilən dəyişikliklərə əsasən, şəxsin razılığı olmadan onun səsi və ya görüntüsü əsasında reallığı əks etdirməyən foto, video və audio materialların hazırlanması və yayılması 3 000–7 000 manat cərimə, 360–480 saat ictimai işlər, 3 ilədək azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq. Eyni əməllər ağırlaşdırıcı hallarda (qrup şəklində törədildikdə, bir neçə şəxsə qarşı olduqda, nüfuzdan salmaq məqsədi daşıdıqda və s.) 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə ilə cəzası gözləyir. Pornoqrafik və ya seksual məzmunlu materiallar üzrə isə cəza 3 ildən 7 ilədək azadlıqdan məhrumetmədir. Bundan əlavə, süni intellektlə hazırlanmış materiallar kütləvi yayıldıqda onların bu texnologiya ilə hazırlandığını göstərən aydın və görünən nişanlanma tələb olunur. Aparılan müzakirələrdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Gündəlikdə olan digər qanun layihələrinə təklif edilən dəyişikliklər də müvafiq oxunuşlardan sonra səsverməyə çıxarılaraq qəbul edildi. Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# "Azyaşlıları qoruma", yoxsa gizli nəzarət?

## *Onlayn yaş yoxlama təşəbbüsü anonimliklə bağlı narahatlıq yaradır*

**Rəqəmsal dünyanın ən çox müzakirə olunan mövzularından biri yenidən gündəmdədir. Uşaqları qorumaq üçün internetdə sərhəd çəkmək doğrudurmu, yoxsa biz bununla onların azadlığını əlindən alırıq? Avropada irəli sürülən onlayn yaş yoxlama mexanizmi məhz bu dilemmanın mərkəzində dayanır. Bildirilir ki, yeni mexanizmin əsas məqsədi uşaqlar pornoqrafiya, qumar, asılılıq yaradan platformalar və zərərli məzmundan qorumaqdır. Amma texnologiyanın dili ilə ifadə olunan hər qoruma cəhdinin necə işləyəcəyi, kimə nə qədər güc verəcəyi və hansı qapıları açacağı da eyni dərəcədə vacibdir.**

Yaş yoxlama sistemi zahirən sadə görünsə də, mahiyyət etibarilə çox həssas informasiya axınını idarə edən bir mexanizmdir. İstifadəçinin yaşını təsdiqləmək üçün sistem hansı məlumatı toplayacaq? Bu məlumat harada saxlanacaq? Kimlər ona çıxış əldə edəcək? İstifadəçi bütöv rəqəmsal infrastruktura bağlanacaqsa, həmin infrastrukturun nəzarət imkanları da genişlənəcək. Məhz buna görə məxfilik məsələsinə də diqqət yetirmək vacibdir. Çünki çoxları bu təşəbbüsü potensial izləmə mexanizmi kimi görür. Yeni mexanizmin müdafiəçiləri deyirlər ki, uşaqların zərərli məzmuna çıxışı məhdudlaşdırılmalıdır. Bu arqumentin ictimai dəstəyi də böyük-



dür, çünki heç bir cəmiyyət öz yeniyetməsinin asılılıq yaradan məzmun dalğasında itib–getməsini istəmir. Amma metodun keyfiyyəti prosesdə bir "əmma" yaradır. Əgər hər yoxlanış üçün şəxsiyyət təsdiqi, rəqəmsal iz və ya dövlətlə bağlı identifikasiya mexanizmi tələb olunursa, təhlükəsizliklə nəzarət arasındakı sərhəd incəlir. Uşağı qorumaq üçün qurulan sistem böyüyün davranışını izləyən alətə çevrilə bilər. Nə də olsa rəqəmsal mühitdə faydalı hesab olunan bir çox sistemin sonradan necə funksional nəzarət mexanizminə çevrildiyi hallar kifayət qədərdir.

Prosesə qarşı arqument gətirənlər məxfiliklə yanaşı informasiya azadlığını da ön plana çıxarırlar. Onların fikrincə, yaş məhdudiyyəti adı altında elə bir sistem qurula bilər ki, gənclər ümumiyyətlə məlumat mühitinə girişdə çətinlik yaşasınlar. Əslində, insanların narahatlığı başa düşüləndir, çünki uşaqları qorumaqla onları cəhalətə məhkum etmək eyni anlayış deyil. İnformasiya məkanı sərtləşdikcə, təhsil, maarif və sərbəst araşdırma imkanları da daralır. Daha dəqiq desək, təhlükəsizlik ilə intellektual azadlıq xətti bir-birinə toxunur. Texnologiyanın özünə gəldikdə isə, təqdim olunan həllin əsas iddiası budur ki, istifadəçinin kimliyi tam açılmadan yalnız yaş kateqoriyası təsdiqlənəcək. Yəni sistem "bəli" və ya "xeyr" cavabını ötürəcək, amma digər məlumatları paylaşmayacaq. Doğrudur, ilk baxışda cəlbedici görünür, məxfilik baxımından da məntiqli səslənir. Düşünülür ki, nə qədər az məlumat toplanırsa, risk də bir o qədər az olur. Bəs, sistem həqiqətən bu qədər məxfi və təhlükəsizdirsə, niyə ekspertlər onun hələ yetişməmiş olduğunu deyirlər?

Əgər məlumat saxlanmırsa, onun sonradan sızdırılması və ya üçüncü tərəflərlə paylaşılmasının qarşısının necə alınacağı bəlli deyil. Rəqəmsal mədəniyyətdə ən çox yanıldan məqam elə odur ki, yaxşı dizayn edilmiş texnologiya avtomatik olaraq yaxşı idarəçilik anlamına gəlmir. Məlumatın necə qorunduğu qədər, hansı əsasla tələb edildiyi də önəmlidir. Qoruma mexanizmi legitim olsa da, onun tətbiq sahəsi həddindən artıq genişdirsə, legitimlik hissi də zəifləyir.

Ümumən təşəbbüsün arxasında həm də güclü bir simvolizm dayanır. Uşaqları qorumaq həmişə siyasi cəhətdən təsirli arqument olub. Çünki uşaq adı çəkilən kimi vicdanımız dərhal hərəkətə keçir. Heç kim azyaşlıların zərər görməsinə göz yummur. Elə siyasətdə ən riskli məqamlardan biri də məhz budur ki, emosional cəbhə nə qədər güclüdürsə, tənqidi düşüncə bir o qədər zəif formalaşır. Deməli, yaş senzinin doğurduğu rəğbət də məhz platformalara yönəlmiş uzunmüddətli etimadsızlığın məhsuludur. Amma platformaların məsuliyyətini artırmaqla istifadəçilərin hüquqlarını azaltmaq eyni məsələ deyil. Texnoloji şirkətlər üzərində nəzarət gücləndirilə, alqoritmlərin şəffaflığı tələb oluna, uşaq üçün zərərli dizayn elementləri tənzimlənə bilər. Yaş yoxlanışı isə başqa cür işləyir, platformanın dizaynını dəyişməkdən çox, istifadəçinin şəxsiyyətini sistemin önünə çıxarır. Həmin keçid vacibdir. Çünki problemi məzmunun istehsalçısında axtarmaqla onu məzmunun istehlakçısının kimliyinə bağlamaq fərqli fəlsəfələrdir. Bu sahədə mübahisəli tərəflərdən biri də ondan ibarətdir ki, onlar çox vaxt "məcburi deyil, amma ən yaxşı seçimdir" tipli yanaşma ilə çıxış edirlər. Təklif texniki müstəvidə yumşaq görünsə də, praktikada platformaları təzyiq altında saxlayır. Məqsəd həqiqətən qorumaqdırsa, yol şəffaflıqdan, minimallaşdırılmış məlumat toplanmasından, hüquqi təminatdan və ictimai nəzarətdən keçməlidir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Avropa İttifaqının (Aİ) sosial şəbəkələrdə yaş senzinin tətbiqi ilə bağlı təşəbbüsü rəqəmsal mühitdə uşaqların təhlükəsizliyinin təmin olunması məqsədini daşıyır. Bu müstəvidə problemlərin çeşidi kifayət qədər çoxdur. Akademik mərkəzlər elan edirlər ki, sosial şəbəkələrdə uzunmüddətli aktivlik uşaqlarda psixoloji gərginlik, asılılıq, diqqət dağınıqlığı və davranış problemlərinin artmasına səbəb olur. Aİ sosial şəbəkələrdə yaşın təsdiqlənməsi mexanizminin tətbiqinə hazırlaşır. Yeni yanaşmaya əsasən, platformalar istifadəçilərin yaşını daha dəqiq müəyyən etməli və yetkinlik yaşına çatmayanların uyğun olmayan xidmətlərə çıxışını məhdudlaşdırmalıdır. Proses "Digital Services Act" çərçivəsində platformaların məsuliyyətinin artırılması ilə paralel aparılır.

Yeri gəlmişkən, qeyd edim ki, Aİ-nin hazırladığı standartaların özü də tənqidə məruz qalır. Bu strategiyada məxfilik risklərinin olduğu önə çəkilir. Qeyd olunur ki, sosial şəbəkə adminləri yaş senzini tətbiq etmək üçün istifadəçinin fərdi məlumatlarını toplayırlar. Bu məlumatların toplandıqdan sonra üçüncü tərəflərin əlinə keçmək riski ortaya çıxır. Yəni Aİ-nin strategiyası bir tərəfdən azyaşlıları sosial şəbəkələrdəki manipulyativ məzmun riskindən qoruyursa, digər tərəfdən də istifadəçilərin şəxsi məlumatlarının məxfiliyinin qorunması riski formalaşır.

Paralel olaraq, strategiyanı ifadə azadlığı kontekstində tənqid edənlər də var. Bu kateqoriyadan olan tənqidçilər iddia edirlər ki, Avropa İttifaqı sosial şəbəkələri "tam azad mühit" modelindən çıxarıb "nəzarət halında olan mühit" kateqoriyasına keçirir. Bütün bu müzakirələrə baxmayaraq, ümumi yanaşma ondan ibarətdir ki, uşaqların rəqəmsal mühitdə qorunması üçün platformaların məsuliyyəti artırılmalıdır.

Məlumat üçün qeyd edək ki, sosial şəbəkələrin azyaşlılara neqativ təsirləri mövzusu Azərbaycanda da kifayət qədər aktualdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2026-cı ilin fevral ayında "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Nazirlər Kabineti aidiyyəti dövlət orqanlarını, elmi müəssisələri, mütəxəssisləri və vətəndaş cəmiyyəti institutlarını cəlb etməklə beynəlxalq təcrübəni araşdırmalı, ölkə ərazisində uşaqların sosial şəbəkələrdəki zərərli təsirlərdən qorunmasını, sosial şəbəkələrdə qeydiyyat zamanı yaş məhdudiyyətinin tətbiqini əhatə edən normativ, hüquqi aktların layihələrini hazırlamalıdır.

# Paşinyan işğal xülyasının əsassızlığını anlatmağa çalışır

## *Baş nazir qarşıdakı seçkiləri ölkəsi üçün iflasdan xilas imkanı adlandırdı*

**Ermənistan Baş naziri Nikol Paşinyan rəhbərlik etdiyi "Mülki müqavilə" partiyasının seçkiqabağı proqramının açıqlanmasını davam etdirir. O, dünən səhər yenə "Facebook" sosial şəbəkəsindəki səhifəsində canlı yayım açaraq 1 saat 40 dəqiqəlik videomüraciətində hakim partiyanın seçki proqramının digər hissəsini xalqının diqqətinə çatdırıb.**

Paşinyanın dünənki çıxışında ölkəmizlə birbaşa əlaqəli məqamlar var. Onlardan ən başlıcası Ermənistanın yeni Konstitusiyasının qəbulu və yeni əsas qanunda Müstəqillik Bəyannaməsinə istinadın aradan qaldırılması ilə bağlı səsləndirdiyi fikirlərdir. Yada salaq ki, Ermənistanın Müstəqillik Bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları yer alır. Konstitusiyanın preambulasında istinad edilən Müstəqillik Bəyannaməsində Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsinin zəruriliyi ilə bağlı bənd var. Ölkəmiz buna etiraz edir, Ermənistanla paraflanmış sülh sazişinə yekun imzaların atılması və onun ratifikasiyası üçün Konstitusiyada dəyişiklik edilməsinin zəruri olduğu fikrini irəli sürür.

*

Beləliklə, Paşinyan əvvəlcə Ermənistanda yeni Konstitusiyanın qəbul edilməsinin nə üçün vacib olduğunu izah edib. O, "Yeni Konstitusiyanın qəbulu bizim üçün niyə vacibdir" sualını qoyaraq bunun səbəbini belə izah edib: "Çünki ölkəmizdə dövlətlə vətəndaş arasındakı münasibətlərdə müəyyən bir gərginlik davam edir. Bu gərginliyin səbəblərindən biri də odur ki, Ermənistan Respublikasının vətəndaşları arasında ölkədə mövcud olan hüquqi sistemin məhz onların iradəsi ilə formalaşdığı barədə heç bir təsəvvürü yoxdur. Nəinki belə bir təsəvvür yoxdur, əslində, belə bir reallıq da mövcud deyil. Çünki Ermənistanda keçirilmiş bütün konstitusiya referendumlarının nəticələri daim şübhə altına alınıb. Mən özüm də jurnalist kimi vaxtilə konstitusiya referendumlarını işıqlandırmışam və siyasi proseslər zamanı bütün bu referendumların şahidi olmuşuq. Həmişə belə bir təsəvvür formalaşıb ki, konstitusiya referendumlarının nəticələri saxtalaşdırılıb. Bu da vətəndaşla hüquqi sistem arasında gərginlik yaradır və qopmaya səbəb olur. Bizim üçün vətəndaşla hüquqi sistem arasında üzvi əlaqənin olması son dərəcə vacibdir. Bu üzvi əlaqənin qurulması isə Konstitusiyanın referendum yolu ilə qəbul edilməsindən keçir".

Paşinyan daha sonra yeni Konstitusiyanın preambulasında Müstəqillik Bəyannaməsinə istinad edilməməli olduğu mövqeyini bir daha təsdiqləyib. Deyib ki, yeni Konstitusiyanın mətnində Müstəqillik Bəyannaməsinə istinadın yer alması məqsədəuyğun deyil və o, bu mövqeyini dəfələrlə açıq şəkildə ifadə edib. Onun sözlərinə görə, belə istinadın daxil edilməsi faktiki olaraq Qarabağ hərəkatının davam etdirilməsi anlamına gələrdi: "Əgər biz bu gün yeni Konstitusiya qəbul etsək və onun preambulasında Müstəqillik Bəyannaməsinə istinad olsa, bu o deməkdir ki, biz Qarabağ hərəkatını davam etdiririk. Qarabağ hərəkatını davam etdiririksə, bu, Azərbaycanla münaqişəni yenidən başlatmaq deməkdir. Münaqişəni yenidən başlatmaq isə sülhün mümkünsüz olması deməkdir. Əgər biz Müstəqillik Bəyannaməsinə istinad ediriksə, bu o deməkdir ki, biz "Qərbi Ermənistan" ritorikasını qəbul edirik, dolayısı ilə "dənizdən dənizə Ermənistan" ideyasını da



qəbul etmiş oluruq. Burada incə məqam ondan ibarətdir ki, əgər biz bu ritorikanı qəbul ediriksə, faktiki olaraq, Qərbi Azərbaycan və Şərqi Türkiyə kimi ritorikaların dayandırılmasını da mümkünsüz edirik".

Paşinyan Ermənistanın daxili siyasi həyatında səslənən fikirlərə də toxunub ki, guya Konstitusiyanın preambulasından Müstəqillik Bəyannaməsinə istinadın çıxarılması Azərbaycan və Türkiyənin tələbidir: "İndi Ermənistanın daxili siyasi həyatında tez-tez deyirlər ki, bu, Azərbaycan və Türkiyənin tələbidir. Mən isə deyirəm ki, gəlin özümüzə sual verək, əziz Ermənistan vətəndaşları, biz bunu istəyirik, ya yox? Mən açıq şəkildə bildirmişəm ki, biz Qarabağ hərəkatını davam etdirməməliyik, onu dayandırmalıyıq. Yəni bu gün Ermənistanda Qarabağ hərəkatı ən azı rəsmi və ictimai səviyyədə dayandırılıb".

Baş nazir qeyd edib ki, bu yanaşma gün keçdikcə daha əsaslı görünür. Onun sözlərinə görə, seçkilərdə müharibə tərəfdarı olan üçbaşlı ittifaqın uğur qazanması Qarabağ hərəkatının davamı və bunun doğuracağı bütün nəticələr demək olacaq. Paşinyan vurğulayıb ki, "Mülki müqavilə" Müstəqillik Bəyannaməsinin ritorikasından imtinanın zəruriliyini açıq şəkildə ifadə edən yeganə siyasi qüvvədir: "Üstəlik, biz açıq deyirik ki, əgər bunu gizli şəkildə, görüntü xatirinə etsək, bu işləməyəcək. Biz səmimi və aydın şəkildə "Real Ermənistan" ideologiyasına fokuslanmalıyıq".

Paşinyan onu da bildirib ki, qarşıdan gələn seçkilərin nəticəsində Ermənistanda tarixi-siyasi dönüş baş verə bilər. Onun sözlərinə görə, vətəndaşlarla ünsiyyətdə "Real Ermənistan" ideyasının cəmiyyət tərəfindən qəbul edildiyini hiss edir: "Əgər "Real Ermənistan" ideologiyası xalq tərəfindən qəbul edilməsəydi, mən bu gün Baş nazir olmazdım. Səhv etmirəmsə, 2024-cü ildə demişəm ki, mən Ermənistanın Baş naziri olaraq Qarabağ hərəkatını davam etdirməmək qərarı verirəm. Əgər xalq bu qərarla razı deyilsə, onları küçəyə çıxmağa, inqilab etməyə və məni vəzifədən uzaqlaşdırmağa çağırıram. İyunun 7-də keçiriləcək seçkilərdə də vətəndaşların bu imkanı var. Eyni zamanda vətəndaşlar tarixi-siyasi dönüş etmək, dövlətin suveren maraqlarına fokuslanmaq, təhlükəsizlik, rifah və sülh naminə qərar vermək imkanına malikdirlər. Bu, tarixi seçimdir. Çünki son əsrlərdə ilk dəfədir ki, biz öz maraqlarımızı başqalarına həvalə etmədən, öz problemlərimizlə üz-üzə qalaraq, regionda razılaşmalar əldə etmək imkanı qazanmışıq".

Paşinyanın səsləndirdiyi tezislər Ermənistanın son illərdə üzləşdiyi dilemmanın mahiyyətini açıq şəkildə ortaya qoyur. Daha diqqətçəkən məqam isə Müstəqillik Bəyannaməsinə istinad məsələsi ilə bağlı yanaşmadır. Nikol bu məsələni emosional deyil, praqmatik müstəvidə izah edir. O açıq şəkildə bildirir ki, belə istinad Qarabağ hərəkatının davamı kimi şərh oluna bilər və bu da Ermənistanı yenidən qarşıdurmaya qaytarar. Bu, əslində, regionda yaranmış yeni reallıqları qəbul etməyə çağırışdır. Paşinyan anlayır ki, köhnə ideoloji şüarlar üzərində qurulan siyasət Ermənistanı yalnız təcridə və yeni risklərə sürükləyir. Onun "Real Ermənistan" konsepsiyası da məhz bu reallıqdan doğur. Bu yanaşma genişlənmə və tarixi iddialar üzərində deyil, beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində dövlət quruculuğuna, təhlükəsizliyə və rifaha fokuslanmağı nəzərdə tutur. Bu isə regionda davamlı sülh üçün yeganə rasional alternativ kimi görünür.

Paşinyanın mövqeyinə qarşı çıxan qüvvələrin arqumentləri isə daha çox keçmişin stereotiplərinə söykənir. Onların təklif etdiyi kurs faktiki olaraq, Ermənistanı yenidən qarşıdurma mühitinə qaytarmaq, ölkəni geosiyasi risklərin episentrinə sürükləmək deməkdir. "Qarabağ hərəkatının davamı" kimi təqdim olunan xətt real siyasətdə yeni gərginlik, iqtisadi tənəzzül və beynəlxalq təcrid vəd edir. Bu baxımdan, həmin yanaşmalar təkcə alternativ fikir deyil, həm də ölkənin gələcəyini risk altına atan istiqamət kimi qiymətləndirilə bilər.

Nəticə etibarilə, Paşinyanın irəli sürdüyü konsepsiya Ermənistan üçün zəruri keçid planı kimi qiymətləndirilə bilər. Bu planın uğuru cəmiyyətin reallığı nə dərəcədə qəbul etməsindən asılı olacaq. Əks halda, emosional və revanşist yanaşmaların üstünlük qazanması Ermənistanı yenidən dalana dirəyə və regionda sabitlik perspektivlərini ciddi şəkildə zədələyə bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Bakıda yaranmış 1 əsrlik dil və kimlik strategiyası

## Antalya Forumu: Bakı Türkoloji Qurultayından Türk inteqrasiyasına



**Müasir beynəlxalq münasibətlər sistemində regional təşkilatlar geosiyasi identikliyin formalaşdırılması və kollektiv strateji davranışın institusionallaşdırılması vasitəsinə çevrilir. Bu kontekstdə Türk Dövlətləri Təşkilatı (TDT) postsovet məkanında və Avrasiya geosiyasətində nadir inteqrasiya modelini təmsil edir. Birliyin təşəkkülündə və transformasiyasında Azərbaycanın oynadığı rol isə normativ və strateji liderlik səviyyəsinə yüksəlib.**

Türk Dövlətləri Təşkilatının təməlinin Naxçıvanda qoyulması dərin geosiyasi və ideya-strateji məzmun daşıyır. Naxçıvan Bəyannaməsi, əslində, postsovet məkanında yeni bir inteqrasiya modelinin ilkin konturlarını müəyyənləşdirdi. Həmin model klassik regional təşkilatlardan fərqli olaraq yalnız iqtisadi və ya təhlükəsizlik maraqları üzərində deyil, ortaq tarixi-mədəni identikliklə siyasi praqmatizmin sintezində qurulmuşdur. Məhz bu sintez TDT-ni digər regional formatlardan fərqləndirən əsas xüsusiyyət kimi çıxış edir.

Azərbaycanın bu prosesdəki rolu normativ çərçivəni formalaşdıran və istiqamət verən aktor kimi xarakterizə olunmalıdır. Coğrafi mövqe – Şərq ilə Qərb arasında körpü funksiyası – Bakıya obyektiv üstünlük versə də, bu üstünlüyün real siyasi kapitala çevrilməsi yalnız məqsədyönlü strategiya nəticəsində mümkün olub. Azərbaycan bu potensialı düzgün qiymətləndirərək onu inteqrasiya təşəbbüsləri ilə uzlaşdırdı və nəticədə Naxçıvanda qoyulan təməl tədricən funksional əməkdaşlıq platformasına transformasiya olundu.

Sonrakı mərhələdə Bakının əsas uğuru təşkilatı deklarativ əməkdaşlıq çərçivəsindən çıxararaq praktik mexanizmlərlə zənginləşdirməsi oldu. Mövcud transformasiya üç paralel istiqamətdə həyata keçirildi. Birincisi, siyasi koordinasiya dərinləşdirildi. Dövlət başçıları səviyyəsində müntəzəm dialoq, ortaq mövqelərin formalaşdırılması və beynəlxalq məsələlərdə qarşılıqlı dəstəyin artması TDT-ni siyasi baxımdan daha hərtərəfli struktura çevirdi. İkincisi, iqtisadi qarşılıqlı asılılığın artırılması strateji prioritet kimi önə çəkildi. Burada məqsəd struktur xarakterli bağlılıqların yaradılması idi. Nəqliyyat dəhlizləri, enerji layihələri və investisiya mexanizmləri vasitəsilə üzv dövlətlər arasında qarşılıqlı maraqlar sistemi formalaşdırıldı. Üçüncüsü, mədəni yaxınlaşmanın institusionallaşdırılması prosesi xüsusi diqqət çəkir. Əgər ilkin mərhələdə ortaq identiklik daha çox simvolik səviyyədə təqdim olunurdusa, sonrakı dövrdə bu identiklik konkret institutlar və proqramlar vasitəsilə möhkəmləndirilməyə başlandı. Təhsil, elm və humanitar əməkdaşlıq sahələrində yaradılan mexanizmlər uzunmüddətli perspektivdə inteqrasiyanın sosial bazasını formalaşdırır.

Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər məhz bu üç istiqamətin sinxron inkişafını təmin etməklə fərqlənir. Onun yanaşması siyasi dialoq iqtisadi layihələrlə, iqtisadi əməkdaşlıq isə mədəni-humanitar əlaqələrlə tamamlanır. Azərbaycan liderliyinin əsas fərqləndirici cəhəti onun ideoloji diskursu praktik siyasət alətləri ilə uzlaşdırmaq qabiliyyətində üzə çıxır. Beynəlxalq münasibətlərdə tez-tez müşahidə olunan problem – normativ ritorikanın real siyasətdən qopması – Bakı nümunəsində nisbətən aradan qaldırılmış görünür.

Azərbaycanın TDT çərçivəsində artan fəallığını institusional diplomatiyanın məqsədyönlü tətbiqində də görürük. Başqa sözlə, Bakı təşkilat daxilində təşəbbüslərini konkret mexanizmlər və qərarlarla praktik nəticələrə çevirən idarəedici mərkəz funksiyasını da üzərinə götürür. Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşü bu baxımdan çoxqatlı siyasi mesaj daşıyırdı. Postmünaqişə reallığında Şuşanın seçilməsi Azərbaycanın regional gündəliyi formalaşdırmaq gücünə malik aktor kimi çıxış etdiyini nümayiş etdirdi. Şuşa görüşündə əsas xətt təşkilatın daha fəal və çevik platformaya çevrilməsi idi.

Qəbələ Zirvə Görüşü bu strateji niyyətin institusional formaya salınması mərhələsi kimi qiymətləndirilə bilər. Qəbələ sammiti konkret prioritetlərin sistemləşdirilməsi ilə fərqləndi. Təhlükəsizlik sahəsində koordinasiyanın gücləndirilməsi, nəqliyyat-logistika şəbəkələrinin genişləndirilməsi və iqtisadi inteqrasiyanın dərinləşdirilməsi kimi istiqamətlərin önə çəkilməsi TDT-nin fəaliyyətinin daha strukturlaşdırılmış və nəticəyönümlü mərhələyə keçdiyini göstərir.

Hazırkı mərhələdə Azərbaycanın qarşısında duran əsas vəzifə TDT-ni normativ-bəyannamə xarakterli əməkdaşlıq formatından funksional və qarşılıqlı asılılığa əsaslanan sistemə transformasiya etməkdir. Son illər müşahidə olunan dinamika göstərir ki, bu istiqamətdə müəyyən irəliləyiş artıq reallığa çevrilməkdədir. Əməkdaşlığın onlarla sahəni əhatə etməsi çoxsəviyyəli inteqrasiya modelinin formalaşması kimi qiymətləndirilməlidir. Məhz bu kontekstdə nəqliyyat və logistika sahəsi xüsusi önəm qazanır. Tarixi təcrübə göstərir ki, istənilən regional inteqrasiya modeli, ilk növbədə, fiziki bağlantılar üzərində qurulur. Bağlantıların mövcudluğu isə siyasi münasibətləri daha sabit və proqnozlaşdırılan edir. TDT məkanında bu funksiyanı yerinə yetirən əsas layihə Orta Dəhlizdir.

Daha vacib məqam ondan ibarətdir ki, Orta Dəhliz iqtisadi funksiyasını aşaraq geosiyasi alətə çevrilmək potensialına malikdir. Nəqliyyat axınlarına nəzarət, logistika infrastrukturlarının koordinasiyası və tranzit qaydalarının harmonizasiyası TDT ölkələrinə kollektiv təsir imkanları yaradır. Eyni zamanda, bu proses qarşılıqlı asılılığın dərinləşməsini sürətləndirir. İnfrastruktur layihələri uzunmüddətli investisiyalar və davamlı koordinasiya tələb etdiyindən üzv dövlətlər arasında əlaqələr daha struktur xarakter alır.

İnteqrasiyanın real dərinliyi aydın şəkildə məhz iqtisadi indikatorlarda özünü göstərir. Ticarət dövriyyəsinin artımı və investisiya axınlarının intensivləşməsi struktur dəyişikliklərin göstəricisidir.

Azərbaycanın bu prosesdə oynadığı rol xüsusi diqqət tələb edir. Bakı kapital ixrac edən və regional iqtisadi dinamikanı stimullaşdıran mərkəzə çevrilməkdədir. Üzv dövlətlərə yönəldilən irihəcmli sərmayələr iqtisadi təsir alətlərinin genişləndirilməsi ilə yanaşı, qarşılıqlı maraqlar sistemini də gücləndirir. İqtisadi dinamikanın paralelində inteqrasiyanın ideya və diplomatik müstəvidə möhkəmləndirilməsi də diqqətdən kənarda qalmır. Antalya Diplomatik Forumunun son panel iclasının "Bir əsrlik dil və kimlik: Bakı Türkoloji Qurultayından Türk inteqrasiyasına" mövzusunda keçirilməsi, məhz türk dünyasının inteqrasiyasına həsr olunması bu baxımdan strateji addım kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin bu istiqamətdə ardıcıl mövqeyi, qəbul olunmuş strateji sənədlər və dəyişən beynəlxalq mühitdə regional blokların rolunun artması bu qərarın əsasını təşkil edir.

Son olaraq qeyd edək ki, müşahidə olunan tendensiyalar göstərir ki, TDT artıq çoxşaxəli strateji əməkdaşlıq sisteminə çevrilir və bu transformasiyanın hərəkətverici qüvvəsi kimi Azərbaycan çıxış edir. Qarşıdakı mərhələdə əsas çağırış inteqrasiyanı dərinləşdirməklə yanaşı, onu institusional baxımdan möhkəmləndirmək, yəni qaydalar, mexanizmlər və ortaq maraqlar üzərində dayanan sabit sistemə çevirmək olacaq. Məhz bu halda TDT uzunmüddətli perspektivdə daha geniş miqyasda təsir gücünə malik aktora çevrilə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Maskalı humanistlər

*(əvvəli 1-ci səhifədə)*

Münaqişə dövrünü xatırlayanda qanımızı qaraldan səhifələrindən biri də Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) bölgədə göstərdiyi tərəfli və təxribatçı fəaliyyəti ilə bağlıdır. Bu barədə dəfələrlə yazsaq da, fəqət uzun illər fəaliyyətini müşahidə etdiyimiz və sonradan əsl mahiyyətini tam anladığımız beynəlxalq təşkilat, daha doğrusu, beynəlxalq oyunçu BQXK-nın suallarla yanaşı, narahatlıq doğuran əməlləri hələ axıra kimi açılmayıb. Deməli, onun əməllərinin heç də hamısı lazımi qiymətini almayıb, ifşa olunmayıb.




Oxucuların yadına salaq ki, hələ Birinci Qarabağ müharibəsi illərində, torpaqlarımız erməni işğalı altında olanda rəsmi Bakı dəfələrlə BQXK-nin mərkəzi ofisinə müraciətlər ünvanlayaraq, bu beynəlxalq təşkilatın xidməti funksiyası ilə üst-üstə düşməyən əməllərinə kəskin etirazını bildirib. Söhbət qurumun separatçıların yuvası Xankəndidəki nümayəndəliyinin qeyri-qanuni fəaliyyətindən gedirdi. Amma Azərbaycanın səsini eşitməz oldular.

İlk baxışda elə görünə bilər ki, münaqişə zonasında beynəlxalq humanitar təşkilatın fəaliyyətində pis nə var ki? Problem ondan ibarət idi ki, Xankəndidəki ofis BQXK-nın Bakıdakı nümayəndəliyinin deyil, İrəvandakı qurumun tabeçiliyində çalışırdı. Azərbaycan hakimiyyətinin ölkəmizin ərazi bütövlüyü və suverenliyi prinsipi ilə aşkar daban-dabana zidd bu hüquqi naqisliyin aradan qaldırılması ilə bağlı ədalətli tələbi qulaqardına vuruldu. Həm də bunu saymazcasına etdilər. Bu məsələ 44 günlük müharibədən və Ermənistanla sərhəd xəttində nəzarət-buraxılış məntəqəsi qurulandan sonra daha kəskin şəkildə ortaya çıxdı.

2023-cü ilin mart ayında rəsmi Bakı BQXK-nın Cenevrədəki baş ofisinə göndərdiyi notada Xankəndidəki qurumun Azərbaycana tabeçiliyinin təmin olunmasını, eyni zamanda, bundan sonrakı hərəkət cədvəlinin ortaya qoyulmasını tələb etdi. Yalnız inadlı xatırlatmalardan və üstündən iki ay keçəndən sonra verilən cavabda həyasızcasına bunlar yazılmışdı: "Bir halda ki, Ermənistan və Azərbaycan arasında münaqişə hələ tam başa çatmayıb, BQXK iş apardığı rayonlara birbaşa nəzarəti həyata keçirənlərlə əməkdaşlıq hüququnu özündə saxlayır".

Bu halda ortaya belə bir məntiqi sual çıxırdı: maraqlıdır, özünü humanitar missiya mövqeyində təqdim edən beynəlxalq təşkilat Azərbaycanın qanuni ərazisində hansı işlərlə məşğul olur? Əlbəttə, bu, ritorik sual olardı. Çünki BQXK-nın bölgədə heç də humanitar və neytral olmayan, tamamilə ermənipərəst, hətta separatçı təmayüllü fəaliyyətlə məşğul olduğu Bakıya çoxdan məlum idi. Daha maraqlı sual isə bu idi: iki ölkə arasında münaqişənin başa çatıb-çatmadığını müəyyənləşdirmək haqqını bu beynəlxalq təşkilata kim vermişdi?

*

2010-cu il noyabrın 10-da Azərbaycan Prezidenti üçtərəfli Bəyanatı imzalayan zaman dəqiq və birmənalı şəkildə bəyan etdi ki, bu gün Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başa çatır. Bu faktı qulaqardına vuran BQXK-nın məlum cavab məktubunda o da qeyd olunurdu ki, 2025-ci ildə bölgədə yaranacaq yeni reallıq (Rusiya sülhməramlı kontingentin Qarabağı tərk edəcəyi müddət nəzərdə tutulurdu – red.) şəraitində Azərbaycan XİN-in müraciətinə yenidən baxıla bilər. Başqa sözlə desək, BQXK-nın baş ofisi nəinki Bakının tələbini yerinə yetirmədi, əksinə, Xankəndidəki separatçı-revanşist tör-töküntüsü ilə əməkdaşlığı davam etdirəcəyini bildirdi. Üstəlik, BQXK-nın cavabından bu məntiq hasil olurdu ki, onun yerlərdəki ofislərinin kimə və hansı əsaslarla tabeçiliyi məsələsi yalnız Cenevrədə həll oluna bilər. Bax belə, qırmızı-qırmızı bəyan etmişdilər.

Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə bağlı insidentin hansı formada həllini tapması siyasi gündəmi izləyənlərin yaxşı yadındadır. 2023-cü ilin sentyabrında rəsmi Bakı on illərlə təkcə Azərbaycanın siyasi atmosferini deyil, bütün regionun havasını zəhərləyən bu maskalı beynəlxalq humanitar missiya problemini birdəfəlik bağladı, həm də "Miatsum"un tabutuna sonuncu mismarı da vurmuş oldu. Amma bundan sonra da BQXK bölgədəki ikiüzlü siyasətini davam etdirmək barədə düşünürdü. Özünü tamamilə diskreditə etmiş bu beynəlxalq təşkilat bölgədə erməni əhalisinin qaldığını bəhanə gətirərək, onlara humanitar yardım göstərmək sevdasına düşmüşdü. Hətta erməni əhali könüllü şəkildə Qarabağı tərk edəndən sonra da BQXK fəaliyyətinə son qoymağa tələsmirdi. Bunu da onunla əsaslandırmağa çalışırdı ki, bölgədən kənarda erməni millətindən olan xeyli insan qalmaqdadır. BQXK-nın bu cür qeyri-müəyyən missiyadan ötrü Xankəndidə bahalı ofis saxlamaq istəyi, təbii olaraq, Bakıda müəyyən şübhələrin yaranmasına rəvac verirdi. Bu missiyanın Azərbaycanda həyata keçirdiyi işlərin humanitar yardımlardan çox irəli getdiyi də heç kəs üçün gizli deyildi. Humanitar fəaliyyət BQXK-dan ötrü, sadəcə, bir "şirma" idi. Ərazilərimiz işğalda olduğu dönəmdə Şuşa türməsində azərbaycanlı hərbi əsir və girovların saxlanıldığı barədə Bakının əlində təkzibolunmaq sübutlar vardı. Onların azad olunması ilə bağlı Azərbaycanın müvafiq dövlət qurumlarının çoxsaylı sorğularına BQXK cavbı hərəkətsizlik və susqunluq olurdu. Eləcə də itkin düşmüş soydaşlarımızın axtarılıb tapılması ilə bağlı təşkilat əlini ağdan qaraya vurmadı. Yəni qurum birbaşa missiyasına daxil olan bu məsələlərdə heç bir iş görmədi. Baxmayaraq ki, bunu etmək üçün hər cür imkana və resurslara malik idi. Sonralar həmin əsirlərin Şuşa həbsxanasında güllələndikləri, asıldıqları faktları üzə çıxdı. Ermənilərin əsir və girovlar üzərində vəhşilik, vandallıq hərəkətləri BQXK nümayəndələrinə yaxşı məlum idi.

*

Azərbaycan Laçında sərhəd-buraxılış məntəqəsini yaratdıqdan sonra situasiya daha mürəkkəb xarakter almağa başladı. Bu dəfə BQXK nümayəndələrinin qaçaqmalçılıqla məşğul olduqları aşkar edildi. Onlar hərəkət etdikləri xidməti "cip"lərdə tibb ləvazimatlarının əvəzinə mobil telefonlar, tütün məmulatları, eləcə də müxtəlif təyinatlı gündəlik tələbat malları daşıyırmışlar. Bu isə beynəlxalq humanitar təşkilatın yerli strukturunun funksiyasından daha çox 90-cı illərin əl bazarlarına mal daşıyan alverçilərin fəaliyyətini xatırladırdı. Bütün bunlar bir tərəfə, xalqımız 44 günlük müharibənin gedişində BQXK-nın xain və satqınlığını heç vaxt unutmayacaq. Yəqin çoxları bilmir ki, 2020-ci ilin oktyabrında ordumuzun Füzuli əməliyyatı zamanı BQXK-dan Azərbaycan hökumətinə təcili sorğu daxil olub. Həmin sorğuda təşkilat Bakıdan mühasirəyə düşmüş erməni hərbi birləşməsinə dərhal humanitar yardımın çatdırılmasına şəraitin yaradılması xahiş olunurdu. Guya mühasirədəkilərin hamısı yaralıdır və onların nə döyüşməyə, nə də arxadan ərzaq yardımı almağa imkanları var. Beynəlxalq konvensiyanın şərtlərinə əməl edən Bakı BQXK-nın bu müraciətinə müsbət cavab verir. Sonra məlum olacaq ki, təşkilatın mühasirədən çıxardığı erməni silahlıların arasında bir nəfər belə yaralı yoxdur. Həmin silahlılar qısa istirahətdən sonra dərhal döyüş zonalarına göndəriliblər. Bunun adı humanitar təşkilatın bir tərəfin xeyrinə hərbi əməliyyatların gedişinə müdaxiləsi deyil, bəs nədir? Niyə? Hansı məqsədlə? Bunlar Azərbaycan xalqının səbir və təmkinini tarıma çəkən suallardır.

2025-ci il sentyabrın 3-də Azərbaycan hökumətinin sərəncamı ilə BQXK-nın Bakıdakı ofisinin fəaliyyətinə xitam verildi. Bu, sadəcə, inzibati akt deyildi. Həmin qərar kənar diktəyə, ikili standartlara, eləcə də "maskalı humanitarların" üzlərinə vurulan tərs şillə oldu. İndi Azərbaycan özünün suveren ərazisində oyun qaydalarını özü müəyyən edir. Torpağını və vətəndaşını özü qoruyur, ədaləti də özü bərqərar edir. Və bunu qətiyyət və ləyaqətlə yerinə yetirir!

***İmran BƏDİRXANLI***
***XQ***

# Regional balans və Balkanlarda yeni dinamika

## *Avropa daxilində artan strateji narahatlıqlar*

**Bolqarıstanda keçirilən növbədənkənar parlament seçkiləri ölkədəki daxili siyasi böhranın kulminasiya nöqtəsi kimi yadda qaldı. Uzun müddət davam edən qeyri-sabitlik fonunda seçici davranışında kəskin dəyişiklik müşahidə olundu və həmin dəyişiklik hakimiyyətə yeni siyasi kursun gəlməsi ilə nəticələndi.**



"Mütərəqqi Bolqarıstan" xətti ilə seçkilərə qatılan Rumen Radevin qələbəsi həm ölkə daxilində, həm də Avropa məkanında geniş rezonans doğurdu. Ursula Fon der Lyayen və Antonio Koşta Radevi təbrik edərək, onunla əməkdaşlığa hazır olduqlarını bildirdilər. Bununla Brüsselin mövcud reallığı qəbul etməklə Sofiya ilə münasibətləri sabit saxlamaq niyyəti bir daha özünü büruzə verdi. Amma hər nə qədər rəsmi açıqlamalarda Bolqarıstanın Avropa ailəsindəki rolu vurğulansa da, siyasi pərdənin arxasında müəyyən narahatlıqların olduğu açıq hiss edilir. Seçkilərin nəticələri Avropa İttifaqında ehtiyatlı optimizmlə qarşılandı.

Son beş ildə səkkizinci dəfə seçkiyə gedən Bolqarıstan cəmiyyətində siyasi elitaya qarşı güclü inamsızlıq formalaşmışdı. Rumen Radev hələ kampaniya dövründə mövcud idarəetmə modelini sərt tənqid etmiş, oliqarxların təsiri altında olan sistemə qarşı çıxmaqla geniş seçici kütləsinin dəstəyini qazanmışdı. Bununla belə, əsas müzakirə mövzusu Radevin xarici siyasətlə bağlı baxışlarıdır. Ukrayna məsələsində onun mövqeyi Qərbin ümumi xətti ilə üst-üstə düşmür. Kiyevə hərbi yardımın əleyhinə çıxması və münaqişənin danışıqlar yolu ilə həllini önə çəkməsi Avropa daxilində fikir ayrılıqlarını daha da dərinləşdirir.

**ARAYIŞ:** *Rumen Radev keçmiş hərbi pilot və yüksək səviyyəli siyasi liderlərdən biridir. O, 1963-cü ildə Bolqarıstanda anadan olub. Hərbi təhsil alaraq döyüş pilotu kimi yetişib və uzun illər Hərbi Hava Qüvvələrində xidmət edib. Sonradan Hərbi Hava Qüvvələrinin komandanı vəzifəsinə qədər yüksəlib. 2016-cı ildə siyasətə daxil olaraq prezident seçilib. 2021-ci ildə yenidən prezident mandatı qazanıb. Radev ölkənin daxili siyasi böhran dövründə əsas fiqurlardan birinə çevrilib. Onun prezidentliyi dövründə Bolqarıstanın siyasi sistemi tez-tez hökumət dəyişiklikləri ilə müşahidə olunub. Xarici siyasətdə Radev daha çox balanslı və ehtiyatlı yanaşması ilə tanınır. Bu mövqeyinə görə bəzi siyasətçilər onu Rusiya ilə yumşaq münasibətə sahib lider kimi qiymətləndirirlər.*

Seçkilərin nəticələrini, sadəcə, sosial narazılıqlarla əlaqələndirmək düzgün olmaz. Çünki Avropa İttifaqına üzvlük ölkəyə müəyyən iqtisadi və institusional üstünlüklər qazandırsa da, inteqrasiya prosesinin yaratdığı gözləntilər tam şəkildə özünü doğrultmadıqda alternativ siyasi diskursların güclənməsi qaçılmaz olur. Radev məhz bu boşluqdan istifadə edərək daha milli və daha müstəqil siyasi xətt vəd edən ritorika ilə seçiciləri cəlb etməyi bacardı. Məhz bu səbəbdən, Brüsseldə seçkinin nəticələri daha çox geosiyasi prizmadan qiymətləndirilir. Avropa Xalq Partiyası, eləcə də sosialistlər və demokratlar daxilində səsləndirilən fikirlər seçkilərin Avropa üçün mümkün nəticələrinə fokuslanır. Məsələn, çexiyalı deputat Tomas Zdeçovski nəticələri ciddi geosiyasi dəyişiklik kimi xarakterizə edərək Bolqarıstandan göndərilən siqnalın narahatedici olduğunu vurğulayıb. Əslində bu yanaşma seçkilərin daha geniş strateji çərçivədə qiymətləndirildiyini göstərir. Digər bir sərt mövqe isə avstriyalı siyasətçi, Sosialistlər və Demokratlar Partiyasının üzvü Andreas Şider tərəfindən ifadə olunub. O, Radevin qələbəsini Avropa üçün geriləmə kimi qiymətləndirərək bunu Viktor Orban xəttinin davamı kimi təqdim edib. Şiderin müqayisəsi təəccüb doğurmamalıdır. Çünki son illər Avropa İttifaqı daxilində bəzi ölkələrin daha müstəqil və bəzən Brüsselə qarşı çıxan siyasət yürütməsi birlik daxilində parçalanma risklərini artırıb. Bolqarıstanın bu siyahıya qoşulma ehtimalı Avropa üçün yeni dilemmanı gündəmə gətirir. Daha dəqiq desək, bir tərəfdə demokratik seçki nəticələrinə hörmət prinsipi, digər tərəfdə isə nəticələrin ümumi siyasi kursa təsiri məsələsi dayanır. Ziddiyətlər Avropa İttifaqının gələcək inkişaf modelinin nə qədər mürəkkəb və çoxqatlı olduğunu bir daha ortaya qoyur.

Sonda qeyd edək ki, seçkilərin nəticələri, eyni zamanda, regionda qüvvələr balansına da təsir göstərə bilər. Balkanlar tarixən böyük güclərin maraqlarının toqquşduğu məkan olub və Bolqarıstanın siyasi kursunda baş verən dəyişikliklər bu balansı yenidən formalaşdıra bilər. Radevin daha balanslı, bəzən isə Qərbdən fərqli mövqe sərgiləməsi regionda yeni siyasi dinamika yarada bilər. Seçici davranışında müşahidə olunan dəyişikliklər, siyasi ritorikanın transformasiyası və beynəlxalq reaksiyaların müxtəlifliyi göstərir ki, Avropa yeni mərhələyə qədəm qoyur. Radevin hakimiyyətə gəlişi bu mərhələnin başlanğıc nöqtələrindən biri kimi qiymətləndirilir. Həm milli suverenlik anlayışının yenidən şərh edilməsi, həm də kollektiv təhlükəsizlik modelinin sınağa çəkilməsi kimi ehtimallar vəziyyətin mürəkkəbliyini artırır. Bolqarıstanın qarşıdakı dövrdə hansı siyasi kursu seçəcəyi bütövlükdə Avropanın gələcək trayektoriyasına təsir göstərəcək. Çünki Sofiyada verilən qərarlar Brüsselə təsirsiz ötüşmür.

***N.ELDARQIZI***
***XQ***

*Ekspert rəyi*

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



Azərbaycan–Bolqarıstan münasibətləri 90-cı illərin əvvəlindən bu günə qədər yüksək səviyyədə inkişaf edir. Amma Rumen Radev Bolqarıstanın dövlət başçısı olduğu dövrdə bu əlaqələr daha sıx və məhsuldar mərhələyə keçmişdi. Onun Bakıya etdiyi səfərlər, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfərləri zamanı imzalanan bir sıra sənədlər bu əməkdaşlığın möhkəm əsaslarını formalaşdırıb.

Qarşılıqlı əməkdaşlıqda əsas istiqamətlərdən biri enerji sahəsidir. Azərbaycan Balkan yarımadasını, o cümlədən Bolqarıstanı qazla təmin etməklə onların enerji təhlükəsizliyinə mühüm töhfə verir. Hazırkı mürəkkəb siyasi şəraitdə bu addım Bolqarıstanın maraqlarına tam cavab verən strateji qərardır.

Rumen Radevin Partiyasının qələbəsinə gəldikdə isə proses Azərbaycan üçün də əhəmiyyət daşıyır. Çünki həmin partiyanın xarici siyasət kursu bir sıra məsələlərə daha realist yanaşma sərgiləyir və bu, Azərbaycanda da düzgün qiymətləndirilir. Bu səbəbdən onun partiyasının qələbəsi Azərbaycan–Bolqarıstan münasibətlərini daha da yüksək səviyyəyə qaldıran amil kimi dəyərləndirilə bilər. Eyni zamanda, humanitar sahələrdə, xüsusilə təhsil istiqamətində əməkdaşlıq genişlənir. Şübhəsiz ki, iki dövlət arasında münasibətlərin inkişafı hər iki tərəfin maraqlarına tam uyğun şəkildə davam edəcək.

# Azərbaycan Orta Dəhlizin qovşağı və mərkəzi ölkəsidir




**Rusiya ilə münasibətlərin kəskinləşməsi və Yaxın Şərqdə davam edən qeyri-sabitlik fonunda Avropa İttifaqı yeni nəqliyyat və enerji marşrutları axtarışını sürətləndirib. Bu kontekstdə Aİ komissarı Marta Kos tərəfindən səsləndirilən yanaşmalar Brüsselin strateji istiqamətinin aydın konturlarını ortaya qoyub: Avropa artıq alternativ yolları sadəcə əlavə seçim kimi deyil, həyati zərurət kimi qiymətləndirir və bu istiqamətdə konkret addımlar atır.**

Bu strategiyanın mərkəzində Orta Dəhliz dayanır. Avropanı Mərkəzi Asiya ilə birləşdirən bu marşrut ənənəvi şimal və cənub yollarının effektivliyini itirdiyi bir dövrdə ön plana çıxıb. Şimal istiqamətində Rusiyadan keçən marşrutların siyasi risklər səbəbilə məhdudlaşması, cənub istiqamətində isə təhlükəsizlik problemləri Orta Dəhlizi geoiqtisadi baxımdan daha cəlbedici edib. Bu, artıq alternativ deyil, Avropanın ticarət və enerji təhlükəsizliyi strategiyasının əsas sütunlarından birinə çevrilib.

Son hadisələr bu yanaşmanın nə qədər əsaslı olduğunu təsdiqləyib. ABŞ ilə İran arasında hərbi gərginliyin artması Yaxın Şərq üzərindən keçən marşrutları faktiki olaraq iflic edib. Bu vəziyyət Avropa və Türkiyədən İran vasitəsilə Mərkəzi Asiyaya yük daşınmasını mümkünsüz hala gətirib. Nəticədə riskli cənub marşrutlarının yerini daha təhlükəsiz hesab edilən Orta Dəhliz alıb və bu da onun praktiki əhəmiyyətini kəskin şəkildə artırıb. Mövcud reallıqda Azərbaycanın rolu xüsusilə güclənib. Marta Kos da bunu xüsusilə vurğulayıb. Şübhəsiz ki, ölkəmiz yalnız enerji ixracatçısı deyil, həm də Avrasiya məkanında əsas tranzit və logistika mərkəzinə çevrilir. Xəzər dənizi üzərindən qurulan əlaqələr və yeni nəqliyyat layihələri Azərbaycanın Orta Dəhlizdəki mövqeyini daha da möhkəmləndirərək onu Şərq ilə Qərb arasında strateji körpüyə çevirir. Bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Çexiya KİV-lərinə müsahibəsində təsdiqləyib. O bildirib ki, Orta Dəhliz Avropanın yeni bazarlara çıxışı baxımından getdikcə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycan və Cənubi Qafqaz regionu bu marşrutun ana xəttini təşkil edərək Avropa ilə Asiya arasında əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynayır. Müsahibədə həmçinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi də müzakirə olunub. Qeyd edilib ki, uzunmüddətli münaqişədən sonra regionda formalaşan yeni reallıqlar fonunda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası sülhün möhkəmlənməsinə mühüm töhfə verə bilər.

Aİ-nin komissarı da Ermənistanın bu strategiyaya daxil edilməsindən danışıb. Bu, regionda yeni geosiyasi balansın formalaşmasından xəbər verir. Onun nəqliyyat və enerji layihələrinə inteqrasiya etmək cəhdləri iqtisadi maraqlarla yanaşı, həm də siyasi məqsədlərə xidmət edir. Bu yanaşma regional qarşılıqlı asılılığı artırmaqla ümumi sabitliyə nail olmağı hədəfləyir. İnfrastrukturun inkişafı Bakı və İrəvan arasındakı sülh prosesi ilə qırılmaz şəkildə bağlıdır. Avropa İttifaqının qənaətinə görə, iqtisadi əlaqəliliyin genişlənməsi sülhün bərqərar olmasında həlledici amildir və bu səbəbdən



tərəflər arasındakı dialoqa dəstək daha da intensivləşdirilir. Avropa komissarı qeyd edib ki, infrastrukturun inkişafı İrəvan və Bakı arasında sülh nizamlanması istiqamətində səylərlə sıx bağlıdır. "Əlaqəlilik həm də sülhə töhfədir", – deyə o bildirib və Aİ-nin iki ölkə arasında dialoqa dəstəyini artırdığını əlavə edib.

***

Orta Dəhlizin əhəmiyyətini artıran faktorlardan biri də Türkiyə və Gürcüstanın iştirakıdır. Türkiyə bu prosesdə həm tranzit ölkə, həm də strateji tərəfdaş kimi çıxış edir. Onun Avropa ilə Asiya arasında körpü rolu Orta Dəhlizin effektivliyini müəyyən edən əsas amillərdəndir. Xüsusilə Qara dəniz regionunda dəyişən təhlükəsizlik mühiti fonunda Türkiyənin əhəmiyyəti daha da artır. Digər tərəfdən, Gürcüstan bu marşrutun ayrılmaz hissəsi olaraq qalır. Lakin siyasi münasibətlərdəki dalğalanmalar göstərir ki, böyük infrastruktur layihələrinin uğuru yalnız iqtisadi deyil, həm də siyasi uyğunlaşmadan asılıdır.

Orta Dəhlizin əhəmiyyəti qlobal səviyyədə də özünü göstərir. Bu marşrut Çinlə Avropa arasında daha qısa və təhlükəsiz yol təqdim edir. Statistik göstəricilərə görə, 2022-ci ildən region vasitəsilə yük daşımalarının həcmi 4 dəfə artıb və hədəflənən investisiyalar sayəsində 2030-cu ilə qədər bu göstəricinin daha 3 dəfə yüksələcəyi proqnozlaşdırılır. Bu reallıq fonunda Brüssel Cənubi Qafqazı Avrasiyanın yeni əlaqəlilik arxitekturasının mərkəzi kimi görür.

**Ekspert Mahir Zeynalov** XQ-yə açıqlamasında qeyd etdi ki, müasir beynəlxalq münasibətlər sistemi artıq yalnız siyasi deyil, həm də iqtisadi maraqlar üzərində qurulur: "Təchizat zəncirlərinin qırılması, enerji bazarlarında qeyri-sabitlik və logistika problemləri dövlətləri daha çevik və şaxələndirilmiş strategiyalar formalaşdırmağa məcbur edir. Bu baxımdan Orta Dəhliz kimi layihələr yalnız regional



deyil, qlobal iqtisadi dayanıqlılığın təmin olunmasında mühüm rol oynayır: "Antalya platformasında aparılan müzakirələr enerji ixracatçıları və tranzit ölkələr arasında etimadı möhkəmləndirməklə yanaşı, regional sabitliyə xidmət edir. Bu kontekstdə Orta Dəhliz yalnız logistik layihə deyil, həm də mühüm siyasi-iqtisadi sabitlik alətidir. Qlobal ticarət sistemindəki dəyişikliklər fonunda alternativ və təhlükəsiz marşrutların inkişafı iqtisadi təhlükəsizliyin əsas komponentinə çevrilib.

Azərbaycan ardıcıl investisiyalar və infrastrukturun modernləşdirilməsi nəticəsində regionun tranzit potensialını əhəmiyyətli dərəcədə artırıb. Türk dövlətləri ilə inteqrasiya, birgə maliyyə institutlarının yaradılması və beynəlxalq sazişlər bu marşrutun cəlbediciliyini təmin edir. Mövcud geosiyasi risklər fonunda Azərbaycanın təqdim etdiyi marşrutlar qlobal miqyasda ən etibarlı alternativ kimi ön plana çıxır.

Ölkədəki makroiqtisadi sabitlik və proqnozlaşdırıla bilən siyasət xarici investorlar üçün əlverişli mühit yaradır. Orta Dəhliz boyu yerləşən ölkələrin koordinasiyalı inkişafı regionu qlobal qeyri-müəyyənliklər dövründə etibarlı tərəfdaşlıq və dayanıqlı iqtisadi artım mərkəzinə çevirir".

Beləliklə, yeni geosiyasi reallıqlar Azərbaycanı regionun əsas logistika qovşağına çevirir. ABŞ–İran münaqişəsi və qlobal ticarət yollarının transformasiyası Orta Dəhlizi yalnız iqtisadi layihə deyil, həm də yeni qlobal nizamın strateji platforması statusuna yüksəldir. Bu çərçivədə ölkəyə yatırılan daxili və xarici investisiyalar, Türk dövlətləri ilə qurulan birgə fondlar və imzalanan beynəlxalq sazişlər dəhlizin cəlbediciliyini artırıb. Ekspertlərin fikrincə, Azərbaycanın makroiqtisadi sabitliyi və proqnozlaşdırıla bilən siyasəti kapitalın bu marşruta yönəlməsində həlledici rol oynayır. Müasir dövrün əsas çağırışı olan etibarlı tərəfdaşlıq fonunda Azərbaycanın nəqliyyat dəhlizləri həm təhlükəsizlik, həm də səmərəlilik baxımından qlobal miqyasda ön plana çıxır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Gədəbəydə "yaşıl" aksiya

*Şahdağ kəndində 6 min 600 ağac əkilib*



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl marafon" kütləvi ağacəkmə kampaniyasının 2026-cı ilin yaz mövsümü çərçivəsində növbəti ağacəkmə aksiyası Gədəbəy rayonunda təşkil edilib.**

IDEA İctimai Birliyinin könüllülərinin iştirakı ilə Gədəbəy rayonunun Şahdağ kəndində 4600 ədəd fıstıq və 2000 ədəd Şərq çinarı ağacı əkilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun ("Yaşıl marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

"Yaşıl marafon" çərçivəsində ötən ilin payız və 2026-cı ilin yaz əkin mövsümlərini əhatə edən ağacəkmə aksiyaları zamanı ölkə üzrə ümumilikdə iki milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

***XQ***

# "Gənc arıçı" Yevlaxda da olacaq

**Gənc ailələrin məşğulluğu və ekoloji sahibkarlığın təşviqi məqsədilə həyata keçirilən "Gənc arıçı" layihəsi bu dəfə Yevlaxda icra olunacaq. Layihə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2021-ci ildən etibarən ölkəmizin müxtəlif bölgələrində uğurla reallaşdırılır.**

Layihəyə cəlb olunacaq 20 gənc ailə əvvəlcə nəzəri və praktiki təlimlərdə iştirak edəcək. Təlimləri başa vurmuş iştirakçılar arı ailələri və pətəklər, arıçı geyimi, balsüzən aparat və digər zəruri avadanlıqlarla təmin olunacaqlar. Gənc arıçılara istehsalat prosesinin effektiv təşkili üçün zəruri şərait yaradılacaq, eyni zamanda, məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satış strategiyalarının hazırlanması sahəsində metodoloji və peşəkar dəstək göstəriləcək.

Qeyd edək ki, 2021-ci ildən etibarən IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsi çərçivəsində ölkənin müxtəlif regionlarında yaşayan 80-dən çox gənc ailəyə arıçılıq təsərrüfatının qurulmasına dəstək göstərilib.




Layihənin məqsədi biomüxtəlifliyin əsas qoruyucularından biri olan arıların ölkə üzrə yayılma arealının genişləndirilməsi, arıçılığın ekosahibkarlıq forması kimi regionlarda təşviqi, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı fəaliyyətlərinin dəstəklənməsi və keyfiyyətli təbii bal istehsalının artırılmasıdır. Eyni zamanda, layihə, gənc ailələrin sosial rifahının yüksəldilməsinə və onların dayanıqlı məşğulluğunun təmin olunmasına töhfə verməyi hədəfləyir.

"Gənc arıçı" layihəsində iştirak etmək istəyən Yevlaxda yaşayan 18-35 yaşarası gənclər mayın 5-dək müraciətlərini IDEA İctimai Birliyinin "1113" qaynar xətti və ya elektron poçt ünvanı (info@ideacampaign.org) vasitəsilə göndərə və ya Dövlət Məşğulluq Agentliyinin Yevlax xidmət şöbəsinə yaxınlaşaraq qeydiyyatdan keçə bilərlər.

***XQ***

# Qərb Gürcüstanı zərbə altında qoymaq istəyir

## *Parlament sədri Şalva Papuaşvili Brüsselin təhrikçi niyyətini pisləyib*

**"Brüssel Rusiyaya qarşı sanksiyalar tətbiq etməyimizi tələb edirdi. Dəfələrlə onlardan soruşduq: "Əgər bu, iqtisadi böhrana səbəb olarsa, bizə pul verəcəksinizmi, kömək edəcəksinizmi? Söz verirsinizmi?" Onlar "yox" dedilər, vermədilər. Yenə soruşduq: "Əgər bu, qarşıdurmanın şiddətlənməsinə və Rusiya ilə birbaşa müharibəyə səbəb olarsa, siz – Estoniya, Litva, Almaniya və ya Fransa gəlib bizimlə birlikdə döyüşəcəksinizmi?" Onlar yenə "yox" dedilər". Bu fikri Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili bildirib.**

Cənab Papuşavili son dərəcə maraqlı məqama toxunub. Bu məqam iki cəhətdən – həm mənəvi, həm də siyasi baxımdan diqqət çəkməkdədir. Aydındır ki, Qərb Ukrayna müharibəsi fonunda Cənubi Qafqazda yeni anti-Rusiya cəbhəsi formalaşdırmaq istəmiş və çalışmışdı ki, bunu Gürcüstanın əli ilə etsin.

Məlumdur ki, Rusiya Gürcüstanın beynəlxalq hüquqla tanınmış iki bölgəsini işğal edib, həmin bölgələrdə separatçı quruluşlar formalaşdırıb. Söhbət Cənubi Osetiya və Abxaziyadan gedir. Yəni Qərb və Avropa başbilənləri məhz buna görə Tbilisinin Moskvaya qarşı cəbhə açmasını nəzərdən keçirmişdilər. Amma...

"Əmması" odur ki, oxşar durum 2008-ci ildə də yaşanmışdı. Həmin vaxt Qərb Rusiya ilə Gürcüstan arasında müharibəyə rəvac verməyə müvəffəq oldu. Savaşın ikinci üçün necə nəticələndiyini bütün dünya gördü. Rus tankları paytaxt Tbilisinin bir neçə kilometrliyinədən irəlilədilər. Yalnız ozamankı Fransa Prezidenti Nikola Sarkozinin Rusiya Prezidenti Vladimir



Putinə, az qala, yalvarışından sonra rus həbçiləri Gürcüstandan çıxdılar. Amma bundan sonra rəsmi Moskva Cənubi Osetiyanın və Abxaziyanın müstəqilliklərini rəsmən tanıdı.

Belə bir deyim var: qaş düzəldirdilər, vurub gözünü çıxardılar. Rusiyanın Cənubi Osetiyanın və Abxaziyanın müstəqilliklərini tanıması fonunda Qərbin hərəkəti eynilə bu deyimi xatırladır. Cənab Papuaşvilinin söylədikləri isə sübut edir ki, o zamandan heç nə dəyişməyib. Hərçənd, dəyişən bir şey var. Söhbət Qərbin Gürcüstan hakimiyyətinə münasibətindən gedir. O hakimiyyət ki, Avropanın müxtəlif dairələri tərəfindən təzyiqə məruz qalmaqdadır. Ona görə ki, ölkə anti-Rusiya cəbhəsində iştirakçılığa razı deyil.

Məsələ ondadır ki, Gürcüstanı Rusiyaya qarşı çıxmağa çağıran Qərb ölkələrinin bir çoxunun Rusiya ilə sərhədi yoxdur. Yəni, onların təmsilçilərinə ağızlarını köpükləndirib danışmaq çox asandır. Digər tərəfdən, Papuaşvilinin bildirdikləri fonunda Qərbin Gürcüstanın əli ilə Cənubi Qafqazda anti-Rusiya cəbhəsi yaratmaq cəhdinin mənəvi baxımdan da yolverilməzlik fazası var.

Aydındır ki, gürcü iqtidarının yuxarıda diqqətə çatdırdığımız sualları ritorik olub. Yəni cavablar məlum idi. Elə isə görəsən, hansı səbəbdən Qərb, obrazlı desək, gözəl qızı əjdahaya yem etmək istəyib? Səbəb sadədir. Avropa siyasətçiləri çalışmışdılar ki, Ukrayna müharibəsi ilə formalaşmış anti-Rusiya dalğasının dramatizm yükü artsın. Ortada tipik Qərb yanaşması var. Gürcüstan Rusiya ilə müharibəyə başlasaydı, savaş Moskvaya hansısa ciddi təsir göstərməyəcəkdi. Eləcə də birincinin ikinciyə sanksiya tətbiqi nəyisə dəyişməyəcəkdi. Əksinə, Gürcüstan Rusiyanın sanksiyalarından zərər görəcəkdi.

Bəli, Qərbin sırf dramatik mənzərə formalaşdırmağa hesablanmış yanaşmasında acınacaqlı duruma düşmüş, evi dağılmış,



ailəsi mərmilər altında məhv olmuş sadə gürcü obrazı var idi. Bu obraz Rusiyanı əndazəsizliyi görüntüsünü şiddətləndirməli, belə demək mümkünsə, siyasətə sentimentallıq ovqatı gətirməli idi.

Yeri gəlmişkən, Azərbaycan 2020-ci ildə 44 günlük müharibə ilə öz torpaqlarını işğaldan azad edən zaman da Qərbin bəzi dairələri Gürcüstan hakimiyyətini qızışdırmaq yolu tutmuşdular. Təzadlı məqam budur ki, həmin dairələr bir yandan Azərbaycanın haqq mübarizəsini, az qala, işğalçılıq kimi qiymətləndirdikləri halda, gürcü iqtidarına təcavüzlə barışmamaq tapşırığını verməyə cəhd göstərmişdilər.

Bir daha deyək ki, Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir. Ölkəmiz, habelə, gürcü xalqının haqqının tapdandığı qənaətindədir. Ancaq Cənubi Osetiya və Abxaziya böhranının aradan qalxması rasional yanaşma nəticəsində baş verməlidir. Məsələ, heç bir halda, siyasi avantüra mahiyyəti daşımamalıdır və hazırda rəsmi Tbilsinin yeritdiyi xətt bu baxışa adekvatdır. Cənab Papuaşvili də açıqlaması ilə, əslində, həmin xəttin davamlı olacağını bir daha vurğuladı. Ən əsası isə o, Qərbin bəzi dairələrinin riyakarlığını yenidən, özü də kifayət qədər sadə və anlaşıqlı şəkildə ortaya qoydu.

***R.ƏVƏZ***
***XQ***

# “Asiya nəhəngi” “Odlar yurdu” ilə tərəfdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyevin Çinə ötənilki dövlət səfəri ikitərəfli münasibətlərdə yeni mərhələ açdı*



**Azərbaycan və Çin arasında diplomatik münasibətlər 1992-ci ildə qurulduqdan sonra tərəflər müxtəlif sahələrdə səmərəli əməkdaşlıq ediblər. Ötən dövr ərzində iki ölkə arasında siyasi, iqtisadi və mədəni sahələr üzrə əməkdaşlıq daha da dərinləşib və bu proses rəsmi sənədlərlə təsdiqini tapıb.**

3 iyul 2024-cü ildə Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub. Bu sənədlə rəsmi Bakı və Pekin münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldərək bir-birini prioritet və etibarlı tərəfdaş kimi qəbul ediblər. Beləliklə, tərəflər ikitərəfli münasibətlər üzrə siyasətlərini xarici amillərdən asılı olmayaraq müstəqil şəkildə müəyyənləşdirmək iradəsini ortaya qoyublar.

Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə 2025-ci il aprelin 22–24-də Çinə həyata keçirdiyi dövlət səfəri iki ölkə arasındakı münasibətlərində yeni mərhələnin əsasını qoyub. Səfər strateji tərəfdaşlığın daha yüksək səviyyəyə yüksəlməsi baxımından mühüm əhəmiyyət kəsb edib və aprelin 23-də Pekində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” imzalanmışdır. Sənəd Azərbaycan və Çin arasında münasibətlərin bütün sahələri əhatə edən, yüksək səviyyəli siyasi etimada əsaslanan, daha institusional, sistemli və dərin xarakter daşıyan tərəfdaşlıq səviyyəsinə yüksəldiyini göstərir.

Bəyanatda tərəflər bir-birinin suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyinə qətiyyətli dəstək ifadə edirlər. Azərbaycan “vahid Çin” prinsipini dəstəkləyərək Tayvanı Çin ərazisinin ayrılmaz hissəsi kimi tanıyır, Çin isə Azərbaycanın sülh gündəliyini müdafiə edir və geosiyasi qarşıdurmaları qeyri-məhsuldar sayır. Bundan başqa, sənəddə dövlət başçılarının diplomatiyasının əsas strateji xətt kimi götürüləcəyi, ikitərəfli münasibətlərin uzunmüddətli və dayanıqlı inkişafının təşviq ediləcəyi vurğulanır. Eyni zamanda, Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında dialoqun gücləndirilməsi, hökumətlərarası mexanizmlərin genişləndirilməsi, parlamentlər və xarici işlər nazirlikləri xətti üzrə müntəzəm təmasların davam etdirilməsi nəzərdə tutulur.

Qeyd olunan siyasi istiqamətlərlə yanaşı, əməkdaşlığın iqtisadi komponentləri də sənəddə mühüm yer tutur. Tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün “Bir kəmər, bir yol” təşəbbüsünün Azərbaycanın “İpək Yolunun dirçəldilməsi” dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşıblar.

Bəyanatda bildirilir ki, ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın rolu artırılır, ticarət, investisiya, “yaşıl enerji” və rəqəmsal iqtisadiyyat sahələrində əməkdaşlığın genişləndirilməsi, həmçinin investisiya üzrə İşçi qrupun yaradılması nəzərdə tutulur. Azad ticarət sazişi üzrə danışıqlara başlamaq niyyəti də ifadə olunub.

Azərbaycan və Çin arasında hərtərəfli strateji tərəfdaşlığının qurulması bazar çıxışını genişləndirməyi, sərgi və forumlarda fəal iştirakı təşviq etməyi, sənaye sahəsində – xüsusilə neft-kimya, metallurgiya, maşınqayırma və digər istiqamətlərdə əməkdaşlığı dərinləşdirməyi də nəzərdə tutur. Enerji keçidi və bərpaolunan enerji sahəsində əməkdaşlıq, həmçinin nəqliyyat və logistika əlaqələrinin inkişafı prioritet kimi müəyyənləşdirilib. Trans-Xəzər marşrutlarının genişləndirilməsi, multimodal daşımalar və avtomobil nəqliyyatı üzrə sazişlərin sürətləndirilməsi ikitərəfli iqtisadi əlaqələrin gücləndirilməsinə xidmət edəcək.

Qeyd edək ki, iki ölkə arasında əməkdaşlığın əsas istiqamətlərindən biri nəqliyyat-logistika sahəsidir. Çin Xəzər dənizinə çıxışı təmin edən dəmir yolu layihələrini, həmçinin Qırğızıstan və Özbəkistan üzərindən keçən yeni dəmir yolu xətlərini maliyyələşdirir və bu istiqamətdə böyük həcmdə sərmayə yatırır. Bu, Xəzər hövzəsi və Azərbaycana yük axınının artmasına şərait yaradır. Mərkəzi Asiya ölkələri ilə birlikdə Çindən gələn əlavə yükdaşımalar Şərq–Qərb marşrutunu, xüsusilə Orta Dəhlizi daha işlək hala gətirir.

2025-ci ilin yanvar–noyabr aylarında bu marşrutla 466 qatar reysi həyata keçirilib. Hazırda Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizində hərəkət intensivləşib, daşınma müddəti isə təxminən 23 gündən 11 günə qədər azalıb. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozlarına əsasən, 2030-cu ilə qədər Orta Dəhliz üzrə yükdaşımalar 11 milyon tona, 2040-cı ilə qədər isə konteyner daşımaları 865 min TEU-ya qədər arta bilər. Bu, Azərbaycanın logistik əhəmiyyətini gücləndirməklə yanaşı, qlobal ticarət üçün də dayanıqlı alternativ yaradır.

Nəqliyyat-logistika sahəsindən başqa, Çin həm də Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. İki ölkə arasında iqtisadi əlaqələr son illərdə ardıcıl şəkildə genişlənib və yüksək səviyyəyə yüksəlib. Azərbaycan–Çin ticarət dövriyyəsi 2015-ci ildə 561 milyon dollar, 2016-cı ildə 975 milyon dollar, 2017-ci ildə 1 milyard 300 milyon dollar, 2018-ci ildə 1 milyard 310 milyon dollar, 2019–2020-ci illərdə isə təxminən 2,1 milyard dollar təşkil edib. 2022-ci ildə bu göstərici 2,2 milyard dollara çatıb. 2023-cü ildə isə 3,1 milyard dollara yüksəldiyi halda, 2024-cü ilin ilk 10 ayının nəticələrinə əsasən, ticarət dövriyyəsi 3 milyard dolları keçib və illik müqayisədə 17,1 faiz artım qeydə alınıb. 2025-ci ilin yanvar–dekabr aylarında Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsi 4, 21 milyard ABŞ dolları təşkil edib. Bu göstərici ümumi ticarət dövriyyəsinin 9,45 faizinə bərabərdir. Hesabat dövründə idxal üzrə əsas tərəfdaş ölkələr arasında Çin 4,12 milyard ABŞ dolları ilə birinci yerdə qərarlaşıb. 2026-cı ilin yanvar-fevral aylarında Azərbaycan ilə Çin arasında ticarət əməliyyatlarının həcmi 779,4 milyon ABŞ dolları təşkil edib. Bu göstərici 2025-ci ilin eyni dövrü ilə müqayisədə 34 milyon ABŞ dolları və ya 4,6 faiz artım deməkdir.

Hər ötən gün dünya ticarətində payı artan Çin və Cənubi Qafqazda mühüm tranzit və enerji mərkəzinə çevrilən Azərbaycan arasında əməkdaşlıq daha geniş xarakter alır. Bu yöndə ARDNF-in Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumu ilə birgə Çin–ASEAN İnvestisiya Platformasında (CAIP) iştirakı əməkdaşlığın institusional dərinləşməsini ifadə edir. Prezident İlham Əliyevin 2025-ci ilin aprelində Çinə dövlət səfəri zamanı imzalanmış sənəd bu prosesin əsasını qoyub və üçtərəfli platformanın formalaşmasını sürətləndirib. 2026-cı ilin aprelində CAIP-ə qoşulma ilə ARDNF Asiyada yeni investisiya mexanizminin iştirakçısına çevrilib. Platforma sənaye, texnologiya, səhiyyə və xidmət sahələrində investisiya imkanlarını genişləndirir, eyni zamanda, kapital axınlarının diversifikasiyası və bilik mübadiləsinə xidmət edir.

Xatırladaq ki, ARDNF 2015-ci ildən Çin maliyyə bazarında fəaliyyət göstərir. Hazırda Çin aktivləri portfelin təxminən 2,5 faizini təşkil edir ki, bu da təxminən 1,9 milyard dollara bərabərdir. Eyni zamanda, Fondun Çin yuanı ilə investisiyaları 11,5 milyard yuan (təxminən 1,7 milyard dollar) səviyyəsindədir. ARDNF-in Çin Xalq Bankı, Çin İnvestisiya Korporasiyası, “Bank of China”, CICC, “CITIC Securities”, “Agricultural Bank of China” və “Orient Securities” ilə əməkdaşlığı maliyyə əlaqələrini daha da gücləndirir.

Ümumilikdə, CAIP platforması Azərbaycanın Asiya bazarlarında investisiya mövqeyini gücləndirir və Azərbaycan–Çin iqtisadi əməkdaşlığının daha dərin mərhələyə keçidini təmin edir.

***Musa BAĞIRLI***
***XQ***

# “Əsrin müqaviləsi”nin “Günəşli” töhfəsi

*“Dərinsulu Günəşli” platformasından indiyədək 676 milyon barel neft hasil edilib*

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişi çərçivəsində həyata keçirilən layihələrin hər biri ölkəmizin şanlı neft salnaməsinin uğurlu səhifələrinə çevrilib. Bu baxımdan “Əsrin müqaviləsi”nin “Dərinsulu Günəşli” zirvəsi milli neft sənayemizin infrastruktur imkanlarının genişləndirilməsində müstəsna rol oynayıb.**

“Günəşli” yatağı karbohidrogen ehtiyatlarının zənginliyi ilə Xəzərdəki digər yataqlardan xeyli dərəcədə seçilir. Azərbaycan neftçilərinin şücaəti sayəsində ötən əsrin 80-ci illərinin əvvəllərində istismara verilmiş bu yatağın ilkin mərhələdə yalnız dayaz sulu hissəsindəki ehtiyatları işlənməyə cəlb etmək mümkün olub. Həmin dövrdə respublikamızın məhdud maliyyə imkanları, eləcə də lazımi texnologiyanın olmaması istər “Günəşli” yatağının dərinsulu hissəsinin, istərsə də yaxınlıqda yerləşən “Çıraq” və “Azəri” kimi zəngin neft yataqlarının da istismarında bir sıra çətinliklər yaradıb.



Yalnız 1994-cü il sentyabrın 20-də xarici neft şirkətləri ilə imzalanmış “Əsrin müqaviləsi” “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun zəngin karbohidrogen ehtiyatlarının işlənməyə cəlb edilməsinə yol açıb. 30 il müddətinə imzalanmış bu tarixi saziş isə geniş bir coğrafi ərazini əhatə etdiyindən neft yataqlarının mərhələli şəkildə istismara daxil edilməsi qərara alınıb. Beləliklə, “Əsrin müqaviləsi”nin “İlkin neft layihəsi” və yataqların tammiqyaslı işlənməsinin birinci və ikinci mərhələləri (“Faza-1” və “Faza-2” layihələri) çərçivəsində “Çıraq” yatağı, eləcə də “Azəri” yatağının mərkəzi, qərb və şərq hissələri işlənməyə cəlb olunub.

“Günəşli” yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasilatını həyata keçirməyi nəzərdə tutan “Faza-3” layihəsi ilə bağlı qərar isə 2004-cü ilin sentyabr ayının 20-də – “Əsrin müqaviləsi”nin 10-cu ildönümünə həsr olunmuş yubiley tədbirində qəbul edilib. Layihənin reallaşdırılması üçün 4,7 milyard dollar vəsait ayrılıb ki, bunun da 3,2 milyard dolları tikinti-quraşdırma işlərinə sərf olunub. Yataqların tammiqyaslı işlənməsinin 3-cü mərhələsi, təqribən, 176 milyon ton və ya 1,25 milyard barel neftin çıxarılmasını özündə əks etdirən nəhəng işlənmə layihəsidir.

Layihə çərçivəsində nəzərdə tutulmuş mühəndis-təfsilat, tikinti və quraşdırma işlərinin həyata keçirilməsi ilə əlaqədar elan edilmiş beynəlxalq tenderlərin nəticələrinə əsasən, ABŞ-ın “Halliburton International”, “Vetco Grey Controls”, “Cooper Cameron” və “McDermott”, Fransanın “BOS Shelf”, İtaliyanın “Saipem”, İsveçin “Pharmadule Emtunga AB”, Niderlandın “Mercon Steel Structures BV”, Britaniyanın “KCA Deutag” şirkətləri, eləcə də Britaniya–Türkiyə–Azərbaycan alyansı olan “Amec”/“Tekfen”/“Azfen” və “Tekfen/Azfen” Türkiyə–Azərbaycan birgə müəssisəsi ilə ümumi dəyəri 1 milyard dollardan artıq podrat müqavilələri imzalanıb. Ümumilikdə isə, layihə üzrə planlaşdırılan tədbirlərin reallaşdırılması üçün 4,7 milyard dollar vəsait nəzərdə tutulub ki, bunun da 3,2 milyard dolları sırf tikinti işlərinə yönəldilib.

“Dərinsulu Günəşli” kompleksinin tikintisi ilə bağlı işlərin 80 faizindən çoxu ölkə daxilində, digər qismi isə “McDermott”un Dubaydakı müəssisələrində iki il ərzində yerinə yetirilib. Azərbaycanda həyata keçirilən tikinti-quraşdırma işləri zamanı həm də ölkənin mövcud infrastrukturundan geniş istifadə olunub.

Qeyd edək ki, “Dərinsulu Günəşli” kompleksi “Günəşli” yatağının şərqində, suyun 175 metr dərinliyində yerləşir. Bu nəhəng neftçıxarma kompleksi bir-biri ilə körpü vasitəsilə birləşdirilmiş iki platformadan ibarətdir. Eyni zamanda, bu unikal qurğular daha mürəkkəb geoloji şəraitdə hasilatın həyata keçirilməsinə hesablanıb. Hasilat platforması 48 quyu gövdəsinə malik qazma, texnoloji təchizat qurğuları və yaşayış sahəsindən ibarətdir. Texniki məqsədlər üçün inşa olunmuş digər platformada isə texnoloji emal, qaz kompressor, suvurma və texnoloji təchizat qurğuları yerləşdirilib. “Faza-3” layihəsi çərçivəsində hasil edilən neftin quruya nəqlini təmin etmək məqsədilə “Dərinsulu Günəşli” platformasından Səngəçal terminalına 30 düymlük neft və 28 düymlük qaz kəmərləri çəkilib.

Əməliyyatlara başlandığı vaxtdan indiyədək “Dərinsulu Günəşli” platformasından, ümumilikdə, 61 quyu qazılıb. Bunlardan 34-ü neft hasilatı, 5-i su injektoru, 1-i şlamların yenidən laya vurulması, 21-i isə sualtı injektor quyularıdır.

“Dərinsulu Günəşli” platformasında hasilata isə 2008-ci il aprelin 22-də başlanıb. Bununla da “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun tammiqyaslı işlənməsi təmin edilib. Platformada illik maksimal neft hasilatı 2014-cü ildə qeydə alınıb. Həmin il “Günəşli” yatağının dərinsulu hissəsindən 7,2 milyon ton neft çıxarılıb ki, bu da ötən 18 ildə qeydə alınmış ən yüksək hasilat göstəricisidir. Bununla belə, 2014-cü ildə “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsində orta gündəlik neft hasilat 145,9 min barel təşkil etdiyi halda, ehtiyatların azalması səbəbindən ötən ilin yekunlarına görə, bu rəqəm 51 min barel olub. Ümumilikdə, istismara verildiyi vaxtdan indiyədək “Dərinsulu Günəşli” platformasından 676 milyon barel və ya 91 milyon ton neft çıxarılıb.

Yeri gəlmişkən, hazırda AÇG yataqlar blokunda hasilat 7 platforma vasitəsilə həyata keçirilir. 2025-ci ildə “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan, ümumilikdə, 120 milyon barel (16 milyon ton) hasil edilib. İl ərzində burada orta gündəlik neft hasilatı 330 min barel təşkil edib.

Xatırladaq ki, AÇG Azərbaycanın ən böyük neft yatağı blokudur. Yataqlar blokunun işlənməsi üzrə hasilat bölgüsünə dair ilk müqavilə 1994-cü il sentyabrın 20-də imzalanıb. 2017-ci il sentyabrın 14-də isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. “Yeni əsrin müqaviləsi” adlandırılan həmin sazişə əsasən “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun 2049-cu ilin sonunadək işlənməsi nəzərdə tutulub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Pambıq sahələrinin sığortalanmasına başlanılıb

**Azərbaycanda dövlət aqrar sığorta mexanizmi ilə pambıq əkinlərinin sığortalanması mövsümünə start verilib. Artıq pambıq əkini ilə məşğul olan fermer və təsərrüfatlar Aqrar Sığorta Fonduna müraciət edərək dövlət dəstəyi ilə təqdim edilən güzəştli aqrar sığorta mexanizmi vasitəsilə əkinlərini sığorta edə bilərlər.**



Yeri gəlmişkən, hazırda ölkəmizin 20-yə yaxın rayonunda 110 min hektara yaxın ərazidə pambıq becərilir. Pambıq tarlalarının böyük hissəsi Mil-Muğan, Salyan-Şirvan və Mərkəzi Aran regionlarındadır. Ölkənin əsas pambıqçılıq rayonları isə Saatlı (12,6 min hektar), Ağcabədi (11,8 min hektar), Sabirabad (11,1 min hektar), Salyan (9,7 min hektar), Beyləqan (8,9 min hektar), Bərdə (8,5 min hektar), Biləsuvar (8,1 min hektar), İmişli (7,9 min hektar), Neftçala (7,2 min hektar), Yevlax (3,3 min hektar), Zərdab (3,1 min hektar), Tərtər (2,8 min hektar), Ağdam (2,4 min hektar), Goranboy (2 min hektar), Kürdəmir (1,1 min hektar) və başqalarıdır. Ümumilikdə, hazırda ölkəmizdə 15 minə yaxın fermer pambıq əkini ilə məşğuldur.

Qeyd edək ki, pambıq Azərbaycanda becərilən strateji kənd təsərrüfatı bitkilərindən biri, ölkədən xaricə ixrac edilən əsas qeyri-neft məhsullarındandır. Pambıq əkinləri bölgə əhalisinin gəlirlərinə və iqtisadi vəziyyətinə ciddi təsir edir. Fermer ailələrinin iqtisadi vəziyyəti və rifah halı böyük dərəcədə məhz pambığın gətirdiyi gəlirlərdən asılıdır.

Bununla belə, təbiət hadisələrinə qarşı həssas olan pambıq əkinləri müxtəlif səbəblərdən zərər görə bilər. Pambıq sahələrinə ən çox dolu, sel-subasma, leysan yağışları və üçüncü şəxslərin hərəkətləri kimi hadisələr zərər vurur. Belə hallar nəticəsində fermerlər gəlirlərini itirə, hətta ağır borc yükü ilə üzləşə bilərlər. Lakin Aqrar Sığorta Fondunun təqdim etdiyi dövlət dəstəkli aqrar sığorta bütün bu halların vurduğu zərəri qarşılayır.

İndiyədək zərərlə üzləşmiş minlərlə fermerə aqrar sığorta vasitəsilə 2,2 milyon manatdan artıq ödəniş edilib. Belə ki, ölkəmizdə 2023-cü ildə 686 hektar sahəyə dəymiş zərərlər üzrə fermerlərə 386 min manat sığorta ödənişi edildiyi halda, 2024-cü ildə 4 min hektar əraziyə dəymiş zərərlər üzrə 880 min manat, 2025-ci ildə isə 2 min 64 hektar pambıq sahəsində baş vermiş hadisələr üzrə fermerlərə 958 min manat sığorta ödənişi həyata keçirilib.

Qeyd edək ki, 50 faizlik dövlət dəstəyi sayəsində fermerlər pambıq sahəsini cüzi ödənişlə sığorta edə bilərlər. Ölkənin əksər ərazilərində 1000 manatlıq pambıq məhsulunun sığortası cəmi 7-10 manat arasında dəyişir.

Son aylar Azərbaycanda baş verən təbiət hadisələri, güclü yağışlar və sel-subasma digər sahələr kimi, pambıq əkinləri üçün də böyük risk yaradır. Bu halların gətirdiyi zərərin qarşısını almaq üçün ən effektiv üsul pambıq sahələrini vaxtında sığorta etməkdir.

Pambıq sahələrinin sığortası aprel ayında başlayır və may ayının sonunadək davam edir. Məhsulu vaxtında sığortalamaq onu daha çox riskdən, o cümlədən may ayında baş verən leysan yağışlardan qorumağa imkan verir.

***XQ***

# Ermənistana yanacaq ixracı davam edir

**Azərbaycan Dəmir Yollarının Biləcəri stansiyasından 16 sistern vaqondan ibarət qatarla 974 ton dizel yanacağı Gürcüstan vasitəsilə Ermənistana göndərilib. Bundan əvvəl, 14 apreldə 22 sistern vaqonunda 1298 ton dizel yanacağı ixrac olunmuşdu.**



Məlumata görə, indiyədək Azərbaycan Ermənistana, ümumilikdə, 7 min 610 ton dizel yanacağı, 979 ton RON92 benzini və 2 min 955 ton RON95 benzini ixrac edib. Ermənistana yanacaq tədarükü ötən ilin 18 dekabrında başlanıb və ilk mərhələdə qonşu ölkəyə 1220 ton A-95 benzini çatdırılıb.

Qeyd edək ki, işğal dövründən Ermənistana tətbiq edilən tranzit məhdudiyyətlər Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci ilin oktyabrında verdiyi qərarla aradan qaldırılıb.

***XQ***

*22 Aprel Beynəlxalq Yer Günüdür*

# İnsanlığın ümumi evi qoy yaşıla bürünsün!

**Ekoloji tarazlığın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə müasir dövrün ən aktual mövzularından biridir. Temperatur artımı, buzlaqların əriməsi və təbii fəlakətlərin tez-tez təkrarlanması ətraf mühitə münasibətimizin köklü şəkildə dəyişməsini zəruri edir. Bu mürəkkəb şəraitdə hər il aprelin 22-də qeyd olunan Beynəlxalq Yer günü bəşəriyyətin planet qarşısındakı kollektiv məsuliyyətini bir daha xatırladır.**



Əlamətdar günün tarixi XIX əsrin ikinci yarısına, ABŞ-ın Nebraska ştatında Corc Mortonun təşəbbüsü ilə keçirilən "Ağac günü"nə təsadüf edir. Həmin dövrdə əsas diqqət yaşıllaşdırma işlərinə yönəlsə də, zaman keçdikcə bu hərəkat daha geniş miqyas almışdır. 1970-ci ildən etibarən isə senator Geylord Nelsonun təklifi ilə həmin tarixin adı dəyişdirilərək "Yer günü" adlandırılmışdır.

1990-cı ildən etibarən beynəlxalq xarakter alan bu hərəkatın əsas istiqamətlərindən biri təbii mühiti ilkin formada qoruyan Milli parklara həsr edilib. Burada əsas hədəf xüsusi mühafizə olunan ərazilərdəki mövcud problemlərin həllinə ictimaiyyətin diqqətini cəlb etmək, bu sahədə real praktiki və maliyyə dəstəyi göstərməkdir. Hazırda dünyanın 150-yə yaxın ölkəsində, o cümlədən respublikamızda qeyd olunan bu gün ictimaiyyəti təbiət qarşısında daha məsuliyyətli olmağa çağırır.

Son onilliklərdə müşahidə olunan qlobal istiləşmə təbii fəlakətlərin sayını artırmaqla yanaşı, ekosistemi də ciddi şəkildə zədələyir. Bu proses təkcə canlıların yox olması ilə bitmir, həm də təbiətin insan sağlamlığı üçün vacib olan funksiyalarını – havanın təmizlənməsi və suyun filtrasiyası imkanlarını məhdudlaşdırır. Atmosferin çirklənməsi, plastik tullantıların okeanlardan dağ zirvələrinə qədər yayılması isə ekoloji deqradasiyanı daha da sürətləndirir. Nəticədə, təbiət özünübərpa qabiliyyətini itirir və bəşəriyyət üçün həyati əhəmiyyət kəsb edən təbii resurslar tükənir.

Ölkəmiz bu qlobal mübarizənin ön sıralarında yer alaraq ətraf mühitin mühafizəsini dövlət siyasətinin prioritet istiqaməti müəyyən edib. Ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə yeni meşə massivlərinin salınması və su ehtiyatlarının səmərəli idarə olunması istiqamətində sistemli addımlar atılır. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə tətbiq edilən "yaşıl enerji" və "sıfır tullantı" konsepsiyaları bu sahədə həyata keçirilən tədbirlərin bariz nümunəsidir. Görülən işlər təkcə təbiətin bərpasına deyil, həm də regionun ekoloji baxımdan dayanıqlı inkişafına xidmət edir.

Beynəlxalq miqyasda qazanılan etimadın nəticəsi olaraq, ölkəmizin ev sahibliyi etdiyi COP29 sammiti qlobal iqlim siyasətində yeni səhifə açdı. Bu mötəbər tədbir dövlətimizin ekoloji məsuliyyətini nümayiş etdirməklə yanaşı, həm də iqlim dəyişikliyi ilə mübarizədə qlobal həllərin mərkəzinə çevrilməsinə zəmin yaratdı. Sammit çərçivəsində qəbul edilən qərarlar və əldə olunan razılaşmalar ölkəmizdə "yaşıl iqtisadiyyat"a keçid prosesini daha da sürətləndirdi, bərpaolunan enerji mənbələrindən istifadə imkanlarını genişləndirdi.

Hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən icra olunan layihələr beynəlxalq öhdəliklərin praktiki müstəviyə keçməsini təmin edir. Xüsusilə emissiyaların azaldılması, ekoloji monitorinq sistemlərinin müasirləşdirilməsi və biomüxtəlifliyin qorunması istiqamətində həyata keçirilən tədbirlər ölkəmizin ekoloji xəritəsinin yenidən formalaşmasında mühüm rol oynayır. Bu layihələr təkcə bugünkü ekoloji sabitliyə xidmət etmir, həm də gələcək nəsillər üçün daha sağlam və təmiz bir mühitin qarantı hesab olunur.

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) yanında İctimai Şuranın sədri Amin Məmmədov bildirdi ki, ölkədə ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində əsas yük bu qurumun üzərinə düşür və nazirliyin tabeliyindəki xidmətlər tərəfindən sahə üzrə kompleks nəzarət tədbirləri həyata keçirilir:***



– Ətraf mühitin mühafizəsi və təbii ehtiyatların qorunması prioritet fəaliyyət istiqamətləri olaraq müəyyən edilib. Nazirliyin müvafiq agentlikləri tərəfindən mütəmadi keçirilən monitorinq və reydlər həm yaşıllıqların mühafizəsinə, həm də ətraf mühitə zərərli tullantıların atılmasının qarşısının alınmasına xidmət edir. Bu tədbirlər ölkənin ekoloji dayanıqlılığının qorunmasında həlledici rol oynayır.

***Şura sədri qeyd etdi ki, işğaldan azad edilmiş torpaqlarımızda aparılan ekoloji bərpa işləri artıq ümumi ekosistemdə müsbət dəyişikliklərlə müşahidə olunur:***

– 30 ilə yaxın davam edən işğal dövründə çaylarımız, meşə massivlərimiz və təbiətimiz sistemli şəkildə məhvə məruz qalsa da, ərazilər nəzarətimizə keçdikdən sonra burada dərhal ciddi ekoloji monitorinq mexanizmləri işə salınıb. Xüsusilə Ermənistan ərazisində çirkləndirilərək Qarabağa axan transsərhəd çaylar, o cümlədən Oxçuçay üzərində aparılan laboratoriya təhlilləri beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırmağa imkan verib və buna səbəb olan müəssisələrin fəaliyyəti dayandırılıb. Eyni zamanda, işğal müddətində məhv edilmiş 60 min hektar yaşıllıq ərazisinin bərpası məqsədilə minalardan təmizlənmiş sahələrdə genişmiqyaslı meşəsalma layihələri icra olunur. Bu proses həm ekoloji tarazlığın bərpasına, həm də əraziyə qayıdan əhalinin sağlam mühitdə yaşamasına xidmət edir.

***Müsahibimiz nazirliyin gələcək hədəflərindən danışarkən söylədi ki, Azərbaycanın Səhralaşma ilə Mübarizəyə dair Konvensiyaya üzv olması meşəbərpa istiqamətində üzərimizə böyük öhdəliklər qoyur:***

– Ölkədə hər il keçirilən genişmiqyaslı ağacəkmə aksiyaları bu məqsədə xidmət edir. Məsələn, 2019-cu ildə Nəsiminin 650 illiyi münasibətilə bir gündə 650 min ağacın əkilməsi ən böyük təşəbbüslərdən idi. Hazırda bu ənənə davam etdirilir; təkcə 2024-cü ildə "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 çərçivəsində ölkə üzrə 3 milyondan çox ağac əkilib.

Su ehtiyatlarının idarə olunmasına gəlincə, bu sahədə əsas səlahiyyətlər Dövlət Su Ehtiyatları Agentliyinə həvalə edilib. 2026-cı ilin yanvarında ölkə başçısının təsdiqlədiyi 2026-2035-ci illəri əhatə edən Dövlət Proqramı Bakı və Abşeron yarımadasında su təchizatı, kanalizasiya və yağış sularının idarə edilməsini köklü şəkildə yaxşılaşdıracaq. Yaxın on il ərzində qoyulacaq investisiyalar sayəsində su ehtiyatlarının daha səmərəli idarə olunması təmin ediləcək.

***Ekoloji tarazlığın pozulmasının təbiətə təsirləri məsələsinə də toxunan həmsöhbətimiz dedi ki, qlobal iqlim böhranı ölkəmizdə təkcə biomüxtəlifliyə deyil, bir çox sahələrə də mənfi təsir göstərir:***

– Bu təhdidlərin qarşısının alınması üçün ETSN-in Biomüxtəlifliyin Qorunması Xidməti tərəfindən müxtəlif beynəlxalq təşkilatlarla birgə ardıcıl layihələr icra olunur. Bura ceyranların tarixi areallarına qaytarılması (reintroduksiyası) və balıq ehtiyatlarının artırılması kimi mühüm təşəbbüslər daxildir. 2023-cü ildə "Qırmızı kitab"ın üçüncü nəşrinin işıq üzü görməsi nadir flora və fauna növlərinin qeydiyyatı, eləcə də onların mühafizəsi üçün zəruri tədbirlərin görülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Hazırda bu istiqamətdə nəzarət mexanizmləri daha da gücləndirilr. Xüsusilə nadir növlərin monitorinqi və ekoloji təhlükəsizliyin təmin olunması məqsədilə müasir metodların tətbiqi genişləndirilir.

***Sonda Amin Məmmədov ekoloji sağlamlığın qorunmasında vətəndaş məsuliyyətinin həlledici amil olduğunu diqqətə çatdırdı:***

– Hər bir fərdin təbiət qarşısında vacib öhdəliyi yaşadığı mühitin qayğısına qalmaq, tullantıları yalnız təyin olunmuş yerlərə atmaq və resurslardan, xüsusən də sudan qənaətlə istifadə etməkdir. Vətəndaşlar ağacların qanunsuz kəsilməsi kimi neqativ hallarla rastlaşdıqda aidiyyəti qurumlara məlumat verməli, şəxsi təşəbbüsləri ilə yaşıllaşdırma işlərinə töhfə verməlidirlər. Ümumilikdə, fərdi ekoloji təfəkkürün inkişaf etdirilməsi və cəmiyyətin maariflənirilməsi dayanıqlı gələcək üçün başlıca şərtdir.

***Elenora HƏSƏNOVA***
***XQ***

# "Elektron resept" sisteminə keçid niyə ləngiyir?

## *Səhiyyədə rəqəmsallaşma sürətlənməyə möhtacdır*



**Azərbaycanda səhiyyənin rəqəmsallaşdırılması istiqamətində həyata keçirilən mühüm yeniliklərdən biri də elektron resept sisteminin tətbiqidir. Bu sistem vətəndaşların dərman əldə etməsi ilə bağlı prosesi sadələşdirməyi, dərman dövriyyəsinə nəzarəti gücləndirməyi və tibbi xidmətlərin keyfiyyətini artırmağı qarşıya mühüm məqsəd kimi qoyur.**

Lakin mövcud sahədə qazanılan bir sıra uğurlarla yanaşı, qanunvericilikdə müəyyən boşluqlar və tətbiq problemləri hələ də nəzərə çarpır. 2024-cü ilin yanvar ayından etibarən, respublikada elektron resept sisteminin fəaliyyətə başlaması isə sistemlə bağlı çətinliklərin aradan qaldırılması istiqamətdə atılan önəmli addımlardan biridir.

### Vaxt itkisi azalır, şəffaflıq artır

Elektron resept sistemi həkimə dərman yazarkən ölkə üzrə mövcud preparatlar, onların hansı apteklərdə olduğu və miqdarı barədə məlumat verir. Bu da həm həkim, həm də pasiyent üçün dərmanın tapılmasını xeyli asanlaşdırır. Bununla da xəstə əvvəlcədən təyin olunan dərmanın hansı aptekdə mövcud olduğunu və onun müəyyən resept kodu ilə həmin tibb müəssisəsindən əldə edəcəyini bilir. Başqa sözlə, elektron platforma həkimlərə dərman bazası barədə geniş məlumat verir, preparatların alternativ variantları haqqında bilgi real vaxt rejimində əlçatan olur. Bu isə müalicə prosesinin daha planlı və səmərəli təşkilinə əlverişli şərait yaradır.

Sistem həkimləri, tibb müəssisələrini və aptekləri vahid elektron platformada birləşdirir. Həkim pasiyentin əvvəl istifadə etdiyi dərmanları görə, yeni təyin olunan preparatların təsirini əvvəlkilərlə müqayisə edə bilir. Bu isə xəstə təhlükəsizliyinin artırılmasını və düzgün müalicə planının qurulmasını şərtləndirir.

Elektron reseptlər həkim – əczaçı əlaqəsini də asanlaşdırır. Əllə yazılan reseptlərdə rast gəlinən xəttin bəzən oxunmaması, dərman adlarının səhv başa düşülməsi və ya preparatların düzgün verilməməsi kimi narahatlıqlar elektron sistemdə tamamilə aradan qalxır. Bütün məlumatlar sistemdə dəqiq və standart formada öz əksini tapır. Eyni zamanda, bütün reseptlərin mərkəzləşdirilmiş şəkildə qeydiyyatı dövlət nəzarətini gücləndirir və qeyri-qanuni dərman dövriyyəsinin qarşısını almağa həlledici təsir göstərir.

Vətəndaş elektron reseptlərinə mobil telefon və ya internet üzərindən baxa, dərmanların əldə olunması prosesini daha rahat və şəffaf şəkildə həyata keçirə bilir. Qeyd edək ki, elektron resept sistemi səhiyyədə rəqəmsallaşmanın vacib tərkib hissəsi olmaqla, həm pasiyent məmnuniyyətini artırır, həm də dərman dövriyyəsinə nəzarəti gücləndirir.

Elektron resept sisteminin ən mühüm üstünlüklərindən biri də vaxt amilinə qənaət etməkdir. Belə ki, əvvəllər xəstə reseptlərlə bir neçə aptek dolaşmalı olur, bəzən isə təyin olunan dərmanı tapmaqda çətinlik çəkirdi. Yeni sistem isə bu prosesi əhəmiyyətli dərəcədə sadələşdirir. Başqa sözlə, həkim tərəfindən yazılan elektron resept xüsusi kod vasitəsilə sistemə daxil edilir və pasiyent həmin kodla birbaşa uyğun aptekdən zəruri ehtiyac duyulan dərmanı alır.

### "Kağızdan qopmaq" niyə çətindir?

Hazırda sistemin tətbiqində müəyyən uyğunsuzluqlar da nəzərə çarpır. Narahatlıq doğuran problemlərdən biri həkimlərin bir qisminin hələ də kağız reseptlərə üstünlük verməsidir. Bu, ilk növbədə, uzun illər formalaşan iş vərdişləri ilə bağlıdır. Əczaçıların sözlərinə görə, xüsusilə antibiotiklər, ürək-damar və mədə-bağırsaq dərmanları çox zaman kağız reseptlə yazılır. Nəticədə, xəstə resepti itirdikdə və ya unutduqda dərmanı əldə etmək çətinliyini yaşayır və müalicə prosesi gecikir.

**Əczaçı Rəhim Məmmədovun** sözlərinə görə, bəzi hallarda xəstə elektron resept olmadan aptekdən əvvəlki qaydada dərman almaq istəyir. Amma sistemə daxil edilən dərmanları kod olmadan vermək mümkün deyil. Bu zaman xəstə çıxılmaz vəziyyətdə qalır ki, bu da onun sağlamlıq vəziyyətinə mənfi təsir göstərir.

**Tibb üzrə ekspert Zakir Quliyev** isə hazırda elektron resept sisteminin texniki cəhətdən tam işlək səviyyədə fəaliyyət göstərdiyini və problemin əsasən insan səhvi ilə bağlı olduğunu bildirir. O qeyd edir ki, bir çox hallarda həkimlər uzun müddət kağız reseptlərlə işlədikləri üçün elektron qayda vərdişlərinə yiyələnməkdə çətinlik çəkirlər. Yeni sistemə keçid onlar üçün müəyyən problemlər yaradır. Başqa sözlə, texniki baxımdan sistem kifayət qədər işləkdir, lakin əsas problem insan amili ilə bağlıdır.

Həkimlərin elektron sistemə adaptasiyası, qeydiyyat prosedurları və yeni iş prinsiplərinə uyğunlaşma prosesi bəzən ləng gedir. Bundan əlavə, onlar bəzən sistemdə qeydiyyatdan keçən zaman çətinliklə üzləşirlər. Belə halda isə sistemi aktivləşdirmək üçün Səhiyyə Nazirliyinin müvafiq şöbələri ilə əlaqə saxlanılır. Eyni zamanda, xəstələrin elektron resept tələb etmək hüququ var və həkimlər onu verməyə borcludurlar.

**Əczaçı Qalib Məmmədov** bildirir ki, respublikada elektron resept sisteminə keçid prosesi davam etsə də, bu, hələ ki, bütün sahələri tam əhatə etmir. Hazırda həkimlərin bir hissəsi elektron resept sisteminə tam inteqrasiya olsa da, digərləri indiyədək müxtəlif səbəblərdən bu yenilikdən kənarda qalıb. Onun sözlərinə görə, xüsusilə psixotrop təsirli dərman preparatlarının dövriyyəsi artıq tam şəkildə elektron reseptlərlə tənzimlənir. Əsəb dərmanları və digər psixotrop təsirli ağrıkəsicilər artıq apteklərdə yalnız elektron resept əsasında buraxılır. Buna görə də həmin sahədə çalışan həkimlər bütün reseptləri məcburi şəkildə elektron formada yazırlar. Hazırda həmin preparatların dövriyyəsinə ciddi nəzarət olunur və bütün məlumatlar sistemdə qeydiyyata alınır.

Əczaçı qeyd edir ki, digər xəstəliklərin müalicəsində istifadə olunan preparatların böyük hissəsi hələ də kağız reseptlərlə verilir. Məsələn, ürək-damar, həzm sistemi və mədə-bağırsaq xəstəlikləri üçün istifadə olunan dərmanların əksəriyyəti hələ də kağız reseptlərlə buraxılır. Lakin yaxın zamanda həmin dərmanların da elektron resept sisteminə daxil ediləcəyi gözlənilir.

Q.Məmmədovun sözlərinə görə, elektron reseptlərin tətbiqi həm pasiyentlər, həm həkimlər, həm də apteklər üçün bir sıra mühüm üstünlüklər yaradır. Belə ki, elektron reseptdə məlumatlar sistemdə saxlanıldığı üçün xəstənin üzərində kağız daşımasına ehtiyac qalmır. Həkim isə xəstənin əvvəlki müalicə tarixçəsinə asanlıqla baxa bilir. Bu da müalicə prosesinin daha səmərəli və şəffaf təşkilinə imkan yaradır. Mütəxəssis hesab edir ki, dərman dövriyyəsinə nəzarətin gücləndirilməsi və şəffaflığın artırılması üçün elektron resept sisteminə tam keçid qaçılmazdır.

Səhiyyə Nazirliyi mətbuat xidmətinin məlumatına görə, elektron resept sisteminin tətbiqi geniş miqyaslı nəzarətlə müşayiət olunur. Platforma vasitəsilə verilən bütün reseptlər mərkəzləşdirilmiş şəkildə real vaxt rejimində qeyd olunur və izlənilir. Bu, şəffaflığı gerçəkləşdirir və hər bir reseptin kim tərəfindən nə vaxt və hansı səbəbdən verildiyini dəqiq müəyyən edir.

Tibb üzrə ekspertlər vurğulayırlar ki, həkimlər sistemdə qeydiyyatdan keçmədikləri və ya geniş istifadə etmədikləri üçün elektron reseptlərin tətbiqi tam reallaşmır. Halbuki qanunvericiliyə əsasən, pasiyentin elektron resept tələb etmək hüququ var və həkim bu tələbi gerçəkləşdirməlidir. Digər tərəfdən, vətəndaşların da məlumatlılıq səviyyəsi aşağıdır. Bir çox pasiyent elektron resept sisteminin mövcudluğundan xəbərsizdir və bu imkandan istifadə etmir.

Yeri gəlmişkən, vətəndaş çox zaman hansı dərmanın daha keyfiyyətli olmasını müəyyən edə bilmədiyindən aptek işçisinin yönləndirməsindən asılı vəziyyətə düşür, eyni zamanda, bu sahədə nəzarət mexanizmlərinin zəifliyi, istehlakçı hüquqların, eləcə də şəffaflığın real təmin edilmədiyi səbəbindən onun səhiyyə sisteminə inamı azalır.

Mütəxəssislərin fikrincə, elektron resept sisteminin tam tətbiqi ilə bu mənfi meyilin aradan qaldırılmasına böyük inan bəslənilir və həmin sistemdə yaxın perspektivdə hər bir dərmanın qeydiyyata alınması məqsədilə istehsalçının hazırladığı geniş məlumat dosyesinin yerləşdiriləcəyi, orada dərmanın tərkibi, təsir mexanizmi, klinik nəticələri və potensial riskləri barədə ətraflı məlumat veriləcəyi gözlənilir. Təqdim olunan məlumatların isə müstəqil ekspertlər tərəfindən çoxmərhələli şəkildə yoxlanılacağı deyilir.

Mövcud vəziyyət isə göstərir ki, problem çoxşaxəlidir və yalnız bir istiqamətdə həll edilə bilməz. Burada həm dövlət nəzarətinin gücləndirilməsi, həm aptek şəbəkələrində qaydalara riayət olunması, həm də vətəndaşların maariflənirilməsi vacibdir. Saxta dərman dövriyyəsinin qarşısının alınması üçün idxal mexanizmləri daha da sərtləşdirilməli, eyni zamanda, reseptsiz dərman satışına nəzarət gücləndirilməlidir.

### Gör-götür dünyası

Beynəlxalq təcrübə göstərir ki, elektron resept sistemi təkcə texnologiyanın tətbiqi ilə deyil, həm də onun tam və məcburi şəkildə inteqrasiyası ilə səmərəli olur. Məsələn, Estoniyada səhiyyə sistemi tam rəqəmsallaşdırılıb və reseptlərin, demək olar ki, hamısı elektron formada verilir. Belə ki, vətəndaş istənilən aptekə müraciət edərək şəxsiyyət identifikasiyası ilə dərmanlarını ala bilir.

Skandinaviya ölkələrində, xüsusilə Finlandiya və İsveçdə elektron reseptlər vahid səhiyyə məlumat bazasına inteqrasiya olunub. Həkimlər xəstənin bütün tibbi tarixçəsini görə bildiyi üçün dərman təyinatında səhv ehtimalı minimuma enir. Böyük Britaniyada isə Elektron Resept Xidməti çərçivəsində reseptlər birbaşa seçilmiş aptekə göndərilir.

Bu model xəstənin əlavə vaxt itirməsinin qarşısını alır və prosesi tam avtomatlaşdırır. ABŞ-da isə elektron resept sistemi geniş tətbiq olunsa da, səhiyyə sisteminin parçalanmış strukturu səbəbindən vahid inteqrasiya səviyyəsi daha aşağıdır. Buna baxmayaraq, sığorta şirkətləri və apteklər arasında əlaqə yüksək səviyyədədir.

Azərbaycan üçün çıxış yolu barədə fikir bildirən tibb üzrə ekspertlər qeyd edirlər ki, respublikada elektron resept sistemi artıq formalaşıb, lakin onun tam səmərəli işləməsi üçün əlavə tədbirlərə ehtiyac var. İlk növbədə, elektron reseptlərin istifadəsi bütün tibb müəssisələrində məcburi xarakter almalıdır. Paralel olaraq, həkimlərin rəqəmsal bacarıqları artırılmalı və onlara texniki dəstək gücləndirilməlidir.

Digər mühüm istiqamət maariflənirməədir. Vətəndaşlara elektron reseptlərin üstünlükləri izah edilməli, onların bu xidmətdən istifadə etmələri təşviq olunmalıdır. Eyni zamanda, sistemin fəaliyyət dairəsi genişləndirilməli, mobil tətbiqlər inkişaf etdirilməli və dərman bazası daha da optimallaşdırılmalıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri**

Elektron resept sistemi, fikrimcə, tam fəaliyyətə başlayandan sonra səhiyyə sistemində, eləcə də farmakologiya sektorunda müsbət yönlü ciddi dəyişikliklər baş verəcək. Belə ki, həm dərmanlara tələbatın qarşılanması, həm də reseptlərin idarə olunması şəffaflıqla müşayiət ediləcək və bu proseslər zamanı sui-istifadəyə yol verilməsi halları aradan qaldırılacaq. Belə bir şərait isə qiymət siyasətində ən əlverişli variantın seçilməsini və bu istiqamətdə ciddi nəzarət mexanizmlərinin qurulmasını şərtləndirəcək.

Sistemin tam işə salınması yuxarıda qeyd edilənlərlə bərabər, bu sahədə idarəetmənin təkmilləşdirilməsini, eləcə də şəffaflaşdırılmasını sürətləndirəcək, eyni zamanda, maliyyə axınlarının izlənilməsinə əlverişli imkan yaradacaq. Bu yenilik, eyni zamanda, ciddi rəqabət mühiti yaradaraq dərmanların daha optimal qiymətə satışını şərtləndirərək bu sahədə sui-istifadə hallarının, keyfiyyətsiz dərman məhsullarının istehlakçıya təqdim olunmasının qarşısını alacaq, preparatların bahalaşmanın qarşısının alınmasına müəyyən qədər təsir göstərəcək.

Elektron resept sistemi həm də zəruri ehtiyac duyulan dərmanların ölkəyə idxalını asanlaşdıracaq. Digər tərəfdən, bu yenilik nəticəsində tibb işçilərinin, həkimlərin fəaliyyəti daha da təkmilləşəcək.

Elektron resept sistemi səhiyyədə şəffaflığın artırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və vətəndaş rahatlığının təmin edilməsi baxımından mühüm addımdır. Lakin bu sistemin real səmərəliliyi təkcə onun tam tətbiqi və bütün iştirakçıların – həkimlərin, əczaçıların və pasiyentlərin fəal iştirakı ilə mümkündür. Əks halda, elektron reseptlər kağız reseptlərin sadəcə alternativi olaraq qalacaq və gözlənilən nəticələri verməyəcək. Rəqəmsallaşma artıq seçim deyil, zərurətdir. Bu zərurətin nə dərəcədə səmərəli idarə olunacağı isə səhiyyə sisteminin gələcək keyfiyyətini müəyyənləşdirəcək əsas amillərdən biri olacaq.

# Ermənilər soyqırımına məruz qalmayıb, soyqırımı törədiblər

## *1918-ci ilin Mart qırğınları zamanı Azərbaycanın məruz qaldığı qətliamın mənzərəsi*

**Ermənilər 24 aprel tarixini türklər tərəfindən soyqırımına məruz qaldıqları gün kimi qeyd edir və bu məsələni hər il beynəlxalq aləmdə gündəmə gətirməyə çalışırlar. Halbuki Birinci Dünya müharibəsi tarixinin tədqiqi ilə məşğul olan, ciddi və obyektivliyi ilə seçilən tarixçilərin gəldiyi ümumi fikir ondan ibarətdir ki, 1915-ci ildə ermənilərə qarşı onların iddia etdikləri soyqırımı hadisəsi baş verməyib.**



**Vasif QAFAROV,**
*Milli Məclisin deputatı,*
*tarix elmləri doktoru*

Bəs 1915-ci il 24 apreldə nə baş verib? Həmin gün Osmanlı hakimiyyət orqanları türklərə qarşı terror, qırğın və qətl hazırlamaqda şübhəli bilinən yüzlərlə ermənini həbs edib və erməni komitələrinin fəaliyyətinə son veriblər. Bu hadisə ermənilərin türklərə qarşı planladıqları sistemli soyqırımı cinayətlərinin qarşısını almaq və əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Osmanlı hökumətinin atdığı qabaqlayıcı müdafiə tədbiri idi. Burada hansısa bir ermənin öldürülməsindən və ya hansısa erməniyə qarşı hər hansı bir cinayət hadisəsindən söhbət gedə bilməz.

Bunun ardınca 27 may 1915-ci ildə Osmanlı hökuməti tərəfindən Təhcir Qanunu (rəsmi adı ilə "Sevk ve İskân Kanunu") qəbul edilib və bu qanuna görə, müharibə şəraitində təbəəsi olduğu dövlətə xəyanət edib, rus ordusu ilə əməkdaşlıq edən, üsyan qaldıran, türk əhalisinə qarşı qırğın və qətllər törətməkdə olan erməni əhalisinin Şərqi Anadolu bölgələrindən imperiyanın cənub bölgələrinə (Suriya və İraqa) köçürülməsi nəzərdə tutulurdu. Bəhs edilən dövrün və həyata keçirilən köçürülmə prosesinin bütün sənədləri bu gün Osmanlı arxivində tədqiqatçıların üzünə açıqdır. Həmin sənədlərlə tanış olan hər bir tarixçi-tədqiqatçı belə bir yekun fikrə gəlir ki, bu prosesdə ermənilərə qarşı hansısa bir soyqırımı cinayətindən əsla söhbət gedə bilməz. Köçürülmə prosesi dövlət orqanları tərəfindən erməni əhalisinin əmlakı belə siyahıya alınmaqla və onların təhlükəsizliyi və hüquqları təmin edilməklə həyata keçirilib.

Birinci Dünya müharibəsi dövrü ilə bağlı arxiv sənədlərinin tədqiqi göstərir ki, bəhs edilən dövrdə əslində ermənilər soyqırımına məruz qalan deyil, böyük bir coğrafiyada – Şərqi Anadoluda, Cənubi Qafqazda və Cənubi Azərbaycan ərazilərində türk-müsəlmanlara qarşı sistemli amansız soyqırımı cinayətlərini həyata keçiriblər. Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətləri daha sistemli şəkildə həyata keçirilib və daha uzun müddət davam edib.

XX əsrdə ermənilər tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır sarsıntılara, məhrumiyyətlərə və məşəqqətlərə məruz qalıb. Ermənilərin həyata keçirdiyi və mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasəti nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından – Qərbi Azərbaycandan didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb məhv edilib.

Ermənilərin türk-müsəlmanlara qarşı apardığı soyqırımı siyasəti dünyada mövcud olan eyni hallardan, yəni soyqırımı və kütləvi qətliam siyasətlərindən bir sıra cəhətlərinə görə əsaslı şəkildə fərqlənir. Dünya tarixində mövcud olan soyqırımı hadisələrindən heç biri ermənilərin türk-müsəlmanlara qarşı həyata keçirdikləri kütləvi məhvetmə siyasəti qədər uzunmüddətli olmayıb. XIX əsrdən başlayan ermənilərin türk-müsəlmanlara qarşı soyqırımı siyasəti XX əsrin sonlarına qədər davam edib və bu gün də biz bunun ağır nəticələrini yaşamaqdayıq. Bu qədər uzun müddətdə heç bir xalqa, etnik birliyə qarşı soyqırımı siyasəti aparılmayıb.

Son 200 il ərzində öncə çar Rusiyasının, sonra isə Sovet Rusiyasının və SSRİ-nin apardığı ermənipərəst siyasət nəticəsində Cənubi Qafqazda demoqrafik vəziyyət kəskin şəkildə dəyişdirilib, azərbaycanlılar öz tarixi torpaqlarından, doğma yurdlarından sıxışdırılıb çıxarılıblar. Təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə – 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1994-cü illərdə soyqırımı, təqib və deportasiyalara məruz qalıb, öz tarixi torpaqlarından didərgin salınıblar.

1828-ci il Türkmənçay müqaviləsi ilə Rusiyaya ilhaq edilən İrəvan və Naxçıvan xanlıqları dərhal ləğv edildi və Rusiya imperatoru I Nikolayın fərmanı ilə bu xanlıqların ərazisində qondarma "erməni vilayəti" yaradıldı. Qərara alındı ki, İran və Osmanlı ərazilərindən köçürüləcək ermənilər bu ərazidə, eyni zamanda, Qarabağ ərazisində yerləşdirilsin və onların simasında Cənubi Qafqaz bölgəsində Rusiya üçün ictimai dayaq yaratmaq xətti götürülsün.

Rusiya ilə İran arasında 1828-ci il Türkmənçay və Rusiya ilə Osmanlı dövləti arasında 1829-cu il Ədirnə sülh müqavilələrinin imzalanmasından sonra İran ərazisindən 8249 erməni ailəsi (65 min nəfərdən çox), Osmanlı ərazisindən isə 14 min 44 erməni ailəsi (110 min nəfərdən çox) köçürülərək Şimali Azərbaycan ərazisində məskunlaşdırıldı və onlar Rusiya hökuməti tərəfindən himayə edildi. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların sayı 200 mindən çox idi.

XIX əsr boyu həyata keçirilən köçlər hesabına XX əsrin əvvəllərində Cənubi Qafqazda ermənilərin sayı 1 milyonu keçdi. Tanınmış rus tədqiqatçısı Nikolay Şavrov 1911-ci ildə nəşr etdiyi "Zaqafqaziyada ruslar üçün yeni təhlükə. Muğanın yadlara satılacağı ehtimalı" əsərində haqlı olaraq qeyd edirdi ki, "hazırda Cənubi Qafqazda yaşayan 1,3 milyon ermənin 1 milyondan çoxu yerli əhali deyildir, onları biz bura köçürüb gətirmişik". Bu köçürmələr hesabına Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrində əhalinin etnik tərkibi süni şəkildə dəyişdirildi və ermənilərin gələcək ərazi iddialarının əsası qoyuldu.

Rusiyanın hərtərəfli dəstəyi və yaratdığı əlverişli şərait ilə ermənilər sonradan İrəvan, Zəngəzur və Qarabağ bölgələrində möhkəmlənə bildilər və Azərbaycan üçün həlli müşkül olan bir problemə çevrildilər. Çar Rusiyasından hərtərəfli dəstək alan ermənilər XIX əsrin sonlarından etibarən sərsəm "böyük Ermənistan" ideyasını reallaşdırmaq uğrunda açıq mübarizəyə başladılar. Bu ideyanın əsas tərkib hissələrindən biri də Qarabağ, İrəvan, Naxçıvan və digər Azərbaycan torpaqlarının yerli – azərbaycanlı əhalisini məhv etmək və onların yaşadıqları torpaqları ələ keçirməkdən ibarət idi.

Ermənilərin 1890-cı illərdən başlayaraq Osmanlı dövlətinə qarşı qaldırdıqları xəyanətkar qiyamlar uğursuzluğa düçar olduqdan sonra bu mübarizənin mərkəzi Azərbaycana keçdi. 1905-1907-ci illərdə ermənilər azərbaycanlılara qarşı azərbaycanlıların yaşadığı bütün məntəqələri əhatə edən irimiqyaslı qanlı əməliyyatlar həyata keçirdilər, yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, minlərlə azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. Məqsəd bu bölgələrdə yaşayan türk-müsəlmanları qırmaqla gələcəkdə erməni dövləti yaratmaq üçün zəmin hazırlamaq idi. Bu illərdə təkcə İrəvan quberniyasında 200, Gəncə quberniyasında isə 300-dən çox müsəlman kəndi ermənilər tərəfindən yerlə-yeksan edildi, əhalisi soyqırımına məruz qaldı. Lakin 1905-1907-ci illərdə törətdikləri qırğınlar da erməniləri sakitləşdirmədi. Onlar Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edərək yenidən mifik "böyük Ermənistan" dövləti yaratmağa cəhd göstərdilər.

1915-ci ildə Osmanlı dövlətinə qarşı qaldırdıqları yeni qiyamlarda uğursuzluğa düçar olan ermənilər əsas qüvvələrini Cənubi Qafqazda cəmləşdirdilər və çarizmin himayəsinə sığınaraq türklərə qarşı soyqırımları davam etdirməyə başladılar. 1917-ci ilin fevralında Rusiyada çar hökumətinin devrilməsi, sonra da 1917-ci ilin oktyabrında bolşeviklərin hakimiyyəti ələ alması ilə Cənubi Qafqazda yaranan anarxiya şəraitində uzun tarixi dövr ərzində Rusiya ordusunda xidmət edən erməni silahlı dəstələri daşnak-bolşevik güruhu ilə birləşərək azərbaycanlılara qarşı soyqırımların daha dəhşətli dövrünü başlatdılar.

1918-ci ildə daşnak-bolşevik alyansı tərəfindən Azərbaycan xalqına qarşı tarixin ən dəhşətli soyqırımlarından biri həyata keçirildi. 1917-1918-ci illərdə Cənubi Qafqazda milli azadlıq hərəkatının genişləndiyi bir şəraitdə Azərbaycan xalqı da ölkənin muxtariyyəti və müstəqilliyi uğrunda mübarizəyə başlamışdı. 1918-ci ilin martında daşnak-bolşevik birləşmələri tərəfindən Bakıda törədilən soyqırımı aktı da başlıca olaraq Azərbaycanın muxtariyyəti və müstəqilliyi əleyhinə yönəlmişdi. Bu soyqırımının törədilməsində əsas məqsəd xalqımızın Azərbaycanın muxtariyyəti və müstəqilliyi uğrunda apardığı mübarizəyə divan tutmaq və bu prosesin qarşısını almaqdan ibarət idi. Siyasi baxışlarında kəskin fərqlər olmasına baxmayaraq, Bakıda fəaliyyət göstərən bütün rus və erməni siyasi partiya və təşkilatları "Bakını Azərbaycanın paytaxtı elan etmək istəyən" türk-müsəlmanlara qarşı vahid cəbhədə birləşdilər. Məhz rus-erməni əməkdaşlığı ilə 1918-ci ildə, demək olar ki, bütün Azərbaycan boyu həyata keçirilən soyqırımı aktları nəticəsində 130 minə yaxın türk-müsəlman qadın, qoca, uşaq fərq qoyulmadan sırf irqi, milli və dini əlamətlərinə görə qətlə yetirildi, insan cəsədləri üzərində olmazın təhqiramiz hərəkətlər edildi və əhalinin əmlakı talan edildi, yüz minlərlə insan qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum edildi.



Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayətlərini araşdırmaq üçün Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının (FTK) sənədlərindən aydın olur ki, Bakıda törədiləcək soyqırımın planı hələ 1917-ci ildə "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası tərəfindən hazırlanmışdır. FTK tərəfindən şahid kimi dindirilmiş Bakı şəhər sakini A.N.Kvasnikin ifadəsində deyir: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə onun ətraflarında cismən məhv edilməsi, onların əmlakının və bütün var-dövlətlərinin qarət olunması və siyasi üstünlüyün ermənilərin əlinə keçməsi ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi". FTK-nın materiallarında tam sübuta yetirilir ki, insanlar sırf dini və milli mənsubiyyətlərinə görə kütləvi şəkildə qətlə yetirilib. Eyni zamanda, insanlar əzab və işgəncə ilə qətlə yetirilib, öldürüldükdən sonra isə onların meyitləri üzərində iyrənc zorakılıq aktları törədilib. Müsəlman meyitlərinin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən onlarla sənəd mövcuddur.

1918-ci ildə daşnak-bolşevik alyansı tərəfindən Cənubi Qafqazda azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı aktları əsas etibarilə Bakı, Yelizavetpol (Gəncə) və İrəvan quberniyaları ərazisini əhatə edib. Bu soyqırımları nəticəsində quberniya və qəzalar üzrə Azərbaycanın məruz qaldığı itki və tələfatlar aşağıdakı kimidir:

1918-ci ildə bütün Bakı quberniyası üzrə (Bakı, Cavad, Göyçay, Quba, Lənkəran və Şamaxı qəzalarında) azərbaycanlılara qarşı soyqırımı törədilib.

### Bakı soyqırımı

1918-ci ilin Mart soyqırımı zamanı FTK-nın ümumiləşdirdiyi hesabata görə, 3 gün ərzində (18-21 mart (30 mart – 2 aprel) 1918-ci il) təkcə Bakıda 12 min azərbaycanlı öldürülüb, kütləvi formada insan cəsədləri iyrənc və dəhşətli şəkildə təhqir edilib. Ümumi olaraq, Bakıda azərbaycanlı əhaliyə 1918-ci ilin mart qiymətləri ilə 400 milyon rubl, 1918-ci ilin son rübünün qiymətləri ilə isə 1 milyard 200 milyon rubl maddi zərər vurulub. Bütün bunlar FTK-nın təhqiqat materialları əsasında şahid ifadələri, təftiş və ekspertiza protokolları ilə təsdiq edilib və çoxlu sayda yanmış ev və daha çox işgəncələrə məruz qalmış cəsədlərin fotoşəkilləri çəkilərək təhqiqat işinə əlavə edilib. Əhalinin xüsusi qəddarlıqla qətlə yetirilməsi, öldürülən insanların üzərində təhqiramiz hərəkətlərin həyata keçirilməsi kimi faktlar soyqırımın milli-etnik zəmində baş verdiyini sübut edir.

1918-ci ildə Böyük Britaniyanın Bakıdakı konsulluğunun tərtib etdiyi materiallarda Mart soyqırımı zamanı 20 min müsəlmanın qətlə yetirildiyi bildirilir. Həmin dövrdə İranın Bakıda konsulu olan Məhəmməd Saed Əl-Vəzarə Marağayi isə çap etdirdiyi xatirələrində göstərir ki, yalnız İran konsulluğu Mart hadisələri baş verəndə qətlə yetirilən 5 min nəfər müsəlmanı dəfn edib. Əlbəttə ki, rəqəmlərdə uyğunsuzluq insanların kütləvi şəkildə qətlə yetirilməsi və onların dəqiq sayının müəyyən edilməsinin mümkünsüz olduğundan xəbər verir. Şəhərin Məhəmmədli və Zibillidərə məhəllələrində yaşayan müsəlman əhali son nəfərinə qədər məhv edilib. FTK bu məhəllələrdə hadisələrlə bağlı ifadə almaq üçün bir nəfər belə tapa bilməyib. Britaniya konsulu sənədlərdən birində yazırdı ki, "ermənilər bu hərəkətləri ilə tarixlərinin ən böyük səhvini etmiş oldular... Bu siyasətə görə bütün məsuliyyəti "Daşnaksütyun" daşıyır".

Bakı şəhəri ilə yanaşı, Bakının kənd və qəsəbələri də ermənilər tərəfindən törədilən soyqırımı və talanlara məruz qalıb. 1918-ci ilin mart-sentyabr ayları ərzində Bakı ətrafı Məhəmmədli, Əhmədli, Balaxanı, Hökməli, Binəqədi, Zabrat, Sabunçu, Ramana, Bibiheybət, Xırdalan kəndləri də soyqırımı və talanlara məruz qalıb, bu kəndlərdə müsəlman əhali öldürülüb, qarət olunub, evlər, dükanlar, məscidlər və digər ictimai binalar dağıdılıb və yandırılıb. FTK-nın sədri Ələkbər bəy Xasməmmədovun hökumətə məruzəsində göstərilir ki, 1918-ci ilin Mart hadisələrindən sonra Bakıda ermənilərlə müsəlmanlar arasında sülh haqqında sazişə gəlindiyinə baxmayaraq, həmin il sentyabrın 15-də Bakının Osmanlı və Azərbaycan hərbi qüvvələri tərəfindən azad edilməsinə qədər ermənilər müntəzəm olaraq Bakı küçələrində, şəhərin ətraf kəndlərinə gedən yollarda türk-müsəlmanları tutub qətlə yetirir, meyidlərin bir hissəsini isə quyulara və dənizə atırdılar.

Bakı şəhərində başlanan azərbaycanlıların soyqırımı aktı Bakı quberniyasının digər qəzalarında və bütövlükdə bütün Azərbaycan üzrə davam etdirildi.

### Cavad soyqırımı

FTK-nın sənədlərinə görə, Bakı quberniyasının Cavad qəzasında daşnak-bolşevik qüvvələri tərəfindən 31 kənd soyqırıma məruz qoyulub, dağıdılıb və yandırılıb, 157 nəfər (19 kişi, 9 qadın, 8 uşaq, 121 nəfərin isə cinsi və yaşı göstərilməyib) xüsusi amansızlıqla qətlə yetirilib. Canlarını qurtarmaq üçün digər yerlərə qaçanlardan da 192 nəfər aclıq, soyuq və xəstəlikdən ölüb. Ümumilikdə Cavad qəzasının 31 kəndi üzrə müsəlman əhalisinə 155 milyon rubl dəyərində maddi ziyan vurulub. Təbii ki, bu rəqəmlər Cavad qəzasında törədilən soyqırımına miqyasını tam əks etdirmir. Çünki FTK-nın təhqiqat materiallarında və yekun hesabatlarında qəza üzrə bir neçə kənddə törədilən soyqırımı aktları ilə bağlı rəqəmlər verilir, digər kəndlərin isə sadəcə adları sadalanır və bu kəndlərin tamamilə dağıdılması və yandırılması, əhalisinin isə xüsusi işgəncə və qəddarlıqla soyqırımına məruz qaldığı qeyd edilir. FTK-nın sənəd və materiallarına əsaslandığımız üçün biz sadəcə təhqiqat materiallarında olan rəqəmlərə istinad edirik. Bu halda da, soyqırımına məruz qalan kəndlər sırasında adları sadalanan, amma soyqırımın miqyasını əks etdirən rəqəmlər olmadığından təbii ki, adları çəkilən kəndlərdə törədilən soyqırımların nəticələri bizim hesabladığımız yekun rəqəmlərə daxil deyildir.

### Göyçay soyqırımı

FTK-nın apardığı təhqiqatın nəticələrinə görə, Bakı quberniyasının Göyçay qəzasının təkcə 8 kəndi üzrə 119 nəfər (98 kişi, 9 qadın, 5 uşaq, 7 nəfərin isə cinsi və yaşı göstərilməyib) vəhşicəsinə öldürülüb, 565 ev və tikili yandırılıb və müsəlman əhalinin əmlakına ən azı 50 milyon rubl maddi ziyan vurulub. Digər yerlərə qaçanlar arasında aclıq və xəstəlikdən ölənlərin sayını dəqiqləşdirmək mümkün olmayıb. Onu qeyd edək ki, FTK Göyçay qəzasında erməni təcavüzünə məruz qalan kəndlərin cəmi bir neçəsində təhqiqat apara bilib, qalanları isə təhqiqatdan kənarda qalıb.

### Quba soyqırımı

FTK-nın materiallarından məlum olur ki, 1918-ci il mayın 1-də Bakı quberniyasının Quba qəzasına girən Amazaspın rəhbərlik etdiyi daşnak silahlı birləşmələrinin Quba şəhərində silahsız dinc əhaliyə azğınlıqla divan tutması nəticəsində şəhər tamamilə viran edilib, 2800 türk-müsəlman öldürülüb və əhaliyə 128 milyon 500 min rubl maddi ziyan vurulub.

Bununla yanaşı, Quba qəzasının 168 müsəlman kəndi erməni hücumuna məruz qalıb və dağıdılıb, bu kəndlərdə 1361 nəfər dinc sakin öldürülüb və əhalinin əmlakına 58 milyon 121 min 59 rubl maddi ziyan vurulub. Yaralıların, sonradan ölənlərin, eyni zamanda, qorxudan və sərgərdanlıq vaxtı ölənlərin sayı müəyyən edilməyib. FTK-nın ümumiləşdirdiyi rəqəmlərə görə, bütövlükdə Quba qəzası üzrə 4261 nəfər türk-müsəlman öldürülüb və müsəlman əhalisinə 186 milyon 621min 59 rubl maddi ziyan vurulub.

O da qeyd olunmalıdır ki, FTK-nın əməkdaşları Quba qəzasında cəmi 10 gün təhqiqat apara bilib, nəticədə, ermənilərin törətdiyi soyqırımı qurbanlarının hamısını təhqiqata cəlb edə bilməyib və təhqiqat işi yarımçıq qalıb. Ayrı-ayrı mənbələrdə bu soyqırımı aktları zamanı Quba qəzasında ümumilikdə 16 min türk-müsəlmanın qətlə yetirildiyi qeyd edilir. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələrinin Quba qəzasında dağıtdığı və soyqırımına məruz qoyduğu 168 kəndin 35-i yer üzündən silinib.

2007-ci ildə Qubada aşkar edilən kütləvi insan məzarlığı buna sübutdur. Lakin törədilən soyqırımının sənədlərdən anlaşılan miqyası onu deməyə əsas verir ki, bu kimi məzarlıqlar qəza ərazisində onlarladır.

### Lənkəran soyqırımı

1918-ci il soyqırımları zamanı Lənkəran qəzasında 40-dan çox kənd yandırılıb və dağıdılıb, minlərlə günahsız insan qətlə yetirilib. Evlərə girən erməni silahlı birləşmələri qadın, qoca, uşağa fərq qoymadan qarşılarına çıxan hər bir kəsi xüsusi amansızlıqla qətlə yetiriblər. Bir gün ərzində Gərmətük kəndində 70-dək, Mamusta kəndində 30-dək, Kərgəlan kəndində 40-dək, Sütəmurdov kəndində 20-dən çox, Girdəni kəndində 20-dək günahsız insan xüsusi amansızlıqla qətlə yetirilib. Astara erməni-bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edilib, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur olub. 1918-ci ilin yanvarından 1919-cu ilin avqustuna – "Molokan qiyamı" yatırılana qədər erməni və rus birləşmələri tərəfindən Lənkəran qəzasında 2 mindən çox insanın həyatına son qoyulub, əhaliyə 100 milyon rubldan artıq maddi ziyan vurulub.

### Şamaxı soyqırımı

Bakı quberniyasının Şamaxı şəhərində və Şamaxı qəzasının kəndlərində türk-müsəlman əhalinin soyqırımını törətmək planı daşnak-bolşevik qüvvələri tərəfindən 1918-ci ilin Mart hadisələri zamanı hazırlanıb və Şamaxı şəhəri mart-aprel aylarında iki dəfə, Şamaxı qəzasının 110 kəndi isə mart-iyul ayları ərzində bir neçə dəfə hücum və talanlara məruz qalıb.

Birləşmiş erməni-bolşevik-molokan silahlı qüvvələrinin Şamaxı şəhərində ilk hücumu 1918-ci il martın 29-da sübh çağı, yatmış şəhərin top atəşinə tutulması ilə başlayıb. Şəhərin müsəlman məhəllələrinə hər tərəfdən edilən hücumlar nəticəsində əhali şəhərdən kənara çıxa bilməyib və erməni-bolşevik birləşmələri əhalini kütləvi surətdə qətlə yetiriblər. Stepan Lalayevin və Tatevos Əmirovun başçılıq etdiyi erməni-bolşevik birləşmələri müsəlmanları soyub-talayıb və qadın, qoca, uşağa fərq qoymadan hamısını qırıblar. Şəhərin ən abad hissəsi olan, zəngin müsəlmanların yaşadıqları "Piran-Şirvan" məhəllələri tamamilə talan edilib və yandırılıb. Şamaxı şəhərinin müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulub, şəhərin 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq – 800 illik tarixi olan Cümə məscidi yandırılıb.

**(ardı var)**

*Hüseyn Əliyev – 115*

**İlk növbədə, qəzetçi-rəssam kimi tanınmış Hüseyn Əliyev Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindən olub. Qəzetçiliyin texniki tələbləri, ikiqat məsuliyyət onun əlini fırçadan qətiyyən soyutmayıb. Əsasən, qrafik janrla bağlı gündəlik fəaliyyətə baxmayaraq, bədii təxəyyülünün bəhrələrini də yağlı boya ilə kətana köçürmək üçün daim yaradıcılıq axtarışı aparıb və bu sahədə də uğurlar qazanıb.**

# “Molla Nəsrəddin”dən başlanan təsviri sənət yolu

## *Hüseyn Əliyev yarım əsrdən çox “Xalq qəzeti”nin baş rəssamı olub*



Onun tərcümeyi-halının yarım əsrdən çox dövrü baş rəssamı və bədii tərtibat şöbəsinin müdiri olduğu “Kommunist” qəzeti ilə (indiki “Xalq qəzeti”) bağlı olsa da, sənətdə pərvəriş tapmasına görə özünü, ilk növbədə, “Molla Nəsrəddin”ə borclu sayırdı. Çünki ilk rəsmləri məhz bu jurnalda işıq üzü görüb. Böyük demokrat ədib Cəlil Məmmədquluzadə ilə rəssam Əzim Əzimzadə Hüseynin karikaturalarını çox bəyəniblər, o da bundan ruhlanaraq sənətə ömürlük bağlanıb.

Hüseyn Əlirza oğlu Əliyev 1911-ci il aprel ayının 22-də Zəngəzur qəzasının Comərdli kəndində anadan olub. Bahar fəslinin övladı kimi təbiət gözəlliklərinin vurğunu olub, 12 yaşında ikən çəkdiyi ilk rəsmdə qədim Qarakilsənin təbiət mənzərəsini akvarel janrında əks etdirib. Bakıda Rəssamlıq Texnikumunu bitirəndən sonra Leninqrad Rəngkarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunun nəzdindəki üçillik xüsusi kursda təhsil alıb.

O, 1939-cu ildə Mirzə Fətəli Axundovun portretini yaratmaq üçün elan edilmiş respublika müsabiqəsində mükafata layiq görülüb. Dövrün, zamanın tələbləri ilə bağlı çəkdiyi onlarca plakatı ictimai-siyasi məzmununa, sadəliyinə və orijinal həllinə görə fərqlənib.

İkinci Dünya müharibəsi başlananda Hüseyn Əliyev Daxili İşlər Nazirliyinin tabeliyindəki bədii təşviqat alayında qulluq edib və dəfələrlə ön cəbhəyə yollanıb. Neçə-neçə qəhrəman döyüşçünün portretini yaradıb, müharibə mövzusunda plakatlar hazırlayıb, təcavüzkar hitlerçilərin karikaturalarını çəkib. Bu xidmətlərinə görə “Xalqlar dostluğu” ordeni və medallarla təltif olunub.

Hüseyn Əliyev 1944-cü ilin avqust ayında “Kommunist” qəzetinin redaktoru, böyük yazıçı Əli Vəliyevin köməkliyi ilə yenidən redaksiyaya qayıdıb və təqaüdə çıxanadək burada çalışıb. Rəsm əsərləri çəkməklə yanaşı, müxtəlif mövzuda



məqalələr də yazıb. Həmkarları və dostları onu istedadlı rəssam və təvazökar ziyalı kimi dəyərləndiriblər.

Xalq rəssamı Tahir Salahov öz xatirələrində yazıb: “Qəlbimdə Hüseyn Əliyevin işıqlı, cazibəli xatirəsi yaşayır. O, Azərbaycan rəssamlıq ənənəsini Bəhruz Kəngərli və Əzim Əzimzadədən bəhrələnərək davam etdirmişdir. Biz nəsil rəssamlar incəsənətə xeyli sonralar gəlmişik. Həmişə bu qocaman ağsaqqalımıza minnətdarlıqla yanaşır, onun yaradıcılığını və mədəniyyətə gətirdiyi yeni nəfəsi yüksək qiymətləndiririk. O, rənglərlə işləməyin ustası idi. Xüsusilə də məzmunun mənasını açmağa kömək edən atribut və rəmzləri öz əsərlərində məharətlə tətbiq edirdi. Onun rənglərində musiqinin ritmi və ahəngi duyulurdu. Bu canlılıq hər rəssama xas olmur”.

Uşaqlıqdan yaddaşında həmişəlik iz salmış füsunkar təbiət gözəllikləri tanınmış rəssamı hər zaman ilhamlandırıb. Onun mötəbər sərgilərdə nümayiş etdirilmiş əsərləri arasında doğma Comərdli kəndində çəkdiyi “Yəhər Təpə” və “Mahmud bulağı” tabloları özünəməxsus yer tutub. “İlanlı dağ” tablosu, “Urud qalası” peyzajı, eləcə də “Zəngəzur dağları”, “Şəki şəlaləsi”, “Comərdli”, “Meşədə qış”, “Payız”, “Qürub çağı” kimi əsərləri incə müşahidə qabiliyyətinin məhsulu idi. Təsadüfi deyil ki, onun haqqında çəkilmiş “Hüseyn Əliyev” adlı 4 dəqiqəlik film-etüd, sanki, Azərbaycanın dilbər guşələrinə unudulmaz bir səyahət təsiri bağışlayır.

“Göygöl mənzərələri” adı ilə çap olunmuş rəsm albomunda 17 əsərinin reproduksiyası təqdim edilib. Qurduğu kompozisiyalar, rəng ötürmələri, koloritlik öz bənzərsizliyi ilə seçilirdi. İki il ərzində Kəpəz dağının 25 akvarel görünüşünü kətana naxışlayan Hüseyn Əliyev həqiqətən möcüzə yaradıb. Xalq rəssamı Mikayıl



Abdullayev sənət dostunun bu uğurunu heyrətlə dilə gətirərək deyib ki, dünya təcrübəsində yalnız italyan rəssam bir dağın 10 fərqli görünüşünü çəkə bilib, Hüseyn Əliyev isə Kəpəzin 25 görüntüsünün rəsmini çəkib.

“Mənim müəllimim təbiətin özüdür!” - deyən rəssamın Azərbaycan təsviri sənətindəki xidmətlərin danılmazdır. Vəfatından 15 il sonra – 2004-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində onun əsərlərindən ibarət sərgi təşkil edilib və istedadı yüksək dəyərləndirilib. 2011-ci ildə, 100 illiyi ərəfəsində RF-nin Sankt-Peterburq şəhərində sərgilənən ekspozisiyası da könülləri ram edib. Seyrçilər təbiət və insan fəlsəfəsini vəhdət halına gətirən Hüseyn Əliyevin yaradıcılıq dəst-xəttinin qeyri-adiliyini vurğulayıblar. Monteneqro və Polşada da sənətsevərlər görkəmli rəssamın sərgilərində zəngin təəssürat əldə ediblər.

***Ə.DOSTƏLİ***
***XQ***

# “Bakılı oğlanlar”ın unudulmaz kapitanı





**Aprelin 21-də Bakı Kitab Mərkəzində “Bakılı oğlanlar” komandasının əfsanəvi kapitanı Anar Məmmədxanovun xatirəsinə həsr olunmuş “Özünə sadiq ömür: Anarsız 15 il” adlı tədbir keçirilib.**

Görkəmli ictimai xadimin vəfatının 15-ci ildönümü ilə bağlı təşkil olunan tədbirin əsas məqsədi Anar Məmmədxanovun zəngin həyat yolunu, yaradıcılıq irsini, Azərbaycan gəncliyinə, ictimai həyata verdiyi töhfələri bir daha xatırlatmaq və bu irsi gələcək nəsillərə çatdırmaq olub.

“Xəzər” Media Mərkəzinin baş direktoru Murad Dadaşov Anar Məmmədxanovla bağlı xatirələrini bölüşərək onunla olan dostluq münasibətlərindən danışıb. Mərhumun həyat yoldaşı İradə Məmmədxanova onun ailə dəyərlərinə sadiqliyindən, insani keyfiyyətlərindən və hər zaman yaxınlarına göstərdiyi diqqət və qayğıdan bəhs edib.

Xalq yazıçısı Elmira Axundova Anar Məmmədxanovun həyatına həsr olunmuş “Anar Məmmədxanov. Kapitanın taleyi” kitabı barədə məlumat verib. O qeyd edib ki, kitab müxtəlif insanların xatirələri əsasında formalaşıb və Anarın həyat yolunu daha geniş auditoriyaya çatdırmaq məqsədi daşıyır.

Milli Məclisin deputatları Səməd Seyidov, Asim Mollazadə, Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadə, Anar Məmmədxanovun oğlu İslam Məmmədxanov, tərcüməçi Rəbiqə Nazimqızı çıxış edərək Anar Məmmədxanovun dərin vətən sevgisindən, yüksək intellektindən və təşkilatçılıq bacarıqlarından danışaraq onun Azərbaycan ictimai həyatında xüsusi yer tutduğunu vurğulayıblar.

Sonda çıxış edən incəsənət nümayəndələri Anar Məmmədxanov haqqında xatirələrini bölüşərək onun Azərbaycan mədəniyyətindəki əvəzsiz rolunu xüsusi olaraq vurğulayıblar.

# “İRS” nəşrlərinin Türkiyədə təqdimatı

**Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin Qazi Universitetindəki Azərbaycan Türkcəsi Tədris Ocağında tarix və mədəniyyətimizə dair mühüm kitablar çap edən “İRS” müəssisəsinin nəşrləri təqdim olunub.**



“İRS” nəşriyyat evinin layihə rəhbəri və baş redaktoru Musa Mərcanlının “Əziz şəhər Şuşa”, “Şirvanşahların mininci ili”, “Daşları toplama zamanı” kitablarının türkiyəli alimlərin iştirakı ilə müzakirəsi də keçirilib.

Təqdimatın moderatoru, Qazi Universiteti Türk Dünyası Araşdırmaları Mərkəzinin rəhbəri, professor Bülent Aksoy qeyd edib ki, müzakirə olunan əsərlər Azərbaycanın, eləcə də Türk dünyasının tarixi yaddaşını əks etdirən mühüm mənbələrdir. Qeyd edilib ki, Qarabağ bölgəsi və Azərbaycan həqiqətlərinin Türk dünyasında və beynəlxalq müstəvidə daha geniş tanıdılması baxımından belə elmi-mədəni təşəbbüslər böyük əhəmiyyət kəsb edir. Çıxış edən alimlər Şuşanın bütün “Türk dünyasının mədəniyyət paytaxtı” kimi daşıdığı yüksək mənəvi dəyərdən söz açıblar. Belə nəşrlərin Türkiyədə daha geniş auditoriyaya çatdırılmasının zəruriliyi vurğulanıb.

“İRS”in rəhbəri Musa Mərcanlı təqdim olunan əsərlərin hazırlanma və yazılma prosesi barədə geniş məlumat verərək bildirib ki, bu nəşrlər Azərbaycan tarixinin, mədəniyyətinin və milli irsinin dünya ictimaiyyətinə çatdırılmasına xidmət edir.

***XQ***

*Təqdimat*

# “Sirli xəritə. Şamaxı macəraları”



**Aprelin 21-də Nizami Kino Mərkəzində “Sirli xəritə. Şamaxı macəraları” animasiya filminin təqdimatı olub.**

Heydər Əliyev Fondunun dəstəyi, “Harmony of Chaos” animasiya və vizualizasiya studiyası və “BBQ Marketing and Events” Agentliyinin əməkdaşlığı ilə hazırlanan animasiya filmi tamaşaçıları Azərbaycanın müxtəlif bölgələrinə maraqlı səyahətə aparır.

“Harmony of Chaos” animasiya və vizualizasiya studiyasının rəhbəri, “Sirli xəritə. Şamaxı macəraları” animasiya filminin prodüseri və rejissoru Ağarəhim İbrahimov çıxışında layihə barədə məlumat verib.

Sonra animasiya filminin hazırlanma prosesini və maraqlı məqamlarını əks etdirən videoçarx nümayiş olunub.

“Şamaxı macəraları” adlanan ilk hissənin süjeti bir ailənin hekayəsi üzərində qurularaq izləyiciləri qədim Şamaxının tarixi ilə yaxından tanış edir. Əsas qəhrəmanlar - nənə, baba və üç nəvə ölkəmizi kəşf edərək Şamaxının tarixini, mədəniyyətini və sirli məqamlarını öyrənirlər. Sehrli hadisələr onları keçmişə aparır və Azərbaycanın zəngin irsini onlara canlı şəkildə göstərir.

Animasiya filminin prodüseri və rejissoru Ağarəhim İbrahimov deyib ki, bu cür layihələr uşaqlarda Azərbaycana olan sevgini daha da artıracaq. Filmdə 3D animator kimi çalışan Rüfət İsmayılov isə deyib ki, “Sirli xəritə” animasiyası serialdır və davamlı olacaq. Filmin bu hissəsində personajlar Şamaxıya səyahət edərək qədim adət-ənənələrimizə şahid olurlar. Növbəti hissələr isə Azərbaycanın digər mədəniyyət guşələrinə həsr olunacaq.

***XQ***

# Azərbaycanlı yazıçı-dramaturqun Ankara görüşləri





**Türk dünyasının ortaq ədəbi-mədəni dəyərlərinin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm proseslərin getdiyi müasir mərhələdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin beynəlxalq səfərləri xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan tanınmış yazıçı-dramaturq Hüseynbala Mirələmovun və ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Elman Quliyevin Türkiyənin paytaxtı Ankaraya səfəri həm də Türk dünyasının mənəvi inteqrasiyasının real təzahürü kimi dəyərləndirilməlidir.**

Ortaq dil, tarix və mədəniyyət üzərində qurulan əməkdaşlığın yeni mərhələyə keçdiyini nümayiş etdirən səfərin ən mühüm məqamlarından biri TÜRKSOY-un baş katibi Sultan Rayev ilə keçirilən görüş oldu. Görüşdə Hüseynbala Mirələmovun yaradıcılığı geniş müzakirə edildi, onun əsərlərinin Türk dünyasının ədəbi düşüncəsinə təsiri xüsusi vurğulandı.

Sultan Rayev yazıçının əsərlərində milli kimlik, tarixi yaddaş və mənəvi dəyərlərin yüksək bədii ustalıqla təqdim olunduğunu qeyd edərək, onun fəaliyyətinin yalnız Azərbaycan üçün deyil, bütövlükdə Türk dünyası üçün əhəmiyyətli olduğunu bildirdi.

Görüşün ən yaddaqalan anlarından biri Hüseynbala Mirələmova TÜRKSOY-un xüsusi medalının təqdim edilməsi oldu. “Türk dünyası kültür və sənətinə yapmış olduğunuz katkılar anısına” ifadəsi ilə təqdim edilən bu mükafat yazıçının çoxillik fəaliyyətinə verilən yüksək qiymət olmaqla yanaşı, Azərbaycan ədəbiyyatının Türk dünyasındakı nüfuzunun göstəricisi kimi də qəbul edilməlidir.




TÜRKSOY qərargahında keçirilən görüşlərdə baş katibin müavini Sayid Yusuf, Azərbaycanın mədəniyyət təmsilçisi Vüqar Məmmədov və Mətbuat Mərkəzinin rəhbəri Vüqar Novruzoğlu ilə aparılan müzakirələr xüsusi əhəmiyyət daşıdı.

Bu görüşlərdə ortaq ədəbi platformaların yaradılması, birgə nəşr layihələrinin həyata keçirilməsi, mədəni tədbirlərin genişləndirilməsi, gənc nəsil üçün inteqrativ proqramların hazırlanması kimi məsələlərə diqqət ayrıldı.

Hüseynbala Mirələmovun yaradıcılığına toxunan görüş iştirakçıları onun müasir Azərbaycan ədəbiyyatında xüsusi yeri olan, məhsuldar və çoxşaxəli yaradıcılığı ilə seçilən sənətkarlardan olduğunu vurğuladılar. Qeyd edildi ki, yazçının dramaturgiya və nəsr sahəsində qələmə aldığı əsərlər milli ruhun, tarixi yaddaşın və müasir insanın daxili dünyasının dərindən bədii təhlilini təqdim edir.

Səfər çərçivəsində keçirilən görüşlərdə filologiya elmləri doktoru, professor Elman Quliyevin fəaliyyəti də diqqət mərkəzində oldu. Qeyd edildi ki, tanınmış alimin uzun illərdir türk xalqları ədəbiyyatının müqayisəli şəkildə öyrənilməsi, ortaq ədəbi köklərin araşdırılması və bu sahədə elmi məktəbin formalaşdırılması istiqamətində mühüm işlər görüb.

Azərbaycanlı qonaqların Ankara Hacı Bayram Veli Universitetində keçirdikləri görüşlər səfərin ən canlı və dinamik hissələrindən oldu. Görüşlərdə Elman Quliyevin “Türk xalqları ədəbiyyatı” və Hüseynbala Mirələmovun “Bəyaz buludlar üstdə” kitablarının təqdimatı keçirildi. Universitetin tələbə və müəllim heyəti bu əsərləri böyük maraqla qarşıladı.

Universitetin rektor yardımçısı, dekan professor doktor Fırat Purtaş Azərbaycandan gələn qonaqlar haqqında xoş sözlər söyləyib, onların ədəbiyyata verdikləri töhfələrdən bəhs etdi.

Tədbirdə, həmçinin professor doktor Həbibə Yazıcı Ərsoy, Arzuman Azaflı, Azərbaycanın Türkiyədəki Səfirliyinin Təhsil müşaviri Nəcibə Nəsibova və İraq-Türkmən Mədəniyyət Dərnəyinin rəhbəri Şəmsəddin Kuzəçi çıxış edərək qonaqların yaradıcılığından danışıblar.

Hüseynbala Mirələmov görüşdə çıxışı zamanı ədəbiyyatın insanları birləşdirən ən güclü vasitələrdən biri olduğunu vurğuladı. Elman Quliyev isə Türk xalqlarının ortaq ədəbi köklərinin qorunmasının strateji əhəmiyyət daşıdığını qeyd etdi.

Görüşdə Türk dünyası ədəbiyyatının inkişafına verdikləri töhfəyə görə tanınmış ədəbiyyat xadimləri Hüseynbala Mirələmov və Elman Quliyev xüsusi təşəkkür sənədi ilə təltif olundular. Təşəkkür sənədləri Türkiyat Tətbiqi və Araşdırma Mərkəzinin direktoru, professor doktor Həbibə Yazıcı Ersoy tərəfindən təqdim edildi.

Qazi Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycanın Türkiyədəki səfirliyinin təsis etdiyi Kültür Dərnəyində keçirilən görüş də xüsusi əhəmiyyət kəsb etdi. Qarşılıqlı fikir mübadiləsinin aparıldığı bu tədbirdə Hüseynbala Mirələmov və Elman Quliyevin Türk dünyasına xidmətləri sadalandı, onların yaradıcılığına olan diqqət xüsusi vurğulandı. Qeyd olundu ki, Azərbaycan ədəbiyyatına olan böyük maraq nəzərə alınaraq, hər 6 aydan bir 35 tələbəyə Azərbaycan dili tədris olunur.

Dərnəyin kitabxanasında Azərbaycan ədəbiyyatının klassik və müasir nümunələri ilə yanaşı, Hüseynbala Mirələmov və Elman Quliyevin əsərlərinin yer alması onların yaradıcılığına olan marağın göstəricisidir.

Bu səfər bir daha sübut etdi ki, Türk dünyasının ədəbi və mədəni birliyi yalnız rəsmi sənədlər və bəyanatlarla deyil, həm də görüşlər, qarşılıqlı səfərlər və canlı ünsiyyət vasitəsilə möhkəmlənir.

***Rövşən AĞAYEV,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

# Peyvəndləməyə şübhə sağlamlıqdan əl çəkməkdir

**Peyvənd mövzusu illərdir müzakirə olunaraq bəzən emosional, bəzən də yanlış məlumatlara əsaslanan mübahisələr yaradır. Amma tibbi baxımdan, peyvəndlər insanlığın əldə etdiyi ən mühüm nailiyyətlərdən biridir. Onlar fərdi sağlamlığı qoruyur, ictimai sağlamlığın da təhlükəsizliyini təmin edən əsas mexanizm rolunu oynayır.**



İmmun sisteminin işi orqanizmə daxil olan yad mikroorqanizmləri tanımaq və onları məhv etməkdir. Peyvəndlər isə bu sistemi əvvəlcədən "təlimləndirir". Yəni zəiflədilmiş və ya təsirsiz hala gətirilmiş virus, bakteriya hissəcikləri bədənə daxil edilir, immun sistemi onlara qarşı müdafiə mexanizmi yaradır. Nəticədə, real virus orqanizmə daxil olduqda, bədən artıq onu tanıyır və daha sürətli reaksiya verir. Cəmiyyətin böyük hissəsi peyvənd olunduqda da "kollektiv immunitet" formalaşır. Bu isə müxtəlif səbəblərdən peyvənd oluna bilməyən, yəni immun sistemi zəif olan uşaqları və ya xroniki xəstələri də dolayı yolla qoruyur.

Dünya miqyasında isə uşaqların peyvəndlənməsi illərdir səhiyyə sisteminin əsas sütunlarından biridir. Bu proses sayəsində bir vaxtlar milyonlarla insanın həyatına son qoyan xəstəliklər ya tamamilə aradan qalxıb, ya da ciddi şəkildə nəzarət altına alınıb. Lakin son illərin statistikası göstərir ki, qlobal miqyasda əldə olunan bu uğurlar fonunda yeni problemlər də yaranıb. Bəzi ölkələrdə peyvəndlənmə səviyyəsi azalır, valideynlərin tərəddüdü artır və nəticədə, infeksion xəstəliklərin yenidən yayılma riski yüksəlir.

Beynəlxalq təşkilatların məlumatlarına əsasən, hazırda dünyada uşaqların böyük əksəriyyəti peyvənd olunsa da, bu göstərici istənilən səviyyədən aşağıdır. Çünki körpələrin, təxminən, 89 faizi ən azı bir doza peyvənd alır, amma onların yalnız 85 faizi tam peyvənd kursunu başa vurur. Ən narahatedici məqam isə odur ki, təxminən, 14 milyondan çox körpə peyvənd olunur. Bu, xüsusilə səhiyyə infrastrukturu zəif, gəlir səviyyəsi aşağı olan və ya münaqişə bölgələrində yaşayan uşaqlar arasında daha geniş yayılıb.

Qlobal peyvəndləmə prosesinə baxdıqda, ölkələr arasında ciddi fərqlər də aydın görünür. İnkişaf etmiş dövlətlərdə peyvənd olunma 90 faizdən yuxarıdır. Lakin bəzi inkişaf etmiş ölkələrdə belə peyvəndlənmə səviyyəsində azalma müşahidə olunur. Məsələn, Ümumdünya Səhiyyə Təşkilatının açıqladığı məlumatlara görə, Avropanın bəzi ölkələrində qızılca əleyhinə peyvənd göstəricisi kritik hədd sayılan 95 faizdən aşağı düşüb.

Bununla yanaşı, peyvənd məsələsində diqqətçəkən ən mühüm dəyişiklik valideynlərin münasibətində baş verir. Əgər əvvəllər peyvəndlərə qarşı əsas problem əlçatanlıq idisə, bu gün daha çox valideyn inamsızlığından danışılır. Bir çox ölkədə valideynlərin peyvəndlərin təhlükəsizliyi ilə bağlı şübhələri var. Bu şübhələrin yaranmasında isə sosial şəbəkələrdə yayılan dezinformasiya, elmi əsaslara söykənməyən iddialar və konspirasiya nəzəriyyələri mühüm rol oynayır.

ÜST və UNICEF-in araşdırmaları göstərir ki, pandemiyadan sonra peyvəndlərə olan etimad bir sıra ölkələrdə zəifləyib. Xüsusilə COVID-19 dövründə yayılan ziddiyyətli məlumatlar və müxtəlif yanaşmalar valideynlər arasında tərəddüdü daha da artırıb. Halbuki tibbi baxımdan peyvəndlərin effektivliyi və təhlükəsizliyi dəfələrlə sübut olunub. Mütəxəssislər bildirir ki, peyvəndlərin yaratdığı yüngül yan təsirlər, yəni qızdırma, halsızlıq ciddi xəstəliklərlə müqayisədə çox cüzi risk hesab olunur. Əksinə, peyvənd olunmamaq qızılca, poliomielit və digər infeksiyaların yenidən yayılmasına zəmin yaranır. Qlobal təcrübə göstərir ki, peyvəndləmə sosial məsuliyyətdir.

Azərbaycanda isə uşaqlar üçün tətbiq edilən peyvənd təqvimi Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun hazırlanıb və bir neçə mərhələdən ibarətdir. Körpə doğulduğu ilk saatlardan etibarən qorunmağa başlayır. Bununla belə, bəzi valideynlər peyvəndlərə ehtiyatla yanaşır. Onların narahatlıqları əsasən vaksinlərin keyfiyyəti və mümkün yan təsirlər istiqamətində cəmlənir. Yan təsirlər isə əksər hallarda yüngül olur, ağır allergik reaksiyalar isə olduqca nadir hallarda müşahidə edilir və belə risklər həkim nəzarəti altında minimuma endirilir.

**Mövzu ilə bağlı Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva XQ-yə bildirdi ki, ölkəyə daxil olan bütün vaksinlər Ümumdünya Səhiyyə Təşkilatının təhlükəsizlik və effektivlik standartlarına cavab verir:**



– Azərbaycanda immunlaşdırma proqramı dövlət tərəfindən dəstəklənir və peyvəndlərlə idarə olunan xəstəliklərin azaldılmasına yönəlib. Hazırda uşaqlar arasında profilaktiki peyvəndlər Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş peyvənd təqviminə əsasən həyata keçirilir. Uşaqlar ilk iki peyvəndini doğum evində alır, sonra isə yaşadığı ərazi üzrə tibb müəssisəsində qeydiyyata düşərək 2 aylığından 6 yaşına qədər təqvimə uyğun profilaktiki peyvəndlərini davam etdirir.

Ölkədə hazırda dövlət tibb müəssisələrində peyvənd təqviminə uyğun olaraq 0-6 yaş uşaqlar arasında 11 yoluxucu xəstəliyə qarşı vaksinasiya aparılır - Hepatit B, vərəm, difteriya, göyöskürək, tetanus, poliomielit, b tipli hemofil infeksiya, pnevmokok infeksiyalari, qızılca, epidemik parotit, məxmərək. Peyvəndlər insanları qeyd edilən xəstəliklərdən qoruyur. 2014-cü ildən vaksin preparatları Azərbaycana Səhiyyə Nazirliyi tərəfindən UNICEF xətti ilə gətirilir.

Uşaqlar hər gün ətraf mühitdəki minlərlə mikrobla təmasda olurlar. Bu mikroblardan qorunmağın ən effektiv üsulu peyvəndləmədir. Ölkədə peyvəndlərlə idarə olunan xəstəliklər qeydə alınmırsa belə, digər ölkələrdən gətirilmə hallar xəstəliklərin alovlanmasına səbəb ola bilər. Uşağın xəstələnməsini gözləmədən, onu peyvənd təqviminə uyğun peyvənd etdirmək mütləqdir.

Əgər peyvəndlə qarşısı alına bilən xəstəlikləri keçirilibsə belə, uşaq yenə də peyvənd edilməlidir. Bu, uşağı eyni xəstəliyi törədə biləcək mikrobun bir çox serotiplərindən qoruyur. Məsələn, Azərbaycanda tətbiq olunan pnevmokok əleyhinə peyvənd uşağı pnevmokok bakteriyasının 13 serotipindən qoruyur. Uşaq qızılca xəstəliyi keçiribsə belə, o, qızılca-parotit-məxmərək əleyhinə QPM vaksini ilə peyvənd olunmalıdır. Çünki bu vaksin onu eyni zamanda, epidemik parotit və məxmərək xəstəliklərindən də qoruyacaq.

Vaxtından əvvəl doğulan uşaqlar isə anadan daha az qoruyucu anticisimlər alır. Anticisimlərin onların orqanizmindən daha tez xaric olması nəticəsində həmin uşaqlarda yoluxucu xəstəliklərdən müdafiə aşağı səviyyədə olur və infeksion xəstəliklərə yoluxma ehtimalı artır. Bu səbəbdən də vaxtından əvvəl və ya az çəki ilə doğulan körpələr pediatrın təyinatı əsasında profilaktik peyvənd təqviminə uyğun peyvənd oluna bilərlər. Peyvəndlər hər hansı dərman preparatı kimi bəzi yan təsirlərin yaranmasına səbəb ola bilər. Bu, normal haldır və uşaqlar üçün zərərli və təhlükəli deyil.

**Gigiyena və Epidemiologiya Mərkəzinin epidemioloji şöbəsinin İmmunoprofilaktika bölməsinin müdiri Gülafət Azadəliyeva isə dedi ki, ÜST-ün təşəbbüsünə uyğun olaraq, cari ilin 19–25 aprel tarixləri ölkəmizdə "İmmunlaşdırma həftəsi" elan edilib:**



– Bununla bağlı respublikanın bütün şəhər və rayonlarında immunizasiya tədbirlərinin genişləndirilməsi, xüsusilə peyvənddən kənarda qalan uşaqların vaksinasiyaya cəlb olunması, əhali arasında maarifləndirmə işlərinin gücləndirilməsi və peyvəndlərlə əhatə səviyyəsinin artırılması nəzərdə tutulur. "İmmunlaşdırma həftəsi" hər il aprel ayının son həftəsində keçirilən, əhalinin sağlamlığının qorunmasında müstəsna rol oynayan kampaniyadır. "İmmunlaşdırma həftəsi"nin əsas məqsədi cəmiyyətin bütün yaş qrupları arasında peyvəndləmənin əhəmiyyəti, ən effektiv və təhlükəsiz üsul olduğu barədə məlumatlılığı artırmaq, insanları yoluxucu xəstəliklərdən qorumaq üçün vaxtında vaksinasiya olunmağa təşviq etmək, peyvəndlər haqqında yayılan miflərə elmi faktlarla cavab verməkdir.

Uşaqların peyvənd edilməsi gələcək nəsillərin təhlükəsizliyi üçün atılan ən mühüm addımlardan biridir. Bunun vacibliyi ondadır ki, müasir tibb sayəsində tarixdə milyonlarla uşağın ölümünə və ya şikəst qalmasına səbəb olan xəstəliklərdən qorunma gücünə malik olmuşuq. Vaxtilə qorxulu yuxuya çevrilən uşaq iflici (poliomielit) peyvəndləmə sayəsində, demək olar ki, dünyadan silinmək üzrədir.

Cəmiyyətdə uşaqların böyük əksəriyyəti peyvənd olunduqda, xəstəliyin yayılma zənciri qırılır. Bu, peyvənd olunması tibbi cəhətdən mümkün olmayan (məsələn, ağır allergiyası və ya immun çatışmazlığı olan) digər uşaqları da dolayı yolla qoruyur. Peyvəndlə idarə olunan xəstəliklər təkcə keçici narahatlıq yaratmır, həm də qalıcı zədələr buraxa bilər. Belə ki, qızılca beyin iltihabına və korluğa, məxmərək doğuş qüsurlarına, epidemik parotit karlığa səbəb ola bilər. Biz bu gün uşaqları peyvənd etməklə xəstəliklərin kökünü kəsirik. Əgər bir xəstəlik tamamilə yox edilərsə, gələcəkdə həmin xəstəliyə qarşı peyvənd olunmağa belə ehtiyac qalmayacaq.

Azərbaycanda uşaqların sağlamlığını qorumaq üçün Səhiyyə Nazirliyinin təsdiqlədiyi Profilaktik peyvənd təqvimi tətbiq edilir. Bu sıraya 11 yoluxucu xəstəliyə qarşı olan Hepatit B, Vərəm, Difteriya, Göyöskürək və Tetanus, Poliomielit, B tipli hemofil infeksiya, Pnevmokok infeksiyaları, Qızılca, Epidemik parotit və Məxmərək əleyhinə peyvəndlər daxildir.

Son illər ölkəyə bir inyeksiyanın tətbiqi ilə bir neçə xəstəliyin qarşısının alınmasına kömək edən vaksinlər gətirilib. Məsələn, 6 komponentli Heksavaksin, 3 komponentli Qızılca, Epidemik parotit və Məxmərək əleyhinə vaksinlər və s.

Çox dozalı vaksinlərin yerinə tədricən tək dozalı vaksinlərin ölkəyə gətirilməsi də təmin edilib. Profilaktik peyvənd təqviminə əsasən, doğum evində yenidoğulmuşlara 12 saat ərzində Hepatit B və vərəm əleyhinə vaksinlər edilir.

Bundan əlavə, 2 aylıqda 6 komponentli Heksaksin və Pnevmokok vaksini, 3 aylıqda 6 komponentli Heksaksim, 4 aylıqda 6 komponentli Heksaksim və Pnevmokok, 6 aylıqda Pnevmokok və OPV (poliomielit əleyhinə), 1 və 6 yaşda QPM (qızılca, epidemik parotit və məxmərək əleyhinə), 18 aylıqda GDT (difteriya, göyöskürək və tetanus əleyhinə), 6 yaşda DT (difteriya və tetanus əleyhinə) vaksini ilə əhatə olunurlar.

Qeyd edim ki, vaxtında peyvənd almayan gecikmiş uşaqlara da müvafiq təlimata uyğun olaraq peyvəndlər tətbiq edilir. Yuxarı yaşlı şəxslərin vaksinasiyası həm planlı, həm də mövsümi və ya epidemik göstərişlər əsasında aparılır.

*Ləman TƏHMƏZ*
*XQ*

*Beynəlxalq həyat*

# Yaxın Şərq böhranı qlobal sabitliyi sınağa çəkir

**Yaxın Şərqdə artan geosiyasi gərginlik fonunda ABŞ–İran qarşıdurması beynəlxalq medianın gündəmdən düşməyən mövzusudur. Hərbi ritorika və iqtisadi təzyiqlərin qarşılıqlı şəkildə davam etməsi vəziyyətin daha da qəlizləşdiyini göstərir. Hörmüz boğazı ətrafında baş verənlər qlobal enerji bazarlarını da ciddi risk altına salır. Tərəflər arasında danışıqlar ehtimalı, bu istiqamətdə atılan addımlar böhranın necə inkişaf edəcəyini müəyyənləşdirən amillər kimi çıxış edir. Xarici media mövcud hərbi-siyasi mənzərəni müxtəlif aspektlərdən işıqlandırmağa və təhlil etməyə üstünlük verir.**

**"Reuters":** ABŞ Prezidenti Donald Tramp bildirib ki, ABŞ tezliklə İranın heç vaxt nüvə silahı əldə etməyəcəyinə zəmanət verəcək: "Bu, baş verəcək və düşünürəm ki, çox tez baş verəcək. Onların nüvə silahı olmayacaq və biz buna icazə verməyəcəyik". Bundan öncə Ağ Ev rəhbəri ABŞ və İran nümayəndələrinin zənginləşdirilmiş uranı bu ölkədən çıxarmaq üçün birlikdə çalışacaqlarını və Tehranın Vaşinqtondan heç bir dondurulmuş aktiv almadan nüvə proqramını qeyri-müəyyən müddətə dayandırmağa hazır olduğunu bildirmişdi.

**"Al Jazeera":** İran Xarici İşlər Nazirliyi ABŞ-ın "TOUSKA" ticarət gəmisini saxlaması ilə əlaqədar BMT-nin Baş katibi Antonio Quterreşə və Beynəlxalq Dəniz Təşkilatına rəsmi şikayət məktubu göndərib. XİN-in bəyanatında qeyd olunub ki, İran ABŞ-ın bu qanunsuz hərəkətinin çox təhlükəli nəticələri barədə xəbərdarlıq edir, İran gəmisinin, dənizçilərin, ekipajın və onların ailələrinin dərhal azad edilməsinin vacibliyini vurğulayır".

**"Tasnim":** İranın ali lideri Müctəba Xamenei ölkənin nümayəndə heyətinin ABŞ ilə Pakistanın paytaxtı İslamabadda danışıqlarda iştirakına razılıq verib. Mənbənin sözlərinə görə, icazə bazar ertəsi (20 aprel) axşam daxil olub. Bildirilir ki, İran tərəfi İslam İnqilabı Keşikçiləri Korpusunun danışıqçılara təzyiqi səbəbindən məsələni uzadırdı. Görüşün təxirə salınmasında məqsəd "sərt mövqeyə" nail olmaqdır: "ABŞ blokadası dayandırılmadan heç bir danışıq aparılmayacaq".

**"The Washington Post":** Tehran razılığa gələnə qədər ABŞ Hörmüz boğazındakı İran limanlarını blokadada saxlamaqda davam edəcək. Bunu ABŞ Prezidenti Donald Tramp "TruthSocial"da yazıb: "Ən əsası, İranı tamamilə məhv edən blokada razılaşma əldə olunana qədər qaldırılmayacaq. Onlar gündə 500 milyon dollar itirirlər ki, bu da qısa müddətdə belə davamlı olmayan bir rəqəmdir". Trampın sözlərinə görə, bir çox xarici media nümayəndəsi İranın tərəfini tutaraq Amerika əleyhinə ritorika yayır. Lakin Amerika lideri iddia edir ki, o, hakimiyyətdə qaldığı müddətcə Tehran bu müharibədən qalib çıxmayacaq.

**"BBC":** Gəmiləri Hörmüz boğazının qərbində qalan bəzi şirkətlər kriptovalyuta müqabilində boğazdan "təhlükəsiz keçid" təklif edən saxta mesajlar almağa başlayıb. Məlumata görə, özünü İran hökumətinin nümayəndələri kimi təqdim edən naməlum şəxslər bir sıra gəmiçilik şirkətlərinə keçid üçün icazəyə görə "Bitcoin" və ya "Tether" kriptovalyutası ilə ödənişin tələb olunduğu mesajlar göndərib.

**"Mizan":** İranda yanvar etirazları zamanı məscidi yandırmaqda və İsrail kəşfiyyatı ilə əlaqəli şəbəkəyə rəhbərlik etməkdə ittiham olunan şəxs barəsində çıxarılmış ölüm hökmü icra edilib. Əmirəli Mircəfərinin ölüm hökmü çərşənbə axşamı səhər saatlarında icra edilib.

**"Mehr":** "Xatəm əl-Ənbiya" Mərkəzi Qərargahının komandanı Əli Abdullahi bildirib ki, İran Silahlı Qüvvələri düşmənlərin hər hansı təcavüzkar hərəkətlərini bərpa edəcəyi təqdirdə, onlara "dərhal və qətiyyətli cavab" verməyə hazırdır. O vurğulayıb ki, Tehran hərbi sahədə, o cümlədən Hörmüz boğazına nəzarət məsələsində üstünlüyünü qoruyur və ABŞ Prezidentinin "yerlərdəki vəziyyətlə bağlı yalan narrativlər yaratmasına" imkan verməyəcək. İranla ABŞ arasında iki həftəlik atəşkəs aprelin 22-də başa çatır.

**"France Inter":** Hörmüz boğazında gərginlikdən sonra dünya enerji bazarında sabitliyin bərpası təxminən iki il çəkə bilər. Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) rəhbəri Fatih Birol "France Inter" radiostansiyasının efirində bildirib. Birolun sözlərinə görə, Hörmüz boğazı açıldıqdan sonra enerji daşıyıcılarının qiymətlərinin normal səviyyəyə qayıtması "tədricən" baş verəcək, çünki bazar son dərəcə qeyri-sabit qalacaq. O bildirib ki, Yaxın Şərqdəki vəziyyətlə, o cümlədən Hörmüzün blokadasının və neft qiymətlərinin artmasının dünya iqtisadiyyatı üçün ciddi nəticələrə gətirib çıxara biləcəyindən narahatdır.

**"CNN":** Almaniyanın xarici işlər naziri Yohann Vadeful Tehranı Ağ Evin təklifini qəbul etməyə və Tehranı öz əhalisinin rifahı naminə bu fürsəti əldən verməməyə çağırıb: "Bildiyimiz kimi, ABŞ Vitse-prezidenti Ceyms Devid Vens İslamabada getməyə hazırdır. İran indi öz xalqı naminə danışıqların aparılması təklifini qəbul etməlidir". Vadeful bunu Lüksemburqda Aİ ölkələrinin xarici işlər nazirlərinin görüşündən əvvəl deyib.

**"Daily Mail":** ABŞ Prezidenti Donald Tramp İranı aprelin 22-də başa çatacaq iki həftəlik atəşkəs rejimini dəfələrlə pozmaqda ittiham edib. Bu barədə o "Truth Social"da yazıb. O, bildirib ki, İran atəşkəs rejimini dəfələrlə pozub.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

# "Kapital Bank"ASC səhmdarlarının nəzərinə!

22 may 2026-cı il saat 11:00-da Nəsimi rayonu, Neftçilər prospekti 153 nömrəli ünvanda yerləşən "Port Baku Tower 2" ofisində (17-ci mərtəbədə yerləşən "Silicon Valley" otağı) bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir.

"Kapital Bank"ASC tərəfindən 2025-ci il üzrə maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi.

***Məruzəçi: Zaur Musayev.***

# "İD-AGROPARK" MMC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatı

***manatla***

| AKTİVLƏR | *2024-cü il* | *2023-cü il* |
|---|---|---|
| **Cari aktivlər** | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 109,570.77 | 50,777.16 |
| Qısamüddətli debitor borcları | 258,208.74 | 26,858.78 |
| Mal-material ehtiyatları | 1,119,593.68 | 913,073.52 |
| Digər qısamüddətli aktivlər | 2,994,092.16 | 2,157,251.94 |
| **Cəmi cari aktivlər** | **4,481,465.35** | **3,147,961.40** |
| **Uzunmüddətli aktivlər** | | |
| Uzunmüddətli aktivlər | 9,567,084.46 | 9,995,541.25 |
| **Cəmi uzunmüddətli aktivlər** | **9,567,084.46** | **9,995,541.25** |
| **Cəmi aktivlər** | **14,048,549.80** | **13,143,502.64** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Cari öhdəliklər** | | |
| Qısamüddətli kreditor borcları | 1,288,583.36 | 1,313,247.39 |
| Bank kreditləri | 1,913,400.00 | 3,299,816.35 |
| Digər cari öhdəliklər | 30,940,143.02 | 26,334,837.53 |
| **Cəmi cari öhdəliklər** | **34,142,126.38** | **30,947,901.27** |
| **Kapital və ehtiyatlar** | | |
| Ödənilmiş (nizamnamə) kapitalı | 1,009.00 | 1,009.00 |
| Bölüşdürülməmiş mənfəət, ödənilməmiş zərər | -20,094,585.58 | -17,805,407.63 |
| **Cəmi kapital və ehtiyatlar** | **(20,093,576.58)** | **(17,804,398.63)** |
| **Cəmi kapital və öhdəliklər** | **14,048,549.80** | **13,143,502.64** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| Əsas fəaliyyətindən gəlir | 1,497,426.78 | 1,318,200.03 |
| Satışın maya dəyəri | -3,406,778.38 | -3,747,474.18 |
| Satış gəliri | -1,909,351.60 | -2,429,274.15 |
| Cəmi gəlir | -1,547,792.66 | -2,419,104.66 |
| İnzibati xərclər | -675,627.52 | -821,937.84 |
| Maliyyə xərcləri | -64,082.37 | -350,809.76 |
| Gəlirdən çıxılan vergilər | -1,176.00 | -11,076.00 |
| Mənfəət vergisindən əvvəl mənfəət, zərər | -2,288,678.55 | -3,602,928.26 |
| Mənfəət vergisi | -499.40 | -6,150.18 |
| İl üzrə xalis mənfəət, zərər | -2,289,177.95 | -3,609,078.44 |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI**

| | | |
|---|---|---|
| Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti: | | |
| Hesabat dövründə mənfəət və zərər | -2,289,177.95 | -3,609,078.44 |
| Amortizasiya xərcləri | 495,192.41 | 526,955.11 |
| Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti | | |
| Əməliyyat aktiv və passivlərində dəyişikliklər | | |
| Əsas vəsaitlərin silinməsi | | |
| Ehtiyatlarda artma və ya azalma | -206,520.16 | 108,851.72 |
| Qısamüddətli debitor borcları artma və ya azalma | -231,349.96 | 8,441.22 |
| Bank kreditləri | -1,386,416.35 | -9,206,048.76 |
| Digər qısamüddətli aktivlər | -836,840.22 | -577,989.61 |
| Digər cari öhdəliklər | 4,605,305.49 | 3,916,696.15 |
| Qısamüddətli kreditor borcları artma və ya azalma | -24,664.03 | -447,121.12 |
| Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri | | |
| İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti: | | |
| Uzunmüddətli aktivlərin alınması | -66,735.62 | -352,965.56 |
| İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri | | |
| Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri | | |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma | 58,793.61 | -9,632,259.28 |
| İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri | 50,777.16 | 9,683,036.45 |
| İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri | 109,570.77 | 50,777.16 |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| | **Nizamnamə kapitalı** | **Kapital ehtiyatları və bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **Cəmi kapital** |
|---|---|---|---|
| 2023-cü il yanvarın 1-nə qalıq | 1,009.00 | -14,196,329.19 | -14,195,320.19 |
| Dövr üzrə xalis mənfəət (zərər) | | -3,445,924.64 | -3,445,924.64 |
| 2023-cü il dekabrın 31-nə qalıq | 1,009.00 | -17,805,407.63 | -17,804,398.63 |
| Dövr üzrə xalis mənfəət (zərər) | | -2,289,177.95 | -2,289,177.95 |
| 2024-cü il dekabrın 31-nə qalıq | 1,009.00 | -20,094,585.58 | -20,093,576.58 |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"İD-AGROPARK" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN RƏHBƏRLİYİNƏ**

Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə dair hesabat

**RƏY**

Biz, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən "FORUM" Məhdud Məsuliyyətli Auditor Müəssisəsinə (VÖEN: 3100089731) verilmiş qeydiyyat tarixi 1 may 2024-cü il, qeydiyyat nömrəsi AT/020, icazə müddəti 16.05.2024 – 16.05.2029 olan İcazəyə və "İD-AGROPARK" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (VÖEN: 1702038221) (bundan sonra "cəmiyyət" adlanacaq) ilə bağlanmış 6 aprel 2026-cı il tarixli M-43447 saylı müqaviləyə əsasən 2024-cü il dekabrın 31-də bitən il üzrə "İD-AGROPARK" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ-nin (VÖEN: 1702038221) və onun törəmə müəssisəsi olan "GREENHOUSE" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ-nin (VÖEN: 1702156561) konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş mənfəət, zərər və digər ümumi gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla konsolidə edilmiş maliyyə hesabatlarına aid qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə olan konsolidə edilmiş maliyyə hesabatları 2024-cü il dekabrın 31-nə "İD-AGROPARK" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN konsolidə edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidə olunmuş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

**Rəy üçün əsas**

Biz, auditi Beynəlxalq Audit Standartlarına ("BAS-lara") uyğun apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları daxil olmaqla) ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz qrupdan müstəqillik və MBESŞ məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Forum MMAM-nin direktoru Aydın Səttar, baş auditor Yaqub Abdullayev**
**14 aprel 2026-cı il**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 68 (31037) 22 aprel 2026-cı il, çərşənbə

## İDMAN

### Azərbaycan Kubokunda ilk finalçı



**Dünən futbol üzrə Azərbaycan Kubokunda ilk finalçı müəyyənləşib.**

Yarımfinalın cavab oyununda "Turan Tovuz" "Zirə"nin qonağı olub. Zirə İdman Kompleksinin stadionunda keçirilən qarşılaşma qolsuz bərabərliklə başa çatıb – 0:0. İki görüşün nəticəsinə görə bakılılar finala vəsiqə qazanıb. İlk görüşdə "Zirə" iki cavabsız qolla qalib gəlib.

Xatırladaq ki, yarımfinal mərhələsinin digər cavab matçı aprelin 22-də keçiriləcək. "Sabah" "Qarabağ"ı (ilk oyun - 2:2) qəbul edəcək.

### Hindistanda antidopinq konfransı

**Ümumdünya Antidopinq Agentliyinin (WADA) təşkilatçılığı ilə Hindistanın paytaxtı Yeni Dehli şəhərində "Qlobal antidopinq təhqiqatı və araşdırmalar şəbəkəsi" layihəsi çərçivəsində beynəlxalq konfrans keçirilib.**



WADA-nın dəvəti ilə mərasimdə ölkəmizi Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) İcraçı direktoru Təhminə Tağı-zadə və Nəticələrin emalı və təhqiqat şöbəsinin müdiri Nicat Əmiraslanlı təmsil ediblər. Konfransa WADA-nın rəhbər heyəti ilə yanaşı, INTERPOL, EUROPOL və 70-ə yaxın milli antidopinq təşkilatının nümayəndələri qatılıblar.

Mərasim çərçivəsində dopinqlə mübarizənin artıq yalnız laborator analizlər və testlərlə məhdudlaşmadığı, bu sahədə qlobal səviyyədə təhqiqat və hüquq-mühafizə əməkdaşlığına əsaslanan kompleks yanaşmanın formalaşdığı xüsusi vurğulanıb. Bildirilib ki, müasir dövrdə dopinq problemi daha çox təşkilatlanmış transmilli şəbəkələrin fəaliyyəti ilə əlaqəlidir və buna qarşı effektiv mübarizə yalnız genişmiqyaslı beynəlxalq əməkdaşlıq sayəsində mümkündür.

Konfransda WADA ilə INTERPOL-un birgə həyata keçirdiyi "Operation Upstream" əməliyyatı barədə ətraflı məlumat təqdim olunub. Qeyd edilib ki, əməliyyat çərçivəsində 20-dən çox ölkədə yüzlərlə reyd keçirilib, onlarla qeyri-qanuni laboratoriya aşkar edilərək fəaliyyəti dayandırılıb və böyük həcmdə qadağan olunmuş maddələr müsadirə olunub.

### 3 güləşçimiz yarımfinalda

**Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatı davam edir. Dünən Azərbaycanın üç yunan-Roma güləşçisi yarımfinala vəsiqə qazanıb.**



Nihat Məmmədli (60 kq), Həsrət Cəfərov (67 kq) və Qurban Qurbanov (82 kq) bu raunda yüksəliblər.

Nihat Məmmədli (60 kq) 1/4 finalda Vladislav Kuzkonu (Ukrayna) məğlub edib. O, yarımfinalda Suren Ağacanyanla (Ermənistan) qarşılaşacaq.

Həsrət Cəfərov (67 kq) ardıcıl olaraq Niklas Yan Ohlen (İsveç) və Abu Amaeva (Bolqarıstan) qalib gəlib.

Qurban Qurbanov (82 kq) isə Svetoslav Nikolov (Bolqarıstan) və Mixail Bradandan (Moldova) güclü olub.

Qeyd edək ki, Avropa çempionatı aprelin 26-da başa çatacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

# BİLDİRİŞ

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı toksik aktivlər üzrə əldə edilmiş istehsal tarixi 1993 – 2013-cü illər arasında dəyişən istifadəyə tam yararsız olan nəqliyyat vasitələrinin 1 (bir) lot üzrə satışı həyata keçiriləcəkdir.

**1 (bir) lot üzrə cəmi dəyər - 19 450,00 manatdır.**

**Əlaqələndirici şəxs: Şahin Seyidov - 050-235-99-90.**

*Təbiət təmasa çağırır bizi*

# Paytaxtın "Gənclik" parkı – yaşıl gələcəyin ləpirləri

**2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq ili" elan olunması Azərbaycanın müasir inkişaf mərhələsində şəhər mühitinə verilən önəmin bariz ifadəsidir. Bu əlamətdar ildə Bakının Ümumdünya Şəhərsalma Forumu – WUF13-ə ev sahibliyi etməyə hazırlaşması isə paytaxtın qlobal urbanizasiya xəritəsində mövqeyini daha da möhkəmləndirir.**





Belə bir dövrdə şəhərsalma sahəsində həyata keçirilən hər bir layihə, yaradılan hər bir yeni məkan yalnız yerli deyil, beynəlxalq miqyasda da diqqətlə izlənilir. Nərimanov rayonunda - metronun "Gənclik" stansiyasının yaxınlığında salınan, "Antena" sahəsi kimi tanınan, paytaxt sakinlərinin yaddaşında "Gənclik" parkı kimi yer alan yaşıllıq məkanı da məhz belə uğurlu layihələrdən biridir.

2025-ci ildə əsaslı yenidənqurmadan sonra istifadəyə verilən park qısa müddətdə şəhərin ən sevilən istirahət ünvanlarından birinə çevrilmişdir. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı bu layihənin dövlət səviyyəsində xüsusi əhəmiyyət daşıdığını bir daha təsdiqləmişdir.

Ümumi sahəsi 19 hektara yaxın olan parkın böyük hissəsi yaşıllıq zolaqları ilə əhatə olunmuş, burada minlərlə ağac və dekorativ bitki əkilmişdir. Müasir suvarma sistemi, işıqlandırma infrastrukturu, fəvvarələr, piyada və velosiped yolları, idman və uşaq əyləncə zonaları parkın funksionallığını daha da artırır. Bu məkan artıq təkcə istirahət üçün deyil, həm də sağlam həyat tərzinin təşviqi üçün mühüm bir platformaya çevrilmişdir.

Parkın mühüm üstünlüklərindən biri də onun Dədə Qorqud parkı ilə yeraltı keçid vasitəsilə birləşdirilməsidir. Bu, şəhərsalma baxımından olduqca uğurlu həll olmaqla yanaşı, paytaxtda vahid yaşıllıq zolağının formalaşdırılmasına xidmət edir və sakinlərin rahat hərəkətini təmin edir.

Yazın gəlişi ilə yenidən yolumuzu bu yaşıl məkandan saldıq. Park sanki yenidən doğulmuşdu – ağaclar tumurcuqlamış, çiçəklər rəngə boyanmış, fəvvarələrin səsi isə yazın ritmini pıçıldayırdı. Görünüşü və funksional imkanları ilə geniş məşhurluq qazanmış "Gənclik" parkı adından da göründüyü kimi, ilk növbədə, gənclərin istirahəti, idmanı və sosiallaşması üçün nəzərdə tutulsa da, buraya ailələr, yaşlı insanlar və uşaqlar da tez-tez gəlirlər. "Gənclik" parkı bu gün Bakının əsas istirahət məkanlarından biri olmaqla yanaşı, həm də şəhərsalma baxımından mühüm bir layihənin tərkib hissəsi kimi qiymətləndirilir.

Müasir istirahət kompleksinin ərazisinin 14 hektarında yaşıllıq sahələri salınıb, 20 mindən çox ağac və kol əkilib. Parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və binada bərpa işləri aparılıb. Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Belə ki, burada kiçik yaşlı uşaqlar üçün təhlükəsiz oyun meydançaları, açıq havada trenajorlar, velosiped yolları, basketbol və futbol meydançaları, fontanlar və kiçik süni göl, kafe və restoranlar, həmçinin "street food" tərzində fəaliyyət göstərən kiçik köşklər, konsertlər və tədbirlər üçün istifadə olunan açıq səhnə quraşdırılıb. Bütün bunlar istirahət məkanına əlavə gözəllik verir.

**Oturacaqlardan birində əyləşmiş iki tələbə ilə söhbətə başladıq. Onlardan biri – Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Toğrul Əliyev dedi:**

– Son illər Bakıda keçirilən forumlar ölkəmizi daha yaxşı tanıdır. Biz də burada, belə yerlərdə xarici qonaqlarla tez-tez qarşılaşırıq. Bu park da artıq beynəlxalq mühitin bir hissəsinə çevrilib.

**Bir qədər irəlidə velosiped sürən gənclər diqqətimizi çəkdi. Onlardan biri, Anar, parkın yenilənmiş siması haqqında fikirlərini belə ifadə etdi:**

– Əvvəllər də bura gəlirdik, amma indi daha səliqəli, daha müasirdir. Düşünürəm ki, şəhərə gələn qonaqlar üçün də bu cür məkanlar çox önəmlidir.

**Parkın mərkəzinə yaxın hissədə isə diqqətimizi fərqli bir sima çəkdi. Əlində fotoaparat olan orta yaşlı bir kişi ətrafı diqqətlə izləyirdi. Onunla söhbət zamanı məlum oldu ki, o, İtaliyadan gəlmiş turist Markodur. O, Bakıya turist kimi səyahətə gəldiyini bildirdi:**

– Bakı məni çox təəccübləndirdi. Burada müasirlik və ənənə harmoniyadadır. Bu park isə şəhərin ruhunu hiss etmək üçün ideal yerdir. İnsanlar çox mehribandır. Markonun sözləri bir daha təsdiqlədi ki, bu cür ictimai məkanlar təkcə istirahət üçün deyil, həm də mədəniyyətlərarası ünsiyyət üçün mühüm platformadır. Parkda eşidilən müxtəlif dillər, fərqli mədəniyyətlərin nümayəndələrinin bir arada olması Azərbaycanın açıq və qonaqpərvər ölkə olduğunu nümayiş etdirir.

**Bir qədər irəlidə uşaq meydançasından gələn gülüş səsləri bu fikirləri yarımçıq kəsir. Gənc ana Nigar xanım deyir:**

– Şəhərdə uşağı harasa aparmaq çətindir. Amma bura həm təhlükəsizdir, həm də genişdir. Saatlarla qalmaq olur.

Bakı şəhərinin gündəlik tələskənliyindən bir qədər uzaqlaşıb nəfəs almaq istəyən ailələrin ən sevdiyi ünvanlardan biri də məhz bu parkdır. Xüsusilə yaz aylarında bura tamam başqa bir rəng alır – məktəblilər valideynləri ilə birlikdə bura axışır, yaşıllıq isə sanki onların sevincini daha da artırır.

**Parkın günəşli və sakit guşələrindən birində piknik edən məktəblilərin şən səsi diqqətimizi cəlb edir. Onlardan biri Ömür Əliyeva gülümsəyərək deyir:**

– Biz Xəzər rayonunun 123 saylı orta məktəbinin 8 "B" sinif şagirdləriyik. Bu gün dərs deyil, həftəsonudur. Günəşli hava fürsətini qaçırmayıb bura piknikə gəlmişik. Park çox gözəldir, burada vaxt keçirmək insana həqiqətən xoş əhval bəxş edir".

**Onların yanında olan valideyn Firuzə xanım isə bu fikirləri tamamlayır:**

– Belə gözəl, səliqəli və təhlükəsiz parkların olması ailələr üçün böyük üstünlükdür. Uşaqlar açıq havada dincəlir, bir-biri ilə ünsiyyət qurur, təbiətə yaxın olurlar. Bu cür yaşıllıq məkanları insanın ruhunu dincəldir, şəhər həyatına xüsusi bir rahatlıq gətirir.

Ən maraqlısı isə budur ki, park günün hər saatında fərqli "yaşayır". Səhərlər idman edənlərin, günorta ailələrin, axşam isə gənclərin məkanına çevrilir. Sanki hər saat park yeni bir hekayə yazır.

"Gənclik" parkı həm də şəhərin nəfəsidir. Beton binaların arasında sıxılmış həyat üçün açıq bir pəncərədir. Burada insanlar təkcə gəzmirlər, düşünürlər, xatırlayırlar, bəzən də sadəcə susurlar.

Gün batımına yaxın parkın üzərinə yayılan sakitlikdə belə həyatın ahəngi hiss olunur. Yarpaqların xışıltısı, fəvvarələrin şırıltısı, uzaqdan gələn uşaq gülüşləri – bütün bunlar bir şəhərin nəfəsidir. Bu nəfəs yaşıl nəfəsdir. Bu nəfəs Bakının gələcəyidir. "Gənclik" parkı isə həmin gələcəyin bu gündən görünən ən gözəl ünvanlarından biridir.

*Nurəngiz ADİLQIZI,*
*Rauf İBRAHİMOV (foto)*
*XQ*


# "Rabitəbank" ASC səhmdarlarının nəzərinə!

"Rabitəbank" ASC-nin müşahidə şurasının 21 aprel 2026-cı il tarixli 23 nömrəli qərarına əsasən, 2026-cı il iyunun 5-i, saat 17.00-da bankın səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** "Rabitəbank" ASC-nin kənar auditor tərəfindən təsdiqlənmiş 2025-ci il üzrə maliyyə hesabatının və idarəetmə hesabatının təsdiq edilməsi.

**2.** "Rabitəbank" ASC səhmdarlarının ümumi yığıncağının əsasnaməsinin yenilənməsinin təsdiq edilməsi.

**3.** Digər məsələlər.

Yığıncağın keçiriləcəyi ünvan: Bakı şəhəri, Füzuli küçəsi 71 (Rabitəbank ASC-nin inzibati binası).

**Qeyd:** səhmdarların qeydiyyatı yığıncaq günü saat 16.30-dan etibarən aparılacaqdır.

İştirak üçün şəxsiyyət vəsiqəsi təqdim edilməlidir. Nümayəndə vasitəsilə iştirak zamanı müvafiq qaydada təsdiq edilmiş etibarnamə tələb olunur.

Səhmdarlar gündəlikdə nəzərdə tutulmuş məsələlər üzrə materiallarla bankın baş ofisində, habelə elektron qaydada müraciət etməklə tanış ola bilərlər.



# "Binəqədi Yük Avtonəqliyyat–1" ASC səhmdarlarının nəzərinə!

8 iyun 2026-cı il saat 11.00-da "Binəqədi Yük Avtonəqliyyat–1" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2025-ci ilin maliyyə-təsərrüfat balansının təsdiq edilməsi.

**2.** Dividendlərin verilməsi.

**3.** Digər məsələlər.

Yığıncaqda səhmdarların iştirakı vacibdir.

**Ünvan:** *Bakı şəhəri, Binəqədi rayonu, Xırdalan-Binəqədi şosesi 1N.*

***İdarə heyəti***


## HAVA

# Gündüz yağmursuz, gecə çiskin, duman və yağış...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi yerlərdə duman, çiskin olacağı ehtimalı var. Şimal-qərb küləyi günün ikinci yarısında mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 9-11, gündüz 15-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 757 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 75-80, gündüz 60-65 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-10, gündüz 17-22 dərəcə isti, dağlarda gecə 1-6 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və qəzetin kollektivi Əməkdar jurnalist Rəhim Hüseynzadəyə bacısı

**DİLŞAD XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi Dövlət Tarix Arxivinin sənədlərin mühafizəsi və uçotu şöbəsinin müdiri Kitayə Poladovaya həyat yoldaşı

**MEHMAN POLADOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

BDU-nun filologiya fakültəsinin 1984-cü il məzunları tələbə yoldaşları

**MİRVARİ ASLANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Pedaqoji Universiteti filologiya fakültəsinin 1987-ci il 406-cı qrup məzunları tələbə yoldaşları

**ARZU RÜSTƏMOVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun həyat yoldaşı Şahin Rüstəmova və doğmalarına dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov və aparatın kollektivi Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimliyə anası

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3124
SİFARİŞ 514
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00